# AMERİKANIN GÖRƏ BİLMƏDİYİ PKK

ADNAN OKTAR

(Harun Yəhya)

# MÜNDƏRİCAT

GİRİŞ

1-Cİ HİSSƏ

EVANJELİZM VƏ YAXIN ŞƏRQ MEHVƏRİ

Evanjelizmin qısa tarixi

Evanjelizmin yayılması və Axırzaman

Evanjelizmin təsir gücü

2-Cİ HİSSƏ

ƏSRİN HƏDƏFİ: YAXIN ŞƏRQİ BÖLMƏ EHTİRASI

Bir vasitəçi olaraq musəvi lobbisi

Mübarək topraqlar üzərində parçalama planları

Türkiyə üzərində gizli və açıq planlar

Evanqelist planlarından bəhs etməyimizdəki məqsəd

3-CÜ HİSSƏ

SEVR HƏSRƏTI: BÖYÜK KÜRDÜSDAN

Qərb PKK-nı, PKK isə Qərbi istifadə edir

PKK nə üçün quruldu

PKK-nın imperializm maskası

PKK-ya bir sığınacaq: 36-cı paralelin şimalı

Tarixdəki məşhur kommunist taktikaları

PKK-nın istifadə etdiyi kommunist taktikalar

1. İmperializm maskası altında qadınlar

PKK-lı qadınlar nələr danışır

2. İmperializm maskası altında din

Kürd milliyətçiliyinin görünüşünə uyğun dindarlıq örtüsü

Türk təhsil tədris sistemi şüursuzca PKK-nın ideologiyasına dəstək verir

3. İmperializm maskası altında demokratiya və dövlət

## 4-CÜ HİSSƏ

QƏRBDƏ PKK QAVRAYIŞI

PKK-nı istifadə etmək istəyənlər

PKK-nın tələsinə düşənlər

Qərbin Kobani həssaslığı

PYD üzərinə fərziyyələr

Suriyada kürdlərə PYD təzyiqi

Bir qisim qərblilərin PKK lehində hərəkət etmələrinin əsil səbəbi

Öcalana və PKK-lılara əfv gözlənilməsi acizlikdir

Qlobal mediya diktatorluğu və qərbdə qavrama əməliyyatları

## 5-Cİ HİSSƏ

TÜRKİYƏ NECƏ BİR RİSK ALTINDADIR?

"Demokratik muxtariyyətə" doğru gizli addımlar

2014 yerli seçimləri və hiyləgər planın elanı

Demokratik muxtariyyət adı altında torpaq tələbi

Qanuni dövlət içində təşkilatlanmış qanunsuz bir dövlət: KCK

1. Diktatorluq sistemi və liderin bütləşdirilməsi

2. KCK müqaviləsinin irəli sürdüyü ilk kommunal cəmiyyət

3. Azadlıq həvalə etmə deyil: KCK vətəndaşlığı

4. Təşkilatın terroru qanuniləşdirmə cəhdi

5. Mövcud dövlət quruluşunun yıxılaraq yeni bir dövlət quruluşunun qurulması

KCK ilə planlanan əsas hədəf

KCK təşkilatının ölçüləri

PKK heç vaxt silahı tərk etmədi, etməz!

PKK-da daxili edamlar

## 6-CI HİSSƏ

TÜRKİYƏ NƏ ETMƏLİ?

Vacib xatırlatma

1. Dövlətin çəkindirici istiqaməti hiss etdirilməlidir

2. Mühafizə sistemi gücləndirilməlidir

3. Kürd ana dili: Taktikadır, ya zərurət?

4. Dindarlığın gücləndirilməsi

5. İraq kürd bölgəsi və İran ilə ittifaq

6. Qərb ilə yaxın həll yolları təmin etmək

7. Qəti həll yolu: PKK-nın ideologiyasını vurmaq!

Təhsil olmadan kommunist terror sona çatmaz

7-Cİ HİSSƏ

KÜRD QARDAŞLARIMIZIN PROBLEMLƏRİNİ ANLAMAQ

İki təhlükə arasında kürdlər

Kürd və PKK seçimini yaxşı etmək

Sevgi olmadan həll yolu olmaz

Hökumətimizin üzərinə düşən vəzifə

Xalqımızın üzərinə düşən vəzifə

8-Cİ HİSSƏ

DÜNYANIN QURTULUŞ VAXTI YAXINDIR

Qərb dünyasına bir xatırlatma

Kürd qardaşlarımıza bir xatırlatma

İslam Birliyi, amma necə?

Hz. Mehdi (ə.s) müjdəsi

NƏTİCƏ

ƏLAVƏ HİSSƏ:

TƏKAMÜL YANILMASI

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib

edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# GİRİŞ

Güclü Osmanlı idarəsi altındaykən belə üzərində planların və daxili qarışıqlıqların əksik olmadığı Yaxın Şərq hər zaman gündəmdə olan bir coğrafiya olmuşdur. Əslində, bu coğrafiya doğru ifadəylə “şərqdir"dir. Onu Yaxın Şərq halına gətirən isə dəniz ticarət yollarıdır. Bu dəyərli dənizlər Yaxın Şərqi bildiyimiz şərqdən ayırmış misilsiz hala gətirmişdir. Yaxın Şərqin nefti, təbii qazı və digər zənginlikləri bu ticarət yolları ilə qərbə çatmış, qərbin ticarət malları və silahları da yenə bu limanlardan keçmişdir. Dəyərli olan bu bölgə üzərində əlbəttə ki, müharibələr də çox olmuşdur. Osmanlının hakimiyəti bu döyüşlərin qarşısını alarkən, döyüşləri hərəkətə gətirən isə Osmanlının dağılması olmuşdur. Yaxın Şərq, Osmanlı hakimiyyəti dövründə belə qərbli güclər tərəfindən gizli razılıqlarla paylaşılmış, üzərində mənfəət planları qurulmuşdur. I Dünya Müharibəsi zamanı, hələ müharibə bitmədən Antanta dövlətləri öz aralarında Yaxın Şərqə sərhəd çəkərək və sərhədləri hakimiyyət altına alacaq qədər irəli getmişlər. Yaxın Şərq parçalanarkən yeni yaranan ölkələrin sərhədləri xətkeşlə çəkilmiş, bu süni sərhədlərə bütün Yaxın Şərq xalqı riayət etmək məcburiyyətində qalmışdır.

O zamandan bu yana Yaxın Şərq əslində Qərb hegemoniyası altındadır. Qərb, əvvəllər bu ölkələri birbaşa idarə etmək istəmiş, bunun çətinlikləriylə baş edə bilmədikdə diktatorlar və müxtəlif aktyorlar istifadə etmişdir. Diktatorluqların bir qismi xalq qiyamlarıyla yıxılarkən, bir qismi müxtəlif bəhanələrlə ABŞ və koalisiya güclərinin işğalına uğramış, milyonlarla insanın ölümüylə nəticələnən bu işğallar savaş belə sayılmamışdır. Qərb hegemoniyası nifrəti özü ilə gətirmiş, Qərbin ilk başda Rusiyaya qarşı dəstəklədiyi radikal güclər şaxələnib, budaqlanmış və bu dəfə Qərbə qarşı terror hərəkəti olaraq bütün Yaxın Şərqi əhatə etmişdi. İndiki mənzərəyə baxdığımızda isə gözəl Yaxın Şərq, döyüş, nifrət, kin və müharibə meydanlarını xatırladır. Qərbə qəzəblənən xalqlar bir-birinə qarışmış, bir-biriylə ittifaq qura bilməyən müsəlmanlar bir-birini qətl etməyə başlamışlar.

İşin təəccüblü tərəfi isə, bu mənzərənin çıxış nöqtəsinin illər əvvəl təsbit edilmiş bir planın hissəsi olmasıdır. Yaxın Şərqdə axan qan, tamamilə səhv idarə və siyasətlərdən qaynaqlanan faciəvi bir nəticə deyil, əksəriyyətlə xüsusi olaraq hazırlanmış və hələ də işləyən bir ssenarinin hissəsidir. Yaxın Şərqdən cənazələrin çıxması, insanların kinli olması, bir-birlərinin şəhərlərini yıxmaları bir qisim insan və kütlələr tərəfindən onsuz da istənən və gözlənilən bir nəticədir. Yaxın Şərq üzərindəki planlar əvəlcədən bu əsasa görə hazırlanmış və həyata keçirilmişdir.

Bu planın ən böyük hədəflərindən biri parçalanmış ölkələrdir. Dövrümüzdə, Suriya və İraq, bu plana bağlı olaraq parça-parça edilərkən, hədəfdəki digər ölkələr üzərində də fərqli planlar bilinən üsullarla tətbiq olunur. Osmanlı dağıldığından bəri, daha dəqiq bir ifadə ilə Sevrdən bəri, üzərində yüz ildir plan qurulan bu ölkələrdən biri və bəlkə də ən başlıcası Türkiyə olmuşdur.

Bu kitab, Türkiyə üzərindəki parçalama planlarının nə səbəbə və necə inkişaf etdiyi, hansı üsullarla tətbiq olunduğu, PKK-nın nə səbəbə bu ssenaridə iştirak etdiyi və bunu aradan qaldırmaq üçün nələr edilməli olduğunu olduqca əhatəli və əhəmiyyətli sənədlərlə izah edir. Lakin əvvəl, Yaxın Şərq üzərində inkişaf etdirilən planların qaynağına getmək lazımdır.

# 1-Cİ HİSSƏ

# EVANJELİZM VƏ YAXIN ŞƏRQ MEHVƏRİ

## Evanjelizmin qısa tarixi

Xristian inancı, katolik və pravoslav kimi müxtəlif kilsələrə bölündükdən sonra, xristianlığın içində reformist bir hərəkat başladı. Bu hərəkat, katolik məzhəbinin indulgensiya (Orta əsr Avropasında bir növ günah çıxarma və ölümdən sonra cənnətə getmək üçün Papanın satdığı əfv sənədi) ilə pul qazanmasını, ayin dilinin latınca olmasını və Papanın yanılmazlığını tənqid edirdi. Almaniyada Martin Luther, Fransa və İsveçrədə isə Johannes Calvin tərəfindən başladılan bu yeni axın "Protestantlıq" olaraq tanındı.

Protestantlığa görə tövbə, insan ilə Allah arasında idi. Buna görə də kilsəyə pul vermək lazım deyildi, Papanın üstün qəbul edilmiş yanılmazlığı ortadan qalxırdı. Bu axına görə dində əsil qaynaq, Papanın fətvaları, ya kilsənin sanksiyaları deyil, yalnız Müqəddəs Kitab idi.

Evanjelizm isə protestantlığın bir qoludur. Kəlmə mənasıyla "müjdə" ya "xoş xəbər" mənası verən evanjelizmdə, İncildə hz. İsa (ə.s)-ın həvariləri olaraq bəhs edilən Matthew, Mark, Luke və John evanqelist olaraq adlandırılırlar. Evanqelist terminini ilk istifadə edən isə, Martin Luther olmuşdur.

Luther, İncilin katolik kilsəsi tərəfindən səhv şərh olunmuş və təhrif edilmiş olduğunu görmüş və bu səbəblə, Əhdi-Ətiqə (Tövrat və Zəbur) daha çox yer vermişdir. Sonrakı dövrlərdə protestant məzhəbi daha fərqli fikir qruplarına ayrılmış, lakin buna baxmayaraq inanc əsasları və Əhdi-Ətiq də daxil olmaqla Müqəddəs Kitab mövzusunda mərkəz fikirdən uzaqlaşılmamışdır.

Evanjelizmin, kilsənin din üzərindəki təzyiqlərini qaldıraraq xristianların İncilə və eyni zamanda Tövrata dönmələrini əsas alması olduqca əhəmiyyətli və lazımlı bir islahatdır. Səmimi bir inanc şəkli olan evanjelizm məzhəbinin tərəfdarları, sevgi və sülh tərəfdarı xüsusiyyətlərini daim ayaqda tutmuş və sonrakı sətirlərdə daha ətraflı araşdıracağımız kimi "təbliğ" əsasına əhəmiyyət verdiklərindən, insanların dindarlaşmalarına böyük töhfə vermişlər. Yenə sonrakı sətirlərdə araşdıracağımız kimi evanqelistlərin Axırzaman ilə əlaqədar gözləntiləri və hz. İsa (ə.s)-ı təkrar qarşılama həyəcanları böyük bir sevginin və dindarlığın göstəricisidir. Bu istiqamətdə, Qurana tabe olan əsil müsəlmanlarla paylaşdıqları bir çox ortaq xüsusiyyətləri var.

Ancaq hər dində olduğu kimi evanjelizm məzhəbi içində də bəhsi keçən təlimləri fərqli şəkillərdə şərh edən, Axırzaman məsələlərini olduğundan fərqli anlayan, sülh dini xristianlığı və sülh elçisi hz. İsa (ə.s)-ı döyüş ilə əlaqələndirməyə çalışan müxtəlif kütlələr vardır. Bu kəslər İncildəki bəzi keçidlərdən yola çıxır və döyüş ssenariləri üçün öz ağıllarına görə güclü dəlillər tapırlar. Bu baxımdan, əslində özlərinə görə səmimi bir

yanaşma edirlər. İncili əsas alır, doğrunu etdiklərinə inanır, lakin İncilin dərinliklərində olan bəzi məcazi anlayışları görə bilmirlər. Bu şərh etmə xətasındakı ikinci problem isə, İncildən sonra "İncil və Tövratı təsdiq edən" olaraq göndərilmiş Qurana müraciət etməkdə çətinlik çəkmələridir. Halbuki, hz. İsa (ə.s)-ın gəlişi Quranda da açıq ayələrlə bildirilmiş və bütün insanların iman etdiyi sülh mühitinin müjdəsi verilmişdir.

Bu kitabda çıxış nöqtəsi, Axırzamanı müqəddəs kitablardan fərqli və riskli şəkildə şərh edən haqqında danışdığımız kütlənin fikirləridir. Çünki bu kəslərin çoxu yaxşı niyyətlə və bəlkə də istəmədən qorxuducu bir ssenariyə liderlik edirlər. Yaxın Şərqdə Axırzaman ssenarilərini sürətləndirməyə çalışarkən əslində qanlı Yaxın Şərqin fundamentini hazırlayırlar. Bunun necə olduğu isə sonrakı sətirlərdə açıqlanır.

## Evanjelizmin yayılması və Axırzaman

Protestantlıq məzhəbi ilə ortaya çıxan və XVIII əsrə qədər Avropada doğulub bura yerləşən bəzi cərəyanlar, müstəmləkəçilik ilə birlikdə dünyanın müxtəlif bölgələrinə çatmışdır. Bu bölgələrdən ən əhəmiyyətlisi Amerika qitəsidir. İngiltərədə Anqlikan bir keşiş olan John Nelson Darbynin Amerika səyahətləri sonrasında evanqelist düşüncənin sürətlə yayıldığı məlumdur. Darbynin ardıcılları özlərini "dispensalist" olaraq da adlandırmışlar.

Bu inancı təqib edənlərin ən əhəmiyyətli xüsusiyyəti, dünyanın son dövründə Məsihin geri dönüşünə və qiyamətin reallaşmasına inanmalarıdır. Məsihin dünyaya gəlişi üçün baş verməli olduğuna inandıqları şərtlər isə bunlardır:

Mübarək torpaqlar üzərində musəvi dövləti qurulması,

Qüdsün paytaxt olması,

Süleyman məscidinin yenidən inşası,

Bütün insanlara İncilin vəz edilməsi,

Musəvilər və iman edənlərin (xristianların) əziyyət görməsi,

Armaqedon müharibəsi,

İnananların (xristianların) göyə yüksəlməsi.

Bu maddələrdən də aydın olacağı şəkildə evanqelistlər təməldə sionist xristianlardır. Məsihin gəlişinin reallaşması üçün mütləq musəvi dövlətinin müqəddəs torpaqlarda qurulmasının vacibliyinə inanırlar. Məhz bu səbəblə də daim, sionist musəvilərlə ittifaq içində olmuşlar.

Bunun əhəmiyyətli dəlillərindən biri tarixdə reallaşdırılmış olan sionist konqresləridir. Theodor Herzlin 1897-ci ildə topladığı və musəvilərin müqəddəs torpaqlara getməsini nəzərdə tutan 1-ci Sionist konqresin dərhal arxasından yenə Baseldə 2-ci Sionist konqres toplanmışdır. Həmin yığıncaqdan sonra, İordan çayının qərb sahilində İsrail dövləti yaradılması qərarı alınmış, buna etiraz edən bir musəviyə isə

Beynəlxalq Xristian Elçiliyi nümayəndəsi Van der Hoeven bu cavabı vermişdir: "İsraillilərin nə düşündüyü bizə maraqlı deyil. Biz Tanrının nə söylədiyinə baxarıq və Tanrı o torpaqların musəvilərə aid olduğunu söyləyir."

Əslində bu reaksiya, hal-hazırda davam edən evanqelist sionizminin sərhədlərini bilmək baxımından əhəmiyyət daşıyır. Çünki görünüşcə musəviləri və musəvi torpaqlarını qoruma görünüşündə ortaya çıxan bu hərəkat, əslində musəvilərin də qətl ediləcəyi bir son üçün hazırlıq görür. Bu səhv inanca görə, yalnız xristianlığı seçən 144 min musəvi həyatda qalacaq, lakin digər musəvilər, "bütün müsəlmanlar" la birlikdə qətl ediləcək.

Bu mövzunu bir az sonra araşdıracağıq.

İsrail dövləti 1948-ci ildə qurulmuş, Qüds 1967-ci ildə paytaxt elan edilmişdir. Bu səbəbdən, evanqelistlərin gözlədikləri kahinliklərindən biri reallaşmışdır. Axırzamanın işarəsi olan bu əlamətlər özünü göstərdikcə, evanqelistlər də bu sonu sürətləndirmə səyi içinə girmişlər. Armaqedon müharibəsi adına Yaxın Şərqin şəkilləndirilməsi hədəfi məhz buna görə bu əsrdə sürət qazanmışdır.

## Evanjelizmin təsir gücü

Allaha gözəl və yaxşı bir qul ola bilmək, bütün dinlər və məzhəblərdə olduğu kimi xristian məzhəblərində də əsasdır. Evanjelizm də bu əsas üzərində qurulmuşdur. Evanjelizmi digər xristian məzhəblərdən ayıran ən böyük xüsusiyyətlərindən biri isə, digər məzhəblərdə çox da önə çıxmayan "təbliğ" dir. Öz dinlərinin əsaslarını digər insanlara izah etmək, yəni aktiv missionerlik siyasəti bu məzhəbin təqibçilərində yayılmış vəziyyətdədir. Məhz bu səbəblədir ki, evanjelizm xüsusilə Amerikada gün keçdikcə daha çox adı keçən və geniş kütlələrə yayılan bir məzhəb halına gəlmişdi. Bunu rəqəmlərdən də anlaya bilmək mümkündür.

Vətəndaş müharibəsi dövrü Amerikada (1861-1865) evanqelist kilsə mənsubu sayı 4 milyonkən, bu gün bu rəqəmin 70 milyon olduğu iddia edilir. 2014-cü il məlumatlarına görə amerikalıların 25.4% -i özlərini evanqelist olaraq tanıdırlar. Hər nə qədər ilk ortaya çıxış şəkli xristianlığa katolik inancından fərqli izahlar gətirmək olsa da, zəmanəmizin evanjelizm anlayışı katolik inancı ilə ciddi münaqişə halında deyil.

Bunu ifadə etmək lazımdır: Hər nə qədər müxtəlif şərhlər səbəbiylə bəzən özündən fərqli mənalara və məzhəblərə bürünmüş olsa da xristianlıq inancının güclənməsi, xüsusilə dinsizliyin yayılmış olduğu bir dövrdə Allaha inancın inkişaf edib yayılmasını biz istəyərik. Xristianlar əlbəttə daha çox dindar olmalı, Müqəddəs Kitablarına daha çox sahib çıxmalı, Amerikada və xristianlığın yayıldığı bütün digər ölkələrdə mənəviyyat daha çox güclənməlidir. Amerika da, digər bütün ölkələr də, dindar olduqları müddətcə bərəkətlənmiş və xoşbəxt olmuşlar. Bu səbəbdən, müsəlmanlar arasında müsəlmanlığın, xristianlar arasında xristianlığın, musəvilər arasında da musəviliyin inkişaf edib güclənməsi hər zaman istəyəcəyimiz və təşviq edəcəyimiz bir gözəllikdir.

Bununla yanaşı, evanqelist inancının Məsihi gözləməsi də bizim üçün sevinc vəsiləsidir. Bilindiyi kimi, biz müsəlmanlar da yaşadığımız son-Axırzamanda hz. Mehdi (ə.s)-ın zühur edəcəyini və hz. İsa (ə.s)-ın yenidən yer üzünə enəcəyini bilirik. Bu səbəbdən, xristianlarla bu mövzuda bənzər görüş içində olmaq sevindiricidir və xristianlara sevgimizi və dəstəyimizi artıracaq, onlarla ittifaqımızı gücləndirəcək həyəcan verici ortaq bir nöqtədir.

Bəhs etdiyimiz evanqelistlərin Yaxın Şərqdə İsrail dövlətinin qurulmasını gözləməsi də qəribsənəcək bir davranış deyil. Qurana görə musəvilərin müqəddəs torpaqlarda yaşamaq hüququ vardır və bu həqiqət Tövratda olduğu kimi Quranda da bir çox ayədə keçən bir vəziyyətdir. Maidə surəsinin 20 və 21-ci ayələrində belə bildirilir:

**O zaman Musa öz qövmünə demişdi: "Ey qövmüm! Allahın sizə olan nemətini xatırlayın. O, sizin aranızdan peyğəmbərlər göndərdi, sizi hökmdarlar təyin etdi və aləmlərdən heç kəsə vermədiyini sizə verdi. Ey qövmüm! Allahın sizin üçün müəyyən etdiyi müqəddəs torpağa daxil olun və arxa çevirməyin ki, ziyana uğrayaraq dönməyəsiniz". (Maidə surəsi, 20-21)**

Bu səbəbdən, 5000 il sonra hələ müqəddəs torpaqlar üzərində musəvilərin varlığını görmək, biz müsəlmanlar üçün Allahın vədini görmək mənasını daşıyır, sevinc vəsiləsidir. O torpaqlarda, keçmişdə olduğu kimi musəvilərin, xristianların və müsəlmanların bir yerdə sülh içində yaşadığı bir dövrü görmək ən böyük arzularımızdandır.

Burada üzərində duracağımız və tənqid mövzusu olan qisim, bir qisim evanqelistlərin, Yaxın Şərqdə döyüş gözləntilərinin gərəyi olaraq Yaxın Şərqi buna görə şəkilləndirmə səyi, bir baxıma Məsihin gəlişini tezləşdirmə ehtirası, mübarək torpaqlar mövzusundakı bəzi inanc və səhv proqnozların təhlükəli ölçülərə çatmış olmasıdır.

Əvvəlcə, hz. Mehdi (ə.s) və Məsihin gəliş tarixi Allahın təsbit etdiyi qədərdə müəyyən bir vaxtdır. Bu səbəbdən, heç kim, heç bir şərt, heç bir əlamət bu çıxışı vaxtından daha erkən hala gətirməyəcək, tezləşdirməyəcəkdir. Mübarək torpaqlar üzərində reallaşması gözlənilən Armaqedon müharibəsi isə 2003-cü ildə baş verən İraq müharibəsi ilə başlamış və indi hələ də Yaxın Şərqdə davam edən qarşıdurmaların hamısıdır. 2003-cü il İraq müharibəsi, İncildə Armaqedon olaraq ifadə edilən, hədislərdə və Tövratda da bütün əlamətləri təsvir edilən Axırzaman əlaməti olan böyük müharibənin başlanğıcı hökmündədir. Bu böyük müharibə, zamana yayılmış vəziyyətdədir. Hal-hazırda İslam dünyasında bu qədər çox qanın axması, demək olar ki, hər Yaxın Şərq ölkəsində müsəlmanların şəhid edilməsi, tam olaraq Armaqedon müharibəsinin yaşandığını göstərir.

Bu səbəbdən, evanqelistlərin gözlədiyi şəkildə gələcəkdə müstəqil, fərqli qanlı müharibə mühiti reallaşmayacaq. Bunu da qeyd etmək lazımdır ki, evanqelistlər tərəfindən müəyyən edilən müqəddəs torpaqların əhatəsi, musəvilərin inancından daha fərqlidir və daha geniş sərhədlərə çatır. Bunun bir nəticəsi olaraq da Yaxın Şərqin müharibə mühitinə hazırlaşma düşüncəsi və bu istiqamətdə görülən işlər hər baxımdan

böyük səhvdir. Planlaşdırılan ən böyük səhvlərdən biri isə, Yaxın Şərqin bel sümüyünü meydana gətirən dörd əsas ölkənin parçalanaraq Böyük Kürdüstan qurulması xəyalıdır. Bu kitab, indiki şərtlər altında bu xəyalın nə səbəbə səhv olduğunu və belə bir xəyalın Yaxın Şərqi, Avropanı və sonra bütün dünyanı necə bir faciəyəyə aparacağını izah edir.

# 2-Cİ HİSSƏ

# ƏSRLİK HƏDƏF: YAXIN ŞƏRQİ BÖLMƏ EHTİRASI

Osmanlı hələ dağılmadan Sykes-Picot kimi razılaşmalarla üzərində planlar qurulan Yaxın Şərqin parçalanma və gücsüzləşmə planları, illər boyunca bəlkə də üzərində ən çox danışılan, kəşfiyyat təşkilatlarının ən çox baş yorduqları mövzuların əvvəlində idi. Dövlət başçıları strategiyalarını buna görə təyin edər, ölkələr mövqelərini buna görə şəkilləndirərdi. Çünki yuxarıda təsvir etdiyimiz evanqelist inancına görə hz. İsa (ə.s)-ın çıxışının xəbərçisi olaraq qəbul edilən Armaqedon müharibəsi bu torpaqlar üzərində həyata keçiriləcəkdi. Bunun fundamenti hazırlanmalı və bu əhəmiyyətli zühur üçün mühit buna görə istiqamətləndirilməli idi.

Evanqelistlərin Amerikadakı siyasi qolunu təmsil edən "Yeni Mühafizəkarlar"ın (Neocon) bir hissəsi, bəhs etdiyimiz Yaxın Şərq planlarının ən böyük şəkilləndiricisidir. Təqib etdikləri bu siyasət, bəzi zaman istiqamətləndirici olur, lakin bəzən beynəlxalq hüququ heçə sayacaq şəklə bürünür, bəzən isə Amerikanın təməl xarici siyasəti ilə belə təzad təşkil edir. Buna göstərilən bəlkə də ən təsirli nümunə İraq müharibəsidir.

Amerika başçılarından Ronald Reagan, Yeni Mühafizəkarların bir nümayəndəsidir və həyatı boyunca qiyaməti görəcəyinə inanmışdır. Anti raket müdafiəetmə sisteminə olan əlaqəsinin də yenə qiyamət inancı ilə əlaqədar olduğu iddia edilmişdir. Çünki Əhdi-Ətiqdə keçən Ezekiel 38 və 39-cu keçidlərə görə qiyamət qopduğu əsnada Megiddo düzənliyində nüvə müharibəsi olacaq. Şiddətli yağışlarla birlikdə kükürd qaynayacaq, dağlar qopacaq, zəlzələlər baş verəcək. Evanqelistlər, bunun reallaşması üçün bir nüvə partlayışının olması lazım olduğuna inanırlar. Bu səbəbdən, mühiti buna hazırlamaq lazım olduğunu düşünmüşlər. Reagan məhz bu məqsədlə Yaxın Şərq siyasətini müəyyənləşdirmiş, hətta Liviyanın bombalanmasının vacibliyini Əhdi-Ətiqdən sözlər göstərərək açıqlamışdır. Buna görə Liviya, Axırzamanda İsrailə xəyanət edəcək ölkələrdən biridir. Bu səbəblə Reagan, Liviyanı əvvəlcədən cəzalandırmışdır.(3)

Yenə Yeni Mühafizəkarların nümayəndələrindən ABŞ prezidenti Corc W. Buş da, eyni şəkildə özünün Allah tərəfindən vəzifələndirildiyi inancındadır. Necə ki, İraq müharibəsi əsnasında Allahdan vəhy aldığını iddia etmiş və müqəddəs müharibə (holy war), şər mehvəri (evil axis), səlib yürüşləri (crusades), sağlam düşüncə (gut instinct) kimi terminləri tez-tez istifadə etmişdir. Bir nüvə raket bəhanəsiylə girilən İraq yerlə bir edilmiş, yalnız iraqlılar deyil, amerikalılar da çox ciddi itkilər vermiş və hər hansı bir nüvə tapıntısı ilə rastlaşmadan ölkə tərk edilmişdir. Ümumi olaraq, bütün dünyada müvəffəqiyyətsiz olmuş İraq müharibəsi portreti çəkilmişdir. Əslində isə, evanqelist inancın gərəkləri tam olaraq edilmiş və bu uğurda əslində özlərinə görə olduqca müvəffəqiyyətli bir əməliyyat həyata keçirilmişdir. Tam olması lazım olduğu kimi İraq parçalara ayrılmış, bir kürd muxtar bölgəsi qurulmuş, Səddam kimi bir diktatorun

inhisarında olan güclü ölkə tamamilə qeyri-sabit və terrorla iç-içə bir cəbhə halına gəlmişdir.

Buş, İraq hücumunu Tövratda keçən bu sözlərə əsaslandırmışdır:

***Rəbb deyir ki: "Məhz Babilə və Lev-Kamayda yaşayanlara qarşı yox edici bir külək çıxaracağam. Taxıl səpələyənləri göndərəcəyəm Babilə, onu sovurub təmizləsinlər, ölkəsini boşaltsınlar deyə. Dağılma günü hər tərəfdən hücum edəcəklər ona. Oxçu yayını çəkməsin, zirehini geyinməsin. Onun gənclərini əsirgəməyin! Ordusunu tamamilə yox edin. Kildan ölkəsində ölülər, Babil küçələrində yaralılar səriləcək yerə.*** *(Yeremya, 51: 1-4)*

Tövratdakı bu ifadələr bir kəhanət olaraq görüldüyündən, dünyanın super gücü ABŞ-ın liderliyini əlinə almış bir evanqelist olan Buş tərəfindən həyata keçirilir. Reallaşan bu döyüş əsnasında ortaya çıxan mənzərənin tam olaraq evanqelistlerin hədəflərinə işarə etməsi, onlar üçün qiyamətə bir addım daha yaxınlaşmaq mənasını verir. Necə ki, eyni dövrdə İraq Kürd bölgəsində, ata Mustafa Bərzaninin vermiş olduğu ***"kürd muxtar bölgəsi qurulan zaman ABŞ-ın 51-ci əyaləti olmağa hazır olacağıq"*** sözü bu gün böyük ölçüdə reallaşmış sayılır.

Bütün bu hadisələr əslində bir baxıma gələcəyə də investisiya şəklində inkişaf etdirilmiş və İraqın bu qeyri-sabit mühiti, bir çox radikal qrupun şəkillənib güclənməsinə təşəbbüskar olmuşdur. Əl-Qaidə ən çox hücumu İraqa yönəldərkən, hal-hazırda bütün dünyanın heç bir şəkildə həll edə bilmədiyi İŞİD İraqda doğulmuşdur. Bu səbəbdən, bu hal-hazırda yalnız İraq deyil, Suriya, Livan, Yəmən, Liviya, hətta Misirin belə bu hala gəlməsini tətikləyən ünsür, səbəbsiz başladılan İraq müharibəsidir. Planlandığı kimi bölgəyə qeyri-sabitlik, terror və bölünmə tam mənasıyla gəlmişdir.

Plan daxilində Yaxın Şərqdə güclü və sabit bir müsəlman ölkə buraxmamaq da vardır. Yaxın Şərq, mümkün qədər gücsüz, iradəsiz, məqsədsiz və şəxsiyyətsiz balaca bölmələr şəklində kiçik hissələrə bölünməli və bu şəkildə rahat və asan idarə edilə bilən hala gətirilməlidir. Nəzarət edilə bilinmədiyi, ya da bir anlaşılmazlıq olduğu təqdirdə isə sadə bir hərbi müdaxilə ilə asanlıqla yox edilə bilən xüsusiyyətdə olmalıdır. Körfəz ölkələri, Amerikanın nəzarətində olduğu və Armaqedonun gözlənildiyi Mübarək Torpaqların xaricində qaldığı üçün bu əhatə dairəsinə girmir. Planın İraq, Suriya və Misir qismi isə bu ana qədər (özlərinə görə) müvəffəqiyyətlə başa çatdırılmışdır. Geriyə qalan iki ölkə var: Türkiyə və İran. Bu iki ölkənin bölünüb qeyri-sabit olması isə, qurulacaq böyük Kürdüstan ilə mümkün olacaq. Yaxın Şərqə diqqətli baxın; bütün planlar bu istiqamətdə irəliləyir.

ABŞ və Avropa mətbuatında, Türkiyənin, Səudiyyə Ərəbistanının, İraqın, İranın, Suriyanın, Liviyanın, Livanın, Yəmənin müxtəlif şəkillərdə bölünmüş xəritələrinin tez-tez nəşr olunmasının ən əhəmiyyətli məqsədi dünya ictimaiyyətinə bölünmələri, guya siyasi bir zərurilik kimi göstərərək bunun şüuraltı zəminini meydana gətirməkdir. Qalibi olmayan müharibələr bölgəni sabitsizliyə sürüyərkən, silah sənayesi də davamlı olaraq canlı tutulur, fonda satılmayan silahlar əridilərkən, yeni istehsal üçün də fövqəladə bir

sərmayə təmin edilir. Ani böhranlardan gəlir əldə edən bank sektoru da Yaxın Şərqdəki qarışıq quruluşdan faydalanır. Dünyanın Mərkəzi Bankı, bu şəkildə ciddi bir maliyyə qaynağına sahib olur.

Bütün bu inkişaflar əsasında qiymətləndirildiyində, Yaxın Şərqdəki mənzərənin heç də təsadüfi meydana gəlmədiyi aydın olur. Yüz il əvvəl hazırlanmış xəritə və mühit, bu gün faktiki olaraq tətbiq olunmuş kimi görünür. Şübhəsiz qəbahətin bəlkə də ən böyük qismi, bu planlara bilərək, ya da bilməyərək alt quruluş meydana gətirmiş, bu qarışıqlığa icazə vermiş olan, öz aralarında ittifaq edə bilmədikləri kimi ixtilafı bacarıq sayan bir qisim müsəlmanlardır. Bu mövzunu da sonrakı sətirlərdə müzakirə edəcəyik.

## Bir vasitə olaraq musəvi lobbisi

Yeni mühafizəkarlar Amerikada istər rəhbərlikdəykən, istərsə də rəhbərlikdə olmadıqlarından müxtəlif düşüncə təşkilatları və qeyri-hökumət təşkilatları vasitəsilə olduqca təsirlidirlər. Şübhəsiz ki, bunda bir qisim musəvilərdən və musəvi lobbisindən aldıqları dəstək də mühüm yer tutur. Ancaq bu nöqtədə ciddi bir təzad gözə çarpar. Daha əvvəl ifadə etdiyimiz kimi bir qisim evanqelistlər, hz. İsa (ə.s)-ın nüzulu ilə xristianlığı seçəcək yalnız 144 min musəvinin həyatda qalacağına, digərlərinin isə bu böyük döyüşdə qətl ediləcəyinə inanırlar. Bu səbəbdən evanqelistlərin bir qismi əslində musəviləri səhv yolda görür və onların qətl ediləcəyi bir müharibə üçün hazırlıq edirlər. Buradan yola çıxaraq haqqında bəhs etdiyimiz evanqelistlərin musəvilərə yanaşmasının əsil bir ittifaq olduğu deyilə bilər.

Necə ki, bunu bəzi məşhur evanqelistlərin öz ifadələrində də görmək mümkündür. XX əsrin məşhur evanqelistlərdən Jerry Falwellə, bir çıxışı zamanı dəccalın kim olduğu sualı soruşular, cavab isə maraqlıdır: "*Dəccal kim olacaq? Təbii ki, bir musəvi.*" Billy Graham isə illər əvvəl etdiyi bir çıxışında bu sözləri demişdir: *"O musəvilərdən bir çox yoldaşım var. Hamısı da mənim ətrafımda dolanır və məni çox sevərlər. Mənim İsraili sevdiyimi bilirlər. Amma əslində ölkəyə etdikləri haqqındakı hisslərimi bir bilsələr. Və bunu əngəlləyəcək gücüm də yoxdur".* Graham, bu sözlərin ortaya çıxmasının ardından, *"30 il əvvəlki bir görüş. Nə söylədiyimi çox xatırlamıram. Amma əgər kimsəni incitdimsə ürəkdən üzr istəyirəm. Mən illərcə yəhudilər və xristianlar arasında körpü qurmaq üçün çalışdım."* demək məcburiyyətində qalmışdır.

Bu sözlər, bir qisim evanqelistlərin musəviləri dəstəkləyir kimi görünmələrinin yalnız qiyamətin şərtlərindən biri olmasından irəli gəldiyini göstərir. Yəni musəvilər, bəzi evanqelistlərə görə yalnız bu hədəfin reallaşması üçün bir vasitədir. Musəvilərdən bəziləri bunun fərqində olmamaqla yanaşı, bir qisim musəvilər, bu hədəfi çox yaxşı bilmələrinə baxmayaraq hər hansı bir etiraz etməmişlər. Çünki, dünyada sionizmin dəstəkçiləri azdır və bəhsi keçən musəvilər belə bir yolla da olsa öz inanclarının dəstəklənilməsindən məmnun görünür.

Kitabın əvvəlində bildirdiyimiz əhəmiyyətli bir xüsusu təkrar xatırladaq: Əlbəttə evanqelistlərin də, Yeni Mühafizəkarların da hamısı bu fikirdə deyil. Hətta böyük bir əksəriyyət Yaxın Şərqi məhvə sürüyəcək müharibə ehtirası daşımır və musəvilərə, müsəlmanlara ədavət hiss etmir. Hətta aralarında, dinlər arası körpü qurmağı hədəfləyən, bu mövzuda ciddi səylər sərf edən, müsəlmanlara və musəvilərə həqiqi məhəbbət duyan sevgi insanları çoxluq təşkil edir.

Burada bəhsini etdiyimiz müharibə gözləntisi içindəki evanqelistlərin də bir açıqlama səhvi səbəbiylə bu fikirdə olduqlarını təkrar xatırlatmaq lazımdır. Məqsəd bu səhv məntiqi ortaya qoymaq olduğundan, yalnız 144 min musəvinin həyatda qalacağı bir döyüş ssenarisindəki məntiq boşluqları da gözlər önünə sərilməlidir. Bu bir həqiqətdir ki, belə bir inanc şəkli daşıdıqları müddətcə haqqında bəhs etdiyimiz evanqelistlərin musəvilərlə həqiqi birlik və dostluq qurmaları demək olar ki, qeyri-mümkün, musəvilər üçün isə bu, olduqca riskli və şübhəli bir vəziyyətdir. Bu nöqteyi-nəzərdən bir xristianın həyatı boyunca bir musəvini həqiqi dost olaraq görə bilmə ehtimalı yoxdur. Vəziyyətin fərqində olan musəvilər də, özlərinə yönələn qırğın ssenarisinə inanan xristianların səmimiyyətindən və dostluğundan daim şübhə edəcəklər. Bu şərtlər altında iki dinin nümayəndələri arasında müvəqqəti ittifaqlar yalnız göz boyama olacaq, əsil bir ittifaqın reallaşması isə qeyri-mümkün olacaq. Halbuki, dinlər arası ittifaq, Axırzaman üçün zəruri və olduqca lazımlı bir mövzudur. Sırf bu səbəbdən belə, evanqelist inancın bəhs etdiyimiz mövzuda gözləntilərində bəzi problemlər olduğu açıqdır.

Müsəlmanlar baxımından isə vəziyyət çox daha dəhşətlidir. Həmçinin, bir qisim evanqelistlərin gözləntilərinə görə son müharibə, bütün müsəlmanların qətlə yetirilməsi ilə nəticələnəcək. Belə gözləntiləri olan bir evanqelist, yaxşılığından və dürüstlüyündən əmin olsa da, sevgi və hörmət də duysa, doğru yolda olduğunu açıq şəkildə görərək bütün qəlbiylə güvəndiyi bir insan da olsa, bir müsəlmanın mütləq qətl edilməsi lazım olduğunu düşünərək yaşayacaq. Bu vəziyyət, xristian üçün də, onunla ittifaq və sevgi düşüncəsi içində olan bir müsəlman üçün də dəhşət vericidir. Bu ifadə, xristianlarla müsəlmanların arasında heç bir zaman birlik və həmrəylik ola bilməyəcəyi nəticəsini çıxarır ki, bu vəziyyətdə bu dünya, üzərinə sülh gəlməyəcək bir kabus məkanı halına gələcəkdir. Bu səhv dünyagörüşü, əhatəli bir düşmənçilik siyasətinin fitilini odlamaq üçün kifayətdir. Bu düşüncədə olan bir evanqelist xristianın dinlər arası həqiqi bir dostluğu qura bilməsi isə qeyri-mümkündür. Belə bir həyat, Allahın istədiyi bir həyat ola bilməz. Bir haqq dinin, əsla belə bir düşmənçilik siyasəti və qırğın ssenarisi təqdim etməyəcəyi açıqdır. Demək ki, dini şərh etmək mövzusunda böyük bir səhv var.

Həmçinin dünyaya sevgi və sülh nümayəndəsi olaraq göndərilmiş olan və biz müsəlmanların da peyğəmbəri olan hz. İsa (ə.s)-ın, dünyanın son dövründə tamamilə yaradılış məqsədinin xaricində bir qırğına yol verməsi ağıla və imana zidd bir vəziyyətdir. Hz. İsa (ə.s)-ı lazım olduğu kimi tanıyan həqiqi bir xristianın, belə bir düşüncədən şübhəyə düşməsi lazımdır. Dünya üzərində sevgi və sülhü qeyri-mümkün edən bu cür ürküdücü bir plan nə Allahın adətullahına, nə də peyğəmbərlərin göndəriliş məqsədlərinə

uyğun gəlmir. Bu səbəbdən, burada da açıq şəkildə yanlış anlaşılma, qavrayış problemi vardır. (Bu mövzuyla əlaqədar təfərrüatlar üçün baxın. Harun Yəhya, Xristianlar İsa Məsihi dinləsinlər)

## Mübarək torpaqlar üzərində parçalama planları

Əhdi-Ətiq, vəd edilmiş torpaqları bu şəkildə təsvir edir:

***Misir çayından böyük Fərat çayına qədər uzanan bu torpaqları -Ken, Keniz, Kadmon, Hitit, Periz, Refa, Amor, Kenan, Girgaş və Yevus torpaqlarını- sənin nəslinə verəcəyəm.*** *(Yaratılış 15: 18-21)*

Tövratdakı bəhs edilən parça, evanqelistlər üçün Mübarək torpaqlar olaraq təyin olunar və hz. İsa (ə.s)-ın gəlişindən əvvəl bu torpaqların mütləq musəvilər tərəfindən ələ keçirilmiş olmasının şərt olduğunu deyir. Nil və Fərat arasındakı bu torpaqlar İraq, Suriya, Misir, Sudan və Türkiyəni qismən, İordaniya, Livan və Küveytin isə hamısını ehtiva edir.

Bir qisim evanqelistlər üçün bu torpaqların ələ keçirilməsi böyük əhəmiyyət daşıyır və son nüzul üçün əhəmiyyətli bir əlamətə işarə edir.

Bu xəritədə Türkiyəni maraqlandıran qisim isə, evanqelistlərə görə haqqında bəhs etdiyimiz Mübarək torpaqların Adana, Qaziantep, Hatay, Kahramanmaraş və Adıyamanı əhatə etməsidir. Bəzi qaynaqlar buna Türkiyənin Cənub-Şərqinin hamısını daxil edərlər. 90 illik cümhuriyyət dövrü ərzində böyük bir sabitlik və demokratiya ilə idarə edilmiş və xüsusilə son illərdə ciddi mənada bir yüksəliş qeyd olunan ölkəmizdə yalnız adı keçən bu bölgələrin davamlı olaraq qeyri sabitlik içində olması bu mənada düşündürücüdür. Aydındır ki, bir qisim kəhanətlərə əsaslanaraq Yaxın Şərqi parçalama planları içində Türkiyə də vardır və Cənub-Şərq bölgəsi bu səbəblə daima bir narahatlıq içindədir.

Burada ifadə edilməli olan əhəmiyyətli bir nöqtə var. Əhdi-Ətiqdə Nildən Fərata qədər olaraq təsvir edilən Mübarək torpaqlar, musəvilər üçün (şərqdən qərbə) Aralıq dənizindən İordaniya çayına, (cənubdan şimala) Sinadan Şimali Livanda olan Hazbani çayına uzanan qisimdir. Bu səbəbdən, indiki İsrail sərhədləri bu sahəni əhatə edir, lakin bu təsvir Türkiyə torpaqlarını əhatə etmir. Lakin bir qisim evanqelistlərin bəhsi keçən Tövrat parçalarının şərh şəkli yuxarıda ifadə etdiyimiz kimi fərqlidir. Aradakı ayrı-seçkiliyin ən əhəmiyyətli səbəblərindən biri bir qisim xristianların "Mübarək torpaqlar" anlayışını yalnız hz. Musa (ə.s)-a deyil, hz. İbrahim (ə.s)-a vəd edilən müqəddəs torpaqlar olaraq genişləndirmələridir. Halbuki, Tövratda Mübarək torpaqlar ifadəsi bu mənada istifadə edilməmişdir. Bu səbəbdən musəvilər, ümumi olaraq, bir qisim evanqelistlər tərəfindən təsvir edilən bu geniş xəritəni doğru saymazlar, bu səbəblə də, Mübarək torpaqları, mövcud İsrail sərhədlərinin xaricinə çıxaraq genişlənmə hədəfinə xoş baxmazlar.

## Türkiyə üzərində gizli-açıq planlar

Yaşadığımız son illər, xüsusilə Ərəb Baharından sonra ortaya çıxan qarışıqlıq ilə birlikdə "bölünmə" termininin çox tez-tez anıldığı illərdir. Belə ki, hücum və qarışıqlıqdan xilas ola bilməyən İraq, Amerikanın ardından İŞİD-in işğalı ilə qarşılaşmış və bu gün rəsmi olaraq üçə bölünmüş vəziyyətdədir. 2011-ci ildən bəri başlayan daxili müharibələrdən xilas ola bilməyən Suriya, hal-hazırda təməldə 6 ayrı hissəyə bölünmüşdür. Bu hissələr içində də hissəciklər vardır. Misir, ciddi bir qeyri-sabitlik dövrü yaşayır, Sinadaki tayfalar narahatlıq içində gözləyir; Liviya zərbələrlə sarsılır, Sudan və Yəməndəki vəziyyət isə heç sabitləşmir.

Bütün bu qarışıqlıqlar içində diqqətləri çəkən iki ölkə var: İran və Türkiyə. İran, hər nə qədər yaxın keçmişdə nüvə məsələləri səbəbiylə çox uzun zaman ərzində ciddi bir mühasirə altında qalmış olsa da, bağlı olduğu Şanxay müqaviləsinin müşahidəçi üzvü, Rusiya-Çin mehvərinin bir müttəfiqi olması baxımından gücünü itirməmiş və sabitlik göstərmişdir. NATO üzvü və Qərb müttəfiqi demokratik Türkiyə isə, təxminən 40 illik PKK terroruna baxmayaraq bölünməyi şiddətlə rədd etmiş, içində olduğu qaynayan coğrafi şərtlərə baxmayaraq güclənmiş, gözlənilməz islahatlarla 10 il içində əhəmiyyətli şəkildə dəyişmiş bir ölkədir. Qonşularla münasibətlər, İslamlaşma və qərbdən uzaqlaşma kimi tənqidlər alsa da Türkiyə, bölgə içində iqtisadi, ticarət və demokratik mənada əhəmiyyətli irəliləyişlər etmiş və bölgənin qarışıqlığından çox da təsirlənməmişdir.

Türkiyədəki bu vəziyyət məhz bu səbəblə, Yaxın Şərq üzərində planları olan kütlələri narahat edir və hətta bəziləri bu narahatlığı açıq şəkildə ifadə etməkdən çəkinmirlər. Çünki planda, ölkələrin güclənməsi deyil, gücsüzləşməsi vardır. Və yenə planda, Armaqedon müharibəsinin reallaşacağını düşündükləri Mesopotamiya bölgəsində, öz idarələrində olan, Ərəb, Türk və Fars dünyasından müstəqil, rahat idarə olunub üzərində rahat oyun oynanıla bilinən xəyali bir kukla dövlətin qurulması planı var: Böyük Kürdüstan.

Sonrakı sətirlərdə bu böyük xəyalın necə böyük bir səhv olduğunun isbatlarını görəcəksiniz.

## Evanqelist planlarından bəhs etməyimizdəki məqsəd

Bu mühüm həqiqətin kitab boyunca çox vurğulanması vacibdir: Bu kitabda göstərilən evanqelist planları gözlər önünə sərməyimizdəki məqsəd, haqqında bəhs etdiyimiz evanqelistlərin və ya Yeni Mühafizəkarları pisləmək deyil. Bu kəslər batil də olsa sahib olduqları inanclar istiqamətində ən doğrusunu etdikləri qənaətində ola bilərlər. Allahın Quranda bir çox ayədə bildirdiyi kimi xristianlar və musəvilər, müsəlmanlar üçün dost və qardaşdırlar. Quran ilə uyğun olan bütün Tövrat və İncil sözləri müsəlmanlar üçün də keçərlidir və müsəlmanlar, bu iki İbrahimi dinə hörmət, bu dinlərin mənsublarına isə sevgi və şəfqət göstərməklə məsuldurlar. Bu səbəbdən əlinizdəki kitabın dini,

məzhəbi və ya bir dinin mənsublarını tənqid etmək və ya pisləmək üçün yazılmadığının bilinməsi olduqca əhəmiyyətlidir.

Həmçinin bu bir həqiqətdir ki, İslam coğrafiyası üzərində hər nə plan tətbiq olunursa olsun, bu torpaqlarda əgər bir qarışıqlıq çıxırsa, bunun əsil məsulu o torpaqlar üzərində yaşayan və heç cür birlik ola bilməyən müsəlmanların özləridir. Yaxın Şərqin içində olduğu bu qarışıqlıq halının bütün məsuliyyətini başqalarına yükləmək əsil problemi anlamamaq deməkdir. Yaxın Şərq və bütün digər müsəlman coğrafiyasının əsil problemi, bölünüb parçalanmış olmaları, məzhəblər və etnik şəxsiyyətlər bəhanəsiylə bir yerə gələ bilməmələri, birlik qura bilməmələridir. Böyük əksəriyyətinin İslam adı altında saxta bir xurafat dinini mənimsəmələri, Qurandan uzaqlaşmaları və Allahın özlərinə Quran ilə vermiş olduğu mesajı anlaya bilməmələridir. Xurafat dininin təsiri ilə öz içində geri qalmış, qadını dəyərsiz, demokratiyanı gərəksiz, sənəti haram bilən parça-parça olmuş bir birlik içində nifrətin böyüməsi şübhəsiz ki, çətin olmamışdır. Bu səbəbdən, qığılcımlardan asan təsirlənib bir anda öz coğrafiyasının qarışıqlıq mühitinə çevrilməsinə icazə verən müsəlman aləmi, şübhəsiz ki, bu vəziyyətdən ən çox məsul olandır.

Lakin bir tərəfdən, kitabın əvvəlindən bəri bəhsini etdiyimiz evanqelistlərin, öz hədəfləri və bu hədəf üçün təsbit edilmiş yol və üsullarındakı səhvlər, gedişata baxıldığında, Yaxın Şərqdə çox böyük və qorxunc nəticələrə səbəb ola biləcək. Burada bəhs etdiyimiz qorxunc nəticə, bütün dünyanı fəlakətə çevirəcək marksist bir sistemin doğulub yayılması və bütün dünyaya sirayət etməsidir. Məhz o zaman, evanqelistlər, öz proqnozlarının baş vermədiyini, dünyanın isə məhvə doğru getdiyini anlaya biləcəklər. Çox gec olmadan bu mövzuda xəbərdar edilmələri şərtdir.

Əgər bu mövzudakı həqiqətlər gözlər önünə sərilərsə, xüsusilə yeni mühafizəkarlarla, Amerika və Avropa ilə birlikdə daha yaxşı və hüzurlu Yaxın Şərq inşa etmək çox daha asan ola biləcək. Məhz bu səbəblə, gec olmadan, bu planın nələrə səbəb olacağı gözlər önünə sərilməlidir.

# 3-CÜ HİSSƏ

# SEVRİN HƏSRƏTİ: BÖYÜK KÜRDÜSTAN

1920-ci ildə imzalanan və Atatürk tərəfindən etibarsız qılınan Sevr müqaviləsi, bildiyiniz kimi Osmanlının varlığından bəri, Qərbin davam edən ən böyük həsrətlərini rəsmi olaraq Türk millətinin önünə qoymuşdu. Yaxın Şərqi, Ərəbistan yarımadasını, Balkanları və Afrikanı itirmiş olan Osmanlıdan qərbdə Egey sahilləri tələb edilir, şimal-şərqdə Ermənistan və cənub-şərqdə isə Kürdüstan üçün torpaq tələb olunurdu. TBMM tərəfindən tanınmaması müqaviləni qüvvədən salsa da Sevrin Kürdüsdan həsrəti heç bir zaman sona çatmadı. Çünki bəzilərinə görə Mesopotamiya, kəhanətlərin qəlbindəki bir mərkəz idi və mütləq idarə altına alınmalıydı.

Mesopotamiya bölgəsi, bilindiyi kimi, Türkiyənin cənub-şərqi, İranın cənub-qərbi, İraq və Suriyanın bir hissəsini əhatə edən bir bölgədir. Bu bölgənin əhəmiyyətli xüsusiyyəti isə bölgənin etnik olaraq kürdlərin yaşadığı coğrafiya olmasıdır. Bu səbəbdən, keçmişdən bu yana bir qisim evanqelist xristianların və onların siyasi qollarının hədəfi, bölgənin güclü dövlətlərinin yəni Türkiyə, İran, Suriya və İraqın- parçalanaraq bu bölgədə yeni bir kürd dövləti qurula bilməsi olmuşdur. Bu dövlətin iki əhəmiyyətli xüsusiyyəti olmalıdır: ABŞ və Avropanın qeyd-şərtsiz müttəfiqi olmalıdır, üstəlik ABŞ və Avropanın bütün istəklərini yerinə yetirən oyuncaq dövlət olmalıdır.

Bu oyuncaq dövlət, qərbə, Yaxın Şərq torpaqlarında olduqca strateji bir sahə təmin edəcək, əsaslar qura bilmələri üçün mükəmməl strateji coğrafiya təqdim edəcək və gözlənilən Armaqedon müharibəsi üçün də şərait, imkan və məkan yaradacaq.

Bu səbəbdən, Böyük Kürdüstan layihəsi, Sevrdən bəri rəsmi olaraq işləyən bir layihədir. Kürdlərin yerləşdiyi dörd ölkəni hədəfləyir. Qeyri-sabitlik planı daxilində bu hədəf, İraq və Suriya baxımından müvəffəqiyyətə çatmışdır. İraqda muxtar, Suriyada isə kantonlardan ibarət kürd yaşayış sahəsi var. İraqın hər keçən gün daha da qarışması kürd muxtariyyətinin "müstəqillik elan edə bilərik" sözlərinə yol vermişdir. Necə ki, İraq konstitusiyası buna uyğundur. Yerli xalq səs verdiyi təqdirdə, muxtar rəhbərlik İraqdan müstəqil bir dövlət olaraq ayrıla bilər.

Planın ikinci mərhələsi olan Suriya kürdləri baxımından da gözlənilən irəliləyiş qeyd olunur. Kanton rəhbərliklərə bölünmüş olan Kürd rəhbərliyi burada tez-tez muxtariyyət elan edir, lakin Suriyadakı vətəndaş müharibəsi səbəbiylə təmas qura bilməmənin bir nəticəsi olaraq mövcud sistemə geri dönülür. Lakin bu mərhələdə diqqət çəkən bir xüsus vardır: Qərb ölkələrinin Suriyadakı Kürd bölgəsinə qarşı həddindən artıq həssaslıq. Bu mövzu bir azdan araşdırılacaq.

Hədəfin üçüncü və dördüncü mərhələsi, yəni İran və Türkiyə isə, daha əvvəl də ifadə etdiyimiz kimi, sabit ölkələr olmaları baxımından əhəmiyyətli bir problem təşkil edərlər. Bu səbəbdən, incə plan bu günlərdə bu iki ölkəni təslim etdirmək üzərinə davam

edir. Burada mövzumuz olan hədəfin Türkiyə istiqamətini müzakirə edərkən bəhs etməli olduğumuz təməl ünsür PKK-dır. Çünki Avropa və ABŞ-ın illərdir terror siyahısında olan, marksist, leninist, kommunist PKK, indi Türkiyəni bölmək üçün qərbə yaranır; qərbin bəzi dərin gücləri isə yenə Türkiyəni bölmək üçün PKK-nın maskasını görməzlikdən gəlir. Bu səbəbdən qarşımızda, PKK-nın qərbi, qərbin isə PKK-nı istifadə etdiyi təhlükəli bir mühit var.

### Qərb PKK-dan, PKK isə Qərbdən istifadə edir

PKK-nı, hal-hazırda bəzi qəzetlərdə çıxan yazılardan tanımış olan biri, əslində şiddət tərəfdarı olan bu kommunist terror təşkilatını asanlıqla qərbin dəstək verməsi lazım olan "Kürd döyüşçülər" olaraq qiymətləndirir. Çünki beynəlxalq ana axın medianın, xüsusilə son günlərdə, PKK-nı təqdim edişi bu şəkildədir.

Bunun səbəbi cüt tərəfli mənfəət sahəsinin doğulmuş olmasıdır. Təxminən 40 ildir Türkiyədən cənub-şərqi bölgəsini qoparmağa çalışan kommunist PKK ilə təxminən 100 ildir bu bölgəni qoparmağa çalışan qərb dərin gücləri ortaq məxrəcdə görüşmüşdür. Qərb üçün ən böyük etiraz olan "kommunizm" faktoru, PKK-nın girdiyi saxta maskalar altında hiyləgərcə gözlərdən uzaq hala gətirilməyə çalışılmışdır. Kommunist namərd terroristlər üzlərinə maska keçirmiş və şəxsiyyət mübarizəsi aparan, haqlarını axtaran imperialist kürd döyüşçüləri görünüşünə bürünmüşlər. Bu vəziyyət Qərbin xeyrinə olmuş və PKK-nı hədəflərini reallaşdırmaq üçün yaxşı bir şans olaraq görmüşlər. Necə bir bəlanın içinə girdiklərinin fərqində belə olmadan ...

Bu bəlanı təsvir etməyimiz şərtdir. Çünki PKK, kürd şəxsiyyətinin mübarizəsini verən qəhrəman döyüşçülər filan deyil, imperialist görünüşünə bürünən, əslində kommunizmi yaymağı hədəfləyən, kürdlük və ya kürdlər veclərinə belə olmayan leninist, əli qanlı bir terror təşkilatıdır. Bölgədə yaşayan kürdlər ilə PKK terrorçuları arasındakı fərqi çox yaxşı etmək lazımdır.

PKK ilə ittifaqa girməyi düşünən bir qisim qərblilərin necə bir bəla ilə qarşı-qarşıya olduğunu göstərə bilmək üçün PKK-nın imperializm maskasını ifşa etmək lazımdır. Bəhs etdiyimiz Qərb gücləri əgər hələ kommunizmlə mübarizəni əsas alan ideologiyalarını qoruyurlarsa, bu vəziyyətdə onlara pis xəbər: Qanlı kommunistlərlə ittifaq içindədirlər!

## PKK niyə yarandı?

Universitetlərdə tələbə hərəkatı olaraq başlayan və 1977-ci illərdə özlərinə Apocular deyilən PKK hərəkatı, zaman ərzində kürd inqilabçıları və ya Apocular adlarını buraxaraq Milli Qurtuluş Ordusu adını almışdır. Zaman ərzində sol qrupların bir çoxu bu təşkilat ilə müxtəlif bağlantılar qurmağa başlamışdır. Çünki təşkilatın təməl ideologiyası marksizm-leninizm üzərinə quruludur. O dövrdə bəhs etdiyimiz qrupun lideri mövqeyində olan Abdullah Öcalanın bu şərhləri PKK-nın ilk quruluş bildirişi sayıla bilər:

*Klassik mənada bizlər marksizm və leninizmi araşdırıb nəzərdən keçirəcəyik. Bu ideologiyaların bələdçiliyində dünyanın, Yaxın Şərqin və Türkiyənin ümumi bir təhlilini edəcəyik. Bu dünyagörüşünə görə Şərq və Cənub-Şərqi Anadolu (Şimali Kürdüstan) müstəmləkə vəziyyətindədir. Türkiyə də müstəmləkəçi dövlətdir. Həmçinin Kürdüstanın digər hissələri də İran, İraq və Suriyanın müstəmləkəçi idarəsi altındadır.*

PKK-nın məqsədini açıqlayan digər bir yazılı sənəd 1978-ci ildə nəşr olunan Kürdüstan İnqilabının Yolu (Manisfesto) ilə Partiya Proqramıdır. Partiya Proqramında, daha doğrusu Öcalanın hazırladığı layihədə PKK-nın məqsədi belə yekunlaşır:

*Kürdüstan, müstəmləkəçi 4 dövlət Türkiyə, İran, İraq və Suriya tərəfindən dördə bölünmüşdür. Ən böyük hissə Türkiyə Kürdüstanıdır. Burada yarı feodal əlaqələr keçərlidir. Inqilabda Türkiyə Kürdüstanı liderlik edəcək. İnqilabın xüsusiyyəti xalqın demokratik inqilabıdır. Minimum hədəf, müstəmləkəçiliyi yıxaraq müstəqil, demokratik və birləşmiş bir Kürdüstan dövləti qurmaqdır. Maksimum hədəf, marksist-leninist prinsiplərə əsaslanan bir dövlət qurmaqdır. İnqilaba qabaqcıl güc proletariatdır. Inqilabda təməl güc kəndlidir. Təməl ittifaq da işçi-kəndli-aydın ittifaqıdır.(8)*

Eyni dövrdə nəşr olunan Əsasnamə isə proqramda təyin olunan hədəfləri reallaşdırmaq üçün yaradılacaq partiyanın təməl xüsusiyyətini açıqlayır. Həm Manifesto, həm Proqram, həm də Əsasnamədə özünü marksist-leninist olaraq təyin edən təşkilatın bütün ideologiyası "çətin və müstəmləkə" anlayışları üzərinə inşa edilmişdir. Buna görə müstəmləkəçi güclərə qarşı inqilabçı şiddət sonuna qədər istifadə edilməli və müstəmləkəçi güclər bu şiddət nəticəsində təşkilatı qəbul etməyə məcbur edilməlidir.(9) Burada, Engelsin "Şiddət nəzəriyyəsi" əsas alınmış və Marks və Engelsin proletariat iqtidara gedərkən şiddətin gözardı edilməməsinə dair ifadələri yol göstərici qəbul edilmişdir.

Abdullah Öcalan da, bu görüşlərə sahib çıxaraq şiddətin imtina edilməz olduğunu irəli sürmüş və "*Kürdüstanda Şiddətin Rolu*" adlı kitabında bu fikirlərini açıqlamışdır:

*... Biz Qerilla savaşıyla hərəkətli savaşı bir arada tətbiq edərək düşmənin hərbi üstünlüyünü yox etməyə və onu daha da gerilətmək və Türkiyədəki inqilabın inkişafını sürətləndirməyə çalışacağıq. Bu faciəvi tarazlıq mərhələsində Kürdüstanda davam edən qerilla savaşıyla hərəkətli savaş əgər Türkiyədə də inkişaf etmiş bir inqilabçı savaşla dəstəklənərsə və Türkiyədə böyük şəhərlərdə, o cümlədən bir proletariat və xalq qiyamı gündəmə gələrsə, bu qiyam vəziyyəti Kürdüstana qədər genişləndirilərək, Türkiyə və Kürdüstanda başlayacaq xalq qiyamlarıyla burjua ordusunun dağıdılması mümkün olacaq, inqilabın siyasi üstünlüyü beləcə hərbi üstünlüyə də çevrilərək burjua iqtidarı yıxılıb inqilab zəfərə aparacaqdır ...*

"Burjua"ya qarşı "proletariat diktatorluğu" istəyən, bunun ancaq bir "inqilab" və "terror" yolu ilə etmək mümkün olduğunu izah edən Öcalan, Marksın ideallarını, Leninin tətbiqlərini təsvir edir. Lenin, öz idealındakı inqilabı bu şəkildə təsvir etmişdir:

*Bir burjuaziya inqilabı, proletariatın mənfəətləri üçün labüddür. Burjuaziya inqilabı nə qədər tamamlanmış, qərarlı və tutarlı olarsa, sosializm üçün proletariatın burjuaziyaya qarşı mübarizəsi o qədər əmin olacaq. ... Fransızların söylədiyi kimi işçilər üçün "tüfəngi bir çiyindən digərinə almaq" daha asan olacaq. İnqilabın təmin etdiyi azadlıq ilə burjuaziya inqilabının onlara verdiyi silahı, burjuaziyanın özünə çevirəcəklər.(11)*

Fəlsəfəsini bu fikirlər istiqamətində təyin edən Öcalan da, marksist xəttə gəlməsini və özünü bu əsrin Lenini elan etməsi zehniyyətini heç bir zaman gizlətməmişdir:

*... Təbii ki, daha sonra seçim marksizm-leninizm olar. Sosializmin əlifbası (Leo Huberman) əlimə aldığım ilk klassikdir. Oxuduğumda yastığımın altına qoydum və bu iş burada bitər dedim. Hesab edirəm ki, 1969-cu ildə sosializm seçimi dəqiqləşdi.(12)*

*Lenin 1900-cü ildə nə isə mən də XXI əsr sosializmini təmsil edirəm, real sosializmlə savaşaraq, imperializmlə savaşaraq yeni sosializmi inşa edirəm.(13)*

Öcalan, PKK-nın marksizm-leninizm ənənəsi üzərinə inşa edildiyini və bundan sonra da bu prinsiplər üzərində davam edəcəyini bu sözlərlə ifadə etmişdir:

*PKK, marksizm-leninizm ənənəsinə uyğun bir inkişaf yaşamışdır. Bundan sonrası açıq ki, ətlə dırnaq kimi bir-birindən ayrılmayan bu miras üzərinə formalaşacaqdır.*

Öcalan, 1 may 1982-ci ildə etdiyi çıxışında isə bunları söyləmişdir:

*Amma bunu yaxşı bilməliyik ki, Kürdüstan tarixi bu gün dövrümüzə ayaq uydurmaq istəyirsə, tamamiylə işçi sinifi həqiqətinə arxasını dayamaq məcburiyyətindədir. Nə qədər əlverişsiz şərtlər yaşayırsa yaşasın, işçi sinfinin obyektiv gücünə və onun hərəkət təlimatları olan elminə, MARKSİZM-LENINİZMƏ DÖZMƏK MƏCBURİYYƏTİNDƏDİR VƏ DİQQƏT EDİLSƏ BİZİM VARLIQ SƏBƏBİMİZ TAMAMİLƏ BU HƏQİQƏT ƏTRAFINDA meydana gəlmişdir. ... Əgər o tayfa divarları, o feodal hasarlar aşılmasaydı, MÜASİR DÜŞÜNCƏ, ƏN İNQİLABÇI DÜŞÜNCƏ OLAN MARKSİZM-LENİNİZM beynimizə sıçramayacaqdı.*

Öcalanın açıq izahları, təşkilat manifestosu, proqramı və nizamnaməsində olan məlumatlara baxıldığında, PKK-nın son məqsədinin, marksist-leninist təməllər üzərinə inşa edilmiş bir Kürdüstan yaratmaq olduğu görüləcək. Bu bölgəni əhatə edən İran, İraq, Suriya və Türkiyənin "müstəmləkəçi" dövlətlər olduğu və PKK, hədəfini qanuni etmək üçün müstəmləkə yanaşmasını təməl edir. Təşkilat mənsubları, kapitalist ölkələrdəki işçi sinifi hərəkətlərini nümunə götürür və bu hərəkətləri reallaşdıranları müttəfiqləri olaraq görür. Məqsədləri, "Sosialist Kürdüstan" adı altında qurulan bir bölgə içində "sinifsiz" bir cəmiyyət meydana gətirmək, dövlət sistemini yaratmaqdır; manifestolarında bunun üçün müharibə çağırışı edilir.

Bu hədəfin ən əhəmiyyətli ehtiyaclarından biri şübhəsiz imperialist güclərin hamısına qarşı durmaq arzusudur. Bu səbəblə, Amerika və Amerika dəstəkçisi Qərbin bütün tətbiqlərinə, hətta varlıqlarına qarşı çıxılmışdır. Manifesto, əslində Amerika imperialist zehniyyətini yox etmə hədəfinə istiqamətlənmişdir. Bu səbəbdən marksist

PKK, marksizmin gərəyi olaraq imperializmə və bu səbəbdən, imperialist mərkəz olaraq gördükləri ABŞ-a şiddətlə qarşı çıxır.

PKK proqramının "Kürdüstan inqilabının vəzifələri" başlıqlı hissəsində "müstəmləkəçi" olaraq təyin olunan Türkiyə Respublikasının təqdim edəcəyi hər cür həll axtarışlarını (buna regional muxtariyyət də daxildir) rədd etmək lazım olduğu bildirilmişdir. Bu rədd etmədəki məqsəd, Türkiyə Respublikasının mütləq parçalanması lazım olduğu düşüncəsindən irəli gəlir.

Manifestoda, kommunist Kürdüstanı inşa edə bilmək üçün, Türk təhlükəsizlik güclərini çöl bölgələrdən və Türk-İraq sərhədindən geri çəkilməyə məcbur edərək, Türkiyənin cənub-şərqinin bəzi hissələrində hərbi və siyasi yoxlama qurmaq hədəf olaraq bildirilir. Qurtarılmış bölgələr yaradıldıqdan sonra, şəhərlərdə hücumlar və bölgə səviyyəsində qarışıqlıq və qiyamlar başladılacaqdır. PKK-nın mövcud silahlı qüvvələri şərti bir orduya çevriləcək və hədəf türk ordusunu məhvə uğratmaq olacaq. Bütün bunların nəticəsində, türk ordusunun "Kürdüstan" olaraq xarakterizə edilən torpaqları tərk edəcəyi gözləntisi vardır.

PKK manifestosundakı bu təfərrüatları verməyimizin məqsədi, PKK-nın marksist-leninist bir təşkilatlan olaraq qurulduğunu gözlər önünə sərmək və başda ABŞ olmaq üzrə hər cür imperialist, kapitalist ölkə, dövlət və sistemə qarşı müharibə hədəfini güddüyünü ifadə etməkdir. PKK, Türkiyəni və kürdləri əhatə edən ətraf ölkələri "yıxaraq" bir kommunist dövlət qurma əzmindədir. Quruluş məqsədi budur və bu məqsəddən indiyə qədər heç bir şəkildə imtina etmək niyyətində deyil.

Dünya dəyişdikcə, Yaxın Şərqdə sərhədlər həssaslaşdıqca, güc tarazlıqları dəyişdikcə, PKK illər içində imperialist bir maska taxma zəruriliyi hiss etmişdir. Bunun üçün səbəblər çoxdur; bu səbəbləri sonrakı başlıqlarda araşdıracağıq. Burada xüsusilə vurğulanmalı olan nöqtə, PKK-nın quruluş günlərindəki marksist görünüşü ilə bugünkü imperialist maskasının bir çox ölkə və fikir insanı üçün aldadıcı olmasını əngəlləməkdir. PKK, bu günki saxta görünüşü altında, hələ, kommunist dünya dövləti qurmaq əzmində olan marksist-leninist bir terror təşkilatıdır.

## PKK-nın imperializm maskası

SUAL: Səddama razı olmayan qərb, niyə Türkiyənin güclənməsini istəsin ki?

ÖCALAN: Ancaq bu bir kürd muxtariyyəti də yaradar. Türkiyəni də zəiflədər bu, zəiflətməsini bacarar.

SUAL: Kürd muxtariyyəti eyni zamanda Türkiyəni də yavaşladar mı demək istəyirsiniz?

ÖCALAN: Qərb tərəfdarı bir kürd muxtar bölgəsi, qərb üçün Türkiyəni yavaşladar. Ərəbləri yavaşladar, İranı yavaşladar. Bu baxımdan qərb, mənə elə gəlir ki, kürdlərin

muxtariyyətinə sevdalanacaq. Bu bölgəni Türkiyəyə doğru, İrana doğru yayacaqlar. Təbii bu, qərbin istəyidir.

PKK lideri Abdullah Öcalanın Rafet Ballıya 1991-ci ildə verdiyi müsahibədə işlətdiyi bu sözlər, əslində mövzunun məğzini anlamaq üçün kifayətdir. Qərbdə bir qisim güclər, Türkiyədə kürdlərin muxtariyyətinə sevdalanmışdır. Bunun hədəfi, tam da Öcalanın ifadə etdiyi kimi Türkiyəni, ərəbləri və İranı dayandırmaq olacaq. Türkiyəyə və İrana yayılmış olan bir kürd bölgəsi tamamilə qərbdəki bəhsi keçən güclərin istəyidir. Çünki yuxarıda ətraflı şəkildə bəhsini etdiyimiz dərin güclərin maraqları, buna son dərəcə uyğun gəlir.

Haqqında bəhs etdiyimiz plan əslində Öcalan tərəfindən 90-cı illərin başlanğıcında kəşf edilmişdir. Bu illər, PKK-nın Türkiyə torpaqları üzərində ciddi itkilər verdiyi, təşkilatın böyük nisbətdə qan itirdiyi, tərəfdarlarını itirdiyi və yeni qoşulanlar  əldə edə bilmədiyi dövrdür. Öz sözlərinə görə, marksist və leninist bir təşkilat olaraq etdikləri tədbirlər çox böyük nisbətdə özlərinə dönmüş, güclərini itirmələrinə səbəb olmuşdur.

Eyni dövrdə, Körfəz müharibəsinin başladığı və bu savaşın bir nəticəsi olaraq 36-cı paralelin şimalında etibarlı bölgənin inşa edildiyi və İraq kürdlərinin qorumağa başlandığı dövrdür. Qan itirən PKK, qərb koalisiya güclərinin kürdləri qoruması və İraqda bir kürd muxtar bölgə siqnalının meydana gəlməsini özünə əsas götürərək, nəhəng bir taktiki dəyişiklik siyasətinə yönəlmişdir. Bu dəyişiklik elə əhatəlidir ki, PKK, leninist özünü hiss etdirməyəcək şəkildə bir maska taxmış, imperializm örtüyü altında gizlənmiş və başda ABŞ olmaq üzrə bütün qərbi ən hərarətli müttəfiqi elan etmişdir. Belə ki, təməl hədəfi imperializm və onun başını çəkən ABŞ-ı yox etmək olan PKK, ABŞ-ın himayəsi altına girə bilmək üçün bayrağından sözlərinə qədər hər şeyi dəyişdirmişdir.

## PKK-ya bir sığınacaq: 36-cı paralelin şimalı

1991-ci il Körfəz müharibəsinin dərhal sonrasında İraqdan qaçan kürd qaçqınların sayı ciddi mənada yüksəlincə, İraq-Türkiyə sərhədində etibarlı bir bölgə yaradılmışdır. 1991-ci ilin aprelində ABŞ rəhbərliyi İraqa, kürdlərin olduğu bölgə olan 36-cı paralelin şimalında, quruda və havada fəaliyyət göstərməməsi xəbərdarlığını etmişdir. Bu çərçivədə 36-cı paralelin şimalının İraq uçuşlarına qadağan edilməsi, Birləşmiş Vəzifə Gücü adındakı beynəlxalq bir hərbi gücün bölgəyə yerləşdirilməsi və sonrakı hadisələr, Şimali İraqda faktiki bir kürd rəhbərliyinin meydana gəlməsini özü ilə gətirmişdir. İyul, 1991-ci il tarixində isə kürdlər üçün yaradılan təhlükəsizlik bölgəsinin qorunması üçün aralarında Türkiyə, ABŞ, İngiltərə və Fransa hərbi qüvvələrinin olduğu 77 təyyarə və vertolyot və 1862 heyətdən ibarət Çəkic Güc, Türkiyə sərhədləri içində yerləşdirilmişdir. Çəkic Gücün buradakı varlığı ilə bəhs edilən kürd bölgəsi xüsusi bir mühafizə altına alınmışdır.

Bu dövr, ciddi itkilər verən və qan itirən PKK-nın məcburi taktika dəyişməsinin başlanğıc dövrüdür. Təhlükəsiz bölgəyə daxil olan və ABŞ nəzarətində olan 36-cı paralelin şimalı, PKK baxımından dəyərli bir fürsət olmuşdur. PKK bu şəkildə, sığınacaq, güclənəcək, hətta öyrədiləcək bir sahə əldə etmişdir. Lakin bu imkanlardan faydalanmaq

üçün "kommunizm əleyhdarı" olan ABŞ-ın gözünə girəcək bir şeylər etməsi lazım idi. Amerika yaltağı görünüşünə bürünməsi, kommunizm adına terror reallaşdırdığını unutdurması şərt olmuşdur. Əgər bunu bacara bilsə, bir super gücün dəstəyini almış olacaq. Və nə qəribə bir təvafüqdür ki, ABŞ-da bir qisim bölmələr, eynilə özləri kimi Türkiyə üzərində Böyük Kürdüsdan əməli fikrindədirlər.

Məhz bu səbəblərlə PKK, ifadələrini, taktikalarını, bayrağını dəyişdirmiş; Rus-Çin dəstəkçisiykən bir anda ABŞ dəstəkçisi olmuş; saxtakarcasına imperialist görünüşə bürünmüşdür. Bu vəziyyət, əslində PKK həqiqətini çox yaxşı bilən Amerikan dərin dövlətinin də xeyrinə olmuş, dövlət, bu imperialist maskaya çox inanmaq istəmişdir. Bölgədə kürd dövlətinin qurulması üçün PKK-nın istifadə edilməsində qorxu görməmişdir.

Öcalanın, başından bəri imperialist gördüyü ABŞ-a yaranmaq üçün sərf etdiyi bu sözlər, bu maskanın hansı ölçülərdə olduğunu gözlər önünə sərir:

*İslamın unutduğu, inkar etdiyi bu xalq, bütün təriqətçi quruluşlara qarşı Armaqedonda əsas olaraq xristianlar və musəvilərin yanında olacaqdır.*

Taktika tanışdır: Öcalan, ABŞ-ın gözünə girəcək şəkildə İslamı tənqid edir, İslam ilə bütünləşmiş olaraq yaşayan kürd xalqını inkar edir, hər hansı bir dinə inancı və ya hörməti varmış kimi davranır, xristian və musəvi inancının dəstəkçisi görünür. Xristian evanqelistlərin Mesopotamiyada reallaşmasını gözlədikləri Armaqedon müharibəsinə hiyləgərcə vurğu etməsi isə şübhəsiz olduqca diqqət çəkicidir. Necə ki, bu taktika hal-hazırda PKK tərəfindən tətbiq olunur, dövrümüzdə Yaxın Şərqdə davam edən qanlı qarşıdurmalarda PKK, qərb dövlətlərdən yardım alaraq silahını müsəlmanlara yönəldir.

Bu görünüş son dərəcə göz boyayıcı olmuş, necə ki, 36-cı paralelin şimalının xüsusi bir idarəyə ayrılmasının dərhal ardından birdən 70 PKK düşərgəsi ortaya çıxmışdır. Jay Walker adlı bir tədqiqatçı, PKK düşərgələrindəki müşahidələrini "Türkiyədə kürd qiyamı" adlı yazısında belə bildirmişdir: "... *sərhəd boyunca 20 PKK təhsil düşərgəsi gördüm. Düşərgələrdə fransız pendirləri yeyilir, amerikan kakao və qəhvələri içilirdi."*

PKK, bu dövrdə, xüsusilə ABŞ-ın böyük bir risk olaraq gördüyü İrana istiqamətli gücləndirilmişdir. Çökmə mərhələsinə gəldikləri bir anda bəhs etdiyimiz etibarlı bölgə, sanki bir PKK xüsusi bölgəsi kimi vəzifəsini görmüş və bunun sayəsində terror təşkilatı silahlanmış, təlim keçmiş və özünü gücləndirmişdir.

Bunun nəticəsi olaraq da Çəkic Güc tətbiqinin dərhal ardından PKK güclənmiş və silahlanmış olaraq Türkiyə torpaqları üzərində terror hərəkətlərinə geri dönmüşdür. Necə ki, 90-cı illər, PKK-nın Türkiyə üzərində ən çox hərəkət etdiyi və ən çox can aldığı dövrdür.

Onu da qeyd edək ki, **kürdlərin bir dövlət qurmasına etirazımız yoxdur.** Bilindiyi kimi, İraqın şimalında hal-hazırda muxtar bir Kürd dövləti onsuz da var və Türkiyənin bu dövlət ilə son dərəcə yaxşı əlaqələri var. Dövlət Başçısı Məsud Bərzani və Baş nazir Neçirvan Bərzani səmimi və dindar iki əhəmiyyətli liderdir. Əlbəttə ölkələrin bütövlüyünü

qorumaları daim istəyəcəyimiz bir şeydir, lakin xüsusilə İraqın içində olduğu qarışıqlıq mühitinin məcburi bir nəticəsi olaraq əgər önümüzdəki günlərdə Bərzani liderliyinin nəzarətində Şimali İraqda müstəqil bir Kürdüstan qurularsa, buna da dəstəyimiz əlbəttə olacaq. Lakin bunun üçün əvvəlcə o bölgədən də PKK təhdidinin təmizlənməsi və xüsusilə bu təhdidin Bərzani ailəsinin üzərindən qalxması lazımdır. Görüldüyü kimi etirazımız bir kürd dövləti qurulmasında deyil, lakin iki əhəmiyyətli nöqtədədir:

1. Türkiyə torpaqlarına göz dikilməsi
2. Kürdüstan qurma xəyalının PKK ilə reallaşdırılmaq istənilməsi.

Türkiyə kürdləri ilə bir bütündür. Min ildir bu torpaqlar üzərində kürdlər və türklər birlikdə yaşamışlar və qardaşdırlar. Türkiyədə heç bir kürd, öz vətənindən ayrılmağa niyyətli deyil. Türklər də kürdləri buraxmaq niyyətində deyildirlər. Kürd qardaşlarımız narahat olmamalıdırlar; Türkiyə dövləti içində məskunlaşmış və hal-hazırda məhkəmə qarşısında olan Ergenekon terror təşkilatının mənsublarının keçmişdə kürdlərə istiqamətli ayrı-seçkilik və zülm dolu bir siyasət aparmış olduqları bizim tərəfimizdən çox yaxşı bilinir. Sonrakı hissələrdə bu mövzuya geniş yer ayrılmış və Türk hökumətinin və millətinin bu mövzuda etməli olduqları təsvir edilmişdir.

Lakin bu bilinməlidir: O dövrdə Ergenekon terror təşkilatının etdiklərinin bütün Türkiyəyə şamil edilməsi yanlış olacaq. Bölünmə, əvvəldən bəri PKK terror təşkilatının səsləndirdiyi bir ifadədir. Bu terror təşkilatının, kürd milliyətçiliyi ilə isə əlaqəsi yoxdur. Əksinə bu terror təşkilatı əsil zülmü daim kürdlərə yönəltmişdir. Bu səbəbdən, Türkiyənin cənub-şərqində Türkiyədən ayrılmaq istəyən bir kürd etnik qrupu olduğu tamamilə yalandır. Doğrudur, kürdlər, əsasən Türkiyənin cənub-şərqindədilər. Lakin eyni zamanda kürdlər Türkiyənin hər yerindədir. Yenə cənub-şərqdə də kürdlərdən fərqli olaraq zaza, türkmən, ərəb, süryani, erməni xalqları sıx yaşayırlar. Bu səbəbdən Türkiyə, hər kvadrat metrəsində fərqli xalqların yaşadığı və bütün xalqların iç-içə var olduğu bir bütündür. Kürd ayrı-seçkiliyi indiyə qədər həmişə Ergenekon və PKK dəstələrinin ifadələriylə gündəmə gəlmişdir. İrqçilik edən ruh xəstələrinin zehinlərində mövcud olmuşdur. Gündəlik həyatda heç bir zaman kürd-türk ayrı-seçkiliyi deyə bir şey yoxdur. Buna icazəmiz də yoxdur. Kürdlər Anadolu torpaqlarının gözəl bir bəzəyi; maddi mənəvi əhəmiyyətli bir dəyəri; dostluğun, dürüstlüyün, mənəviyyatın, vəfa və sədaqətin mühüm bir simvoludur. Kürd qardaşlarımızı bizdən ayırmağa qalxan zehniyyət, əsla və əsla müvəffəqiyyətli ola bilməyəcək daim uğursuzluqla qarşılaşacaq.

Bu səbəbdən, Amerika dərin dövlətinin planlaşdırdığı Böyük Kürdüstan xəyalında, Türkiyə olmayacaq. Amerika və onu dəstəkləyən Avropa ölkələrinin dərin dövlət quruluşlarının ən böyük səhvi, qurduqları Kürdüstan xəyalının PKK ilə reallaşacağına inanmalarıdır. Bu səhvdir, çünki PKK, bəlkə də keçmişdəkindən çox daha güclü olaraq marksist təməllər üzərində varlığını davam etdirir. İmperializm maskası istifadə etdiyi isə, tarixdə bütün məşhur kommunistlərin müraciət etdiyi çirkin bir taktikadır.

## Tarixdəki məşhur kommunist taktikaları

Lenin və Stalin, kommunizm ideologiyasının ən vəhşi nümayəndələridir və kommunizmin gərəyi olaraq dinə də kəskin bir üslubla qarşıdırlar. Lenin, kommunizmi Sovet Rusiyasına məskun etmək məqsədiylə 200 min rahibi öldürmüş, milyonlarla xristiana zülm etmiş, minlərlə kilsəni yox etmiş, bəzilərini isə ateist muzeylərə çevirmişdir. Leninin izindən getmiş olan Stalinin isə din mövzusuyla əlaqədar sözləri belədir:

*Biz dinə qarşı təbliğat aparırıq və təbliğat aparmağa davam edəcəyik. Partiya dinə qarşı tərəfsiz qala bilməz. Bütün dinlərə qarşı din əleyhdarı təbliğat aparır.*

Bütün dinlərə qarşı din əleyhdarı təbliğat aparmanın vacibliyindən bəhs edən eyni Stalin, təəccüblü bir şəkildə, II Dünya müharibəsinin ilk illərində Rus Pravoslav Kilsəsi ilə bir əqd imzalamış, on minlərlə kilsənin yenidən açılmasına və kilsə liderliyindəki iyerarxiyanın yenidən təsis edilməsinə icazə vermişdir. Bununla yanaşı, cənubda müsəlman şəriətinə icazə verilmiş, şərqdə buddizm dəstəklənmiş və antisemitizmə güclü bir şəkildə qarşı çıxılmışdır. Bu maraqlı hərəkətin isə tək səbəbi vardır: II Dünya müharibəsində kommunizmə qarşı böyük bir təhdid olaraq yüksələn faşizmi aradan qaldıra bilmək və Hitleri məğlub edə bilmək üçün başladılan mübarizəyə qarşı dəstək ala bilmək. Nasistlərə qarşı çıxa bilmək üçün Stalin, xüsusilə kilsənin təsirini bu yolla uzun müddət istifadə etmişdir.

Lenin isə, çöküşə gedən Rus iqtisadiyyatını canlandırmaq və kapitalist ölkələrin səviyyələrinə çata bilmək üçün, iqtisadiyyatda qısa dövrlü bir siyasət dəyişikliyi etmiş və kapitalizmin qanunlarını təqib etmişdir. Yeni İqtisadiyyat Siyasəti (New Economic Policy - NEP) adı verilən bu tənzimləməyə görə kiçik müəssisələrin kapitalizmdə olduğu kimi mənfəət məntiqiylə davam etməsini ehtiva edən bir siyasətə keçilmişdir. NEP siyasəti bolşeviklər arasında müvəqqəti bir tənzimləmə olaraq görülmüş və xüsusilə daxilində saxladığı kapitalist iqtisadiyyata aid tətbiqlər üzündən partiya içində tənqid olunmuşdur. Kommunist iqtisadiyyat anlayışının tamamilə xaricində siyasət olan NEP, məcburiyyət olaraq mənimsənmiş və kafi iqtisadi inkişaf təmin edildikdən sonra tərk edilmişdir. Bu gün, həmin taktikanı Çinin Honq Konq siyasətində də izləmək mümkündür.

Kommunistlərin şəkil dəyişdirmə və geri addım siyasətləriylə əlaqədar bir başqa nümunə isə ailə və dövlət mövzusundakı yanaşmalarıdır. Bilindiyi kimi kommunizm, ailə və dövlət təşkilatlarına şiddətlə qarşıdır və bu iki təşkilatın, kommunist cəmiyyətlərinə geri dönüş mübarizəsində olduqca böyük maneələr olaraq görür. Lakin buna baxmayaraq, kommunistlər ümumiyyətlə taktika tətbiq etmiş və ailə qurumunu aradan qaldıra bilmək üçün əvvəlcə güclü bir dövlətin var olması lazım olduğunu söyləyərlər. Güclü bir dövlət üçün isə əvvəl ailə qurumunun güclənməsi lazımdır. Bu səbəblə, əvvəl geri addım ataraq ailəni gücləndirirlər. Bunun sayəsində, kommunist dövlət güclənir və bir mərhələ sonra isə ailə qurumu tamamilə ortadan qaldırılır. Bir sonrakı mərhələ isə

dövləti ortadan qaldırmaqdır ki, ailənin və dini dəyərlərin qalmadığı bir cəmiyyətdə, artıq bu kommunistlər baxımından çox asan aşılacaq bir mərhələdir.(21)

## PKK-nın istifadə etdiyi kommunist taktikları

Kommunist taktikalar bir çox kommunist lider tərəfindən qətiyyətlə tətbiq edilmiş və kommunizmin kök salaraq yerləşməsi üçün lazımlı görülmüşdür. Bir başqa sözlə, güclü kommunist dövlət üçün lazım olan hər yola müraciət edilmişdir. Əslində Stalinin kilsələrə əsla dəstək verməyəcəyi, Leninin əsla kapitalist bir iqtisadiyyata imkan verməyəcəyi açıqdır. Lakin mühit və şərtlər tələbi bu maska daim ustalıqla istifadə edilmişdir.

Hal-hazırda eyni üsul PKK tərəfindən də tətbiq olunur. PKK, kommunist dünya dövləti hədəfinin birinci mərhələsi olan kommunist Kürdüstanın meydana gətirə bilmə yolunun Qərb ilə yaxınlaşmaq olduğunun fərqinə varmışdır. Kommunist şəxsiyyəti ilə ortaya çıxmasının, dünyanın super gücü ABŞ tərəfindən reaksiya veriləcəyini və bu reaksiyanın özlərini qaçınılmaz bir müvəffəqiyyətsizliyə aparacağını çox yaxşı bilir.

Bu taktiki dəyişiklik içində zikr edilən məşhur söz "muxtariyyət" dir. Həqiqətdə təşkilat Manifestosunda şiddətlə qarşı çıxılan bu ifadə bir anda gecə gündüz istifadə olmuş, Manifestodakı kommunist Kürdüstanın qurulması üçün Türkiyə Respublikasının yıxılmasını şərt qoşan ifadələr ört-basdır edilmişdir. Çünki burada keçən kommunizm ifadəsinin, Qərb tərəfindən birbaşa dəstək görməyəcəyi təşkilat tərəfindən bilinir. Muxtariyyət, ABŞ və Avropa üçün olduqca göz boyayıcı bir sözdür; həmçinin PKK-ya Qərbin gözündə saxta "Kürd xalqının qurtuluş mübarizəsini aparan təşkilat" şəxsiyyəti də qazandırır. Qərbin bu tələbi demokratiyanın gərəyi olaraq görməsi və mütləq dəstək verməsi gözlənilir.

Belə ki, muxtariyyət sözünə türk cəmiyyətini alışdırma işləri müvəffəqiyyətsiz olunca bu sözü də yumşaltma siyasətinə müraciət etmişlər. Son günlərdə olduqca tez-tez eşitdiyimiz demokratik muxtariyyət, kanton, demokratik konfederalizm kimi təkliflər, PKK-nın taktiki üsullarından bəziləri olaraq gündəmə gətirilir.

Həmçinin təşkilat, şiddətlə dövlət sisteminə qarşı olmasına, dövləti yox etmək üzrə təşkilatlanmasına baxmayaraq fikir dəyişdirmiş və birdən Türkiyə Respublikasının varlığının özləri üçün zəmanət olduğundan bəhs etmişdir. Bu əslində istifadə edilən kommunist taktikalarinin ən çox bilinənləridir. Dövləti yıxmaq üçün əvvəl güclü bir dövlətin himayəsində olma planı həyata keçmişdir. Hədəfdəki ilk mərhələ olan muxtariyyət, Türkiyə Respublikasının varlığının əlbəttə özləri üçün zəmanət olmasını tələb edir. Çünki beləliklə, Türkiyə dövlətinin özlərinə pul, silah, fundamet təmin edəcək əsas mənbə olmasını xəyal edirlər. Türk dövlətinin puluyla irəlidə Türk dövlətinə qarşı istifadə ediləcək bir ordu meydana gətirməyi planlaşdırırlar. Bu səbəbdən, bu mərhələdə dövlətin varlığının əhəmiyyəti PKK və PKK tərəfdarları tərəfindən davamlı olaraq dilə gətirilir. Lakin əslində məqsəd, güclənib dövlət halına gəldikdən sonra Türkiyə

Respublikası daxil olmaqla ətrafdakı bütün dövlətləri yox etmək və kommunist dünya dövləti hədəfinə çatana qədər bu şəkildə irəliləməkdir. Bu səbəbdən, bu ifadələr də taktikadan başqa bir şey deyil.

PKK-nın imperializm maskasını taxdıqdan sonra boynuna götürdüyü digər taktikalar isə, qadınları, ailəni və dini istifadə etmələridir. Bu taktikaları müxtəlif başlıqlar altında araşdıraq:

## 1. İmperializm maskası altında qadınlar

PKK, marksist leninist ideologiyasını açıq-aydın davam etdirdiyi 1990-cı illərə qədər ailəni, dini, tayfaları və qadınları öz ideologiyasının zərərli elementləri olaraq görmüşdür. Təşkilata görə, müstəmləkəçiliyin agent təşkilatı olaraq gördüyü din və ailə ortadan qəti olaraq qaldırılmalıdır. Məhz bu səbəblə də, təşkilatın ən əhəmiyyətli mübarizə sahələrindən biri də ailələr, din xadimləri və tayfalar olmuş, olduqca çox sayda din xadimi öldürülmüş, tayfalara müharibələr elan olunmuşdur.(22) Öcalan, qələmə aldığı ilk yazılarında marksist-leninist xəttin bir nəticəsi olaraq qadını ciddi şəkildə alçaltmış, hətta qadını, ailənin içərisində "kişini alçaldan, geriədən" bir ünsür olaraq təsvir etmişdir. Hətta təşkilatın içində zərərli bir işçi olacaqları narahatlığı, kişilərin döyüşmə qabiliyyətini azaldacağı və təşkilat içi iqlimi pozacağı iddiasıyla qadınların təşkilat içində iştirak etmələrinə heç bir zaman müsbət baxmamışlar.

Bu nöqtədə Öcalanın qadınlar, xüsusilə kürd qadınları haqqındakı əsil fikirlərinə nəzər salmaq yerində olacaq:

*Kürd qadınlarının çoxunun bədənləri ölü, üfunətli, soyuq və çox kobuddur. Fiziki qurluşları bir az elədir, ruhları donuqdur. Fikir səviyyəsi heç yoxdur ... Bir tutuquşu qədər belə sözləri təkrarlaya bilməzlər.(24)*

Lakin daha əvvəl də ifadə etdiyimiz kimi 90-cı illər, təşkilat içində ayrılmaların meydana gəldiyi, təşkilatın güçsüzləşdiyi, kiçildiyi və olduqca ciddi itkilər vermiş olduğu bir dövrdür. Taktika dəyişməsini tələb edən bu əhəmiyyətli səbəb, PKK-nın qadınlar mövzusunda da bir irəliləyiş etməsini tələb edirdi. O dövrdə ani bir qərarla təşkilata qadın militanlar alınmağa başlanmışdır. 1996-cı ildə təşkilatın kiçilməyə başladığı və kütləvi dəstəyini itirməyə başladığı bir dövrdə isə PKK, qadınları, intihar hərəkətlərində ilk dəfə bir vasitə olaraq istifadə etmişdir.(25)

Terror təşkilatına qadınların qəbul edilməsində əsas məqsəd, yox olma təhlükəsi içinə girən PKK-da, kişi terrorçuları təşviq məqsədiylə qadınların bir döyüşçü olaraq istifadə edilməsidir. PKK, o tarixdən etibarən ön plana çıxardığı qadın döyüşçülər ilə bir növ rəqabətin yolunu açmış və təşkilat ilə bağlarını itirmək üzrə olan kişilər bu yolla təşviq edilmişlər.

Necə ki, PKK-da qadınların intihar hərəkətlərində istifadə edilmə nisbətinin, dünyadakı digər terror təşkilatları ilə müqayisədə daha çox olduğu görülür. Reallaşan və reallaşmaq üzrəykən tutulan intihar fəallarının 55%-nin qadınlardan meydana gəldiyi

müşahidə edilmişdir. Qadınlar, müxtəlif aldatma üsullarıyla bu marksist təşkilatın bir maşası halına gəlmişlər.

Bu tarixdən sonra PKK, qadınları çox müxtəlif şəkillərdə imperializm maskasının olduqca can alan bir hissəsi halına gətirmişdir. Feodal görüşlərün və xurafatçı İslam anlayışının yanlış nəticəsi olaraq xüsusilə qadınların ikinci sinif vətəndaş olaraq görüldüyü Yaxın Şərqdə özünü, qadın haqlarından bəhs edən, qadınları ön plana çıxaran bir qrup olaraq göstərmişdir. Qərb üçün bu həssas bir nöqtədir; PKK isə bundan ustalıqla istifadə etmişdir. PKK, Qərbin gözündə, qadına əhəmiyyət verməyən xurafatçı bir mühit içində qadın azadlığından bəhs edən yeganə birlik olaraq gözə çarpmışdır. Dövrümüzdə PKK hərəkatını tam mənasıyla tanımayan Qərb yazarlarının ən çox aldandıqları maska, düşdükləri oyun budur.

Həqiqətdə qadını "tənəzzülə uğradan bir amil" olaraq görən, qadını döyüşdə bir büdrək, önünə keçilməsi lazım olan "ailə bəlası"nın da əsas amili olaraq xarakterizə edən Öcalan, taktika dəyişməsinin bir gərəyi olaraq 1990-cı illərdən sonra qəfildən qadınlara istiqamətli azadlıq mövzusunu ortaya atmışdır. Qadını "qurtarılması lazım olan bir vətən kimi" göstərmiş və "azadlaşan qadın, azadlaşan Kürdüstan" şüarını inkişaf etdirmişdir. Çünki bu şüarın həm təşkilat içinə alınacaq qadın militanlar, həm də Qərb nəzdində nə qədər göz boyayıcı olduğunu çox yaxşı bilir.

İllinois Universiteti nəşrlərində, PKK-dakı bu dəyişiklik bu şəkildə ifadə edilmişdir:

*Qadınlar PKK hərəkatının aktiv üzvləri halına gəlməmişdən əvvəl, yəni 1990-cı illərə qədər, bütün diqqət kişilər üzərinə idi və qadınlar "etibar edilməməli zəif insanlar" olaraq dəyərləndirilirdi. Ancaq bu hərəkat içində qadınların sayı artdıqda, Öcalan və ümumi olaraq PKK, kürd kişisinin ənənəvi, "feudal" iqtidarını tənqid edərək, qadının rolu üzərinə vurğu etməyə başladılar.(27)*

Bunu qeyd etmək lazımdır. Qadın azadlığı və üstünlüyünün müdafiəçisi olmaq əlbəttə şərtdir və İslam dininin təməl ünsürlərindən biridir. Yaxın Şərq həqiqi mənada bu mövzuda geri qalmış bir coğrafiyadır və bunun ən əsas səbəbi İslam coğrafiyasının Qurandan uzaqlaşıb xurafatlara yönəlmiş olmasıdır. Xurafatçı məntiq, yalnız qadınlar mövzusunda deyil, keyfiyyət, demokratiya, sülh-müharibə, sənət, elm kimi hər cür mövzuda fövqəladə dərəcədə korlanma və fəlakət gətirmişdir. Burada diqqət yetirilməli olan ən əhəmiyyətli xüsus, həqiqi İslam dininin qadını ucaldan, sənəti, elmi və demokratiyanı ən mükəmməl təsvir edən anlayış olması; fəlakəti gətirənlərin Qurandakı əsil İslam dinindən uzaqlaşıb xurafatçı, saxta bir dinə tabe olmasıdır. (Mövzuyla əlaqədar olaraq baxın. Harun Yəhya, "Xurafatçıların qadın nifrəti", Qaranlıq təhlükə mövhumatçılıq)

Burada bunu ifadə etməkdə də fayda vardır. Türkiyənin cənub-şərq bölgəsində də xüsusilə o dövrlərdə yayılmış olan qız uşaqlarını məktəbə göndərməmə, kiçik yaşda evləndirmə, onları dəyərsiz və əhəmiyyətsiz görmə, hətta adət cinayəti kimi qorxunc tətbiqlərə məruz buraxma səbəbiylə qadınların xor görüldüyü bir sistemin cəmiyyət içində yayılmış olduğu doğrudur. Və PKK-nın bu yayılmış sistemi özü üçün fürsət olaraq

istifadə etdiyi, "silahlanarsan azad olarsan" fikrini aşıladığı görülür. Kürd kəndlərindəki gənc qızların bir çoxu, ümumiyyətlə ailə və ya tayfa içindəki təzyiqlərdən qaçmaq üçün bu azadlıq görünüşünə aldandıqlarını açıq şəkildə ifadə etmişlər. Peşman olanların arasında isə geri çəkilənlərin sayı azdır, çünki ümumiyyətlə təşkilat tərəfindən təhdid edilmiş, hətta edam edilmişlər.

Türkiyə, həm İslam, həm də demokratik ölkə olması səbəbiylə, xüsusilə qadınlara verilən dəyər mövzusunda mütləq qabaqcıl olmalı və Yaxın Şərqə mükəmməl bir nümunə olmalıdır. Bu mövzuda PKK kimi qərbə yaranma məqsədi ilə maska taxmış qanlı terror təşkilatlarına meydanı boş buraxmamalı, Quranda qadın və demokratiya mövzusunda ən mükəmməl, ən ədalətli və ən doğru tətbiqin olduğunu bütün dünyaya izah etməlidir. Bu, Türkiyənin qərbinə də, şərqinə də hakim olan bir üsul olaraq tətbiq edilsə, həm Yaxın Şərqin bu bəladan xilas olması üçün bir yol açılacaq, həm də Türkiyə, bunu tətbiq edən bir İslam ölkəsi olaraq Qurandakı gözəl əxlaqı Yaxın Şərqə göstərmiş olacaq.

## PKK-lı qadınlar nələr söyləyir?

PKK-nın qadın mövzusundakı tərz və ifadə dəyişikliyinin üzərində durmağımızın təməl səbəbi, terror təşkilatının bu istiqamətdəki ikiüzlülüyüdür. PKK, qadınlara istiqamətli bəhs edilən fikirləri və hərəkətləri sadəcə militan ehtiyacı və qərbə yaranmanın ən asan yolu olduğu üçün seçmişdir. Həqiqətdə təşkilat içindəki qadınların izahları, bu ifadələrin tam tərsini işarə edir.

Yazıçı Necati Alkan, PKK-lı bir çox qadın ilə bu mövzu haqqında reportajlar etmiş və əhəmiyyətli bir xülasə meydana gətirmişdir. Bunlardan bir neçə nümunə belədir:

PKK-lı qadınlardan Zelal kod adlı birinin şərhləri:

*Öcalanı yanaşması və tətbiqlərindən görə tənqid etdim. Təşkilat içindəki demokratiyanı tənqid etdim, insanların geriliyinə tənqid etdim ... Məni iki ay həbsə atdılar. Həbsdən çıxdıqdan sonra 500 adamın olduğu bir mühitdə, təhsil mühitində, Öcalan "mənə söz demisən" dedi. "Tanrıyla elə təsadüfi danışılmaz, söz deyilməz. Sən tanrıya söz atarsan vurularsan." Özünü tanrı yerinə qoyurdu yəni. Təşkilatdan ayrılmaq istədim, lakin ölümlə təhdid etdilər məni. Həyatımda o qədər qorxmamışdım.(28)*

PKK-nın dönüş müddətində təşkilatda fəaliyyət göstərən Bese kod adlı birinin şərhi isə belədir:

*PKK-ya ilk qoşulduğumda artıq dağdaydım, silahım var, o halda mən azadam deyə düşünürdüm. Amma sonrakı zamanlarda gördüm ki, azadlıq bu deyildi. Çünki özümə aid bir sənədim yox idi, şəxsiyyətim yox idi, düşüncələrimi istədiyim kimi dilə gətirə bilmirdim, tənqid edə bilmirdim Təşkilatdan ayrılmaq istədiyimdə, ayrıla bilmirdim. (Dərin müsahibə, 2008)*

Leyla kod adlı biri isə bu şərhləri etmişdir:

*PKK-da qadının azadlığı adına, simvolik və saxta səviyyədə edilənlər xaricində bir şey edilmədi. Edilənlərlə də qadın azadlıqlarını bir az daha itirdi. Çünki qadın adına ideologiyasını inkişaf etdirən, təşkilatı quran, bütün qərarları verən və tətbiq edən o insan Öcalandı. Mən şəxsən PKK-ya qoşulmadan əvvəl də azad idim. PKK-da mənim bu günə və sabaha dair fərdi görüşüm yox idi, ola bilməzdi də. (Dərin müsahibə, 2009)*

Necati Alkan, mövzuyla əlaqədar olaraq etdiyi müşahidə və reportajları nəticəsində, kitabında bu şərhlərə yer vermişdir:

*PKK tərəfindən 1990-cı illərdən sonra müxtəlif vəzifə və rollar yüklənərək qadınlar, təşkilatı ayaqda tutan təməl güc halına gəlmişlər. Fikir söyləyən qadınların hamısı, bu gücün təşkilatdan ayrılması halında "təşkilati quruluşun çökəcəyini" dilə gətirmişlər. Ronahinin, "qadınlar olmazsa, kişiləri təşkilatda saxlaya bilməzsiniz", Beritanın "kişilər qadına görə dağda dayanırlar", Ejinin "qadınlar olmasa bir nəfər kişi dağda olmazdı", Revşenin "qadın təşkilatdan ayrılsın, kimsəni dağda tapa bilməzsən", Pelinin "qadınlar ayrılarsa, kişilər bir saniyə belə dağda qalmazlar" sözləri bu məzmunda diqqətə layiqdir.(31)*

Alkanın analizlərinə görə PKK tərəfindən ilk illərdə "azadlaşdırılacaq kölələr" olaraq görülən qadınlar, silahlı fəaliyyətlərində iştirak etməyə başladıqları 1990-cı illərdə "yoldaşlar", intihar hücumlarında istifadə edilməyə başlandıqları 1996-cı ildən sonra isə "ilahələr" olaraq adlandırılmışlar. Ifadə olaraq bu qədər ucaltmalarına baxmayaraq, təşkilat içərisindəki tətbiqlərində qadınların kişilər tərəfindən alçaldıqları, bərabər olaraq görülmədikləri, onlara dəyər verilmədikləri də aydın olur. Təşkilatın ifadələriylə hərəkətləri arasındakı fərqliliklərdən narahatlıq duyan, təşkilatın vədləri ilə tətbiqləri arasındakı ziddiyyətləri görən bir çox qadın bu dövrdə təşkilatdan ayrılmaq istəmiş, kimisi qaçmış, kimisi qaçmaq üzrəykən tutulmuş və xain elan edilərək cəzalandırılmışlar.(32)

Uzun illər PKK-nın içərisində fəaliyyət göstərən Nevalın sözləri olduqca əhəmiyyətlidir:

*PKK içində qadın azadlığı adına həyata keçirilən bütün səylər, PKK sisteminin ən əsas qüvvəsi olaraq inkişaf etdirilmişdir. Öcalanın əslində yaratmaq istədiyi sistemin təməl ayaqlarından biri qadın işidir. Diqqət edin, partiya tarixi boyunca Öcalan, xüsusilə 1990-cı illər sonrasında sistemi və öz şəxsiyyətini əhəmiyyətli nisbətdə qadın gücü üzərindən inkişaf etdirdi. Qadını tərəzisinin bir gözü edərkən, bundan qadından çox özü faydalandı. (...) İnqilabçılıq adına, azadlıq adına ölkəsi üçün, bir çox təzyiqlərə məruz qalaraq dağlara çıxan minlərlə kürd qadını, Öcalanın sisteminin mənfəətləri üçün, amma "azadlıq" adına təşkil edildi.*

*Öcalanın qadın lehinə tərəf olduğundan bəhs edilir. Buna bir açıqlıq gətirmək istəyirəm. Öcalanın bəzən liderlik prestiji gərəyi bəzi jest xaricində, ümumi olaraq qadın lehinə müdafiələrindən bəhs edilməz. Amma bunun arxasına gizlənərək qurulan betər bir*

*sistem və ədalətsizlik var idi. Əslində Öcalanın qurduğu özünün dili ola biləcək, öz iqtidarını qadın üzərindən möhkəmləndirən bir elit qadın qrupu sistemiydi. (33)*

Təşkilat içində tənqid edən və ya təşkilatdan ayrılmaq istəyən qadınların cəzalandırılması və edam edilməsi isə "PKK-da qadın" məntiqini yekunlaşdıran bir həqiqətdir. Bu mövzuda veriləcək ən əhəmiyyətli nümunə, partiya daxilində təşkilatlanma mövzularındakı tənqidlərini Öcalana göndərən Semir kod adlı qadın militanın Öcalanın əmri ilə edam edilməsdir. Necati Alkana görə, Öcalan, Semirin öldürülməsiylə, nüfuzuna qarşı ilk üsyanı aradan qaldırmış və daha sonra inkişaf edə biləcək müxalif hərəkətlərə Semirin şəxsində dərs vermişdir. Semir tək nümunə olmamışdır, bəhs etdiyimiz anlaşılmazlıqda Semiri müdafiə edən Saim Aşkın da öldürülmüşdür. Hal-hazırda hələ də bu tətbiq davam edir və Öcalanın tətbiqlərini tənqid edənlər "Semir şəxsiyyəti" olaraq qiymətləndirilərək cəzalara və edamlara məruz qalırlar.(34) PKK təşkilatının qorxunc edam həqiqəti, sonrakı səhifələrdə ətraflı olaraq izah ediləcək.

Qadınlar mövzusunda bütün göz boyamaların əksinə PKK-lı qadınların "sadəcə istifadə edilmək" üzrə yer aldıqlarını fərq etmiş olmaları şübhəsiz sürpriz deyil. Qadınlar, kommunist nizam içində daim "dəyərsiz varlıqlar" olaraq görülmüşdür. Üstəlik kommunizm, keçmişdə yaşandığına inanılan, lakin tamamilə hiyləgərlik olan saxta bir kommunal sistemin həsrəti içində olduğundan, belə bir sistem içində "qadının dəyəri" deyə bir mövzunun bəhsi belə olmaz. Həsrət duyulan kommunist sistemində bütün mallar, əşyalar, qidalar və uşaq mövzusunda olduğu kimi qadın da ortaq bir mal olaraq qiymətləndirilər. Kommunist ideologiya xüsusilə indiki vaxtda etiraz edilən bir anlayış olduğundan, qadınların ortaq istifadəsini açıq şəkildə dilə gətirməzlər. Lakin onsuz da ailə qurumlarının ortadan qalxması qaçınılmaz olaraq bu nəticəni də özü ilə gətirir ki, hədəf də budur. Evliliyin, ailənin, nikahın mənasının olmadığı bir cəmiyyət anlayışı, onsuz da qadının da, uşaqların da, malın da ortaq olması nəticəsini özü ilə gətirər. Hər şeyin ortaq paylaşma sahəsində istismar edilməli olan bir mal olaraq görüldüyü mühitdə qadının bir "dəyəri" olmayacağı da açıqdır.

## 2. İmperializm maskası altında din (Allahı, Quranı və dini tənzih edərik)

PKK-nın imperializm maskası altında yer alan ünsürlərin bəlkə də ən əhəmiyyətlisi dindir. 90-cı illərə qədər hər cür dini rədd etmiş olan leninist PKK, kommunist şəxsiyyətini gizləməyin ən diqqətə çarpan metodlarından biri olaraq dini istifadə etmə yolunu seçmişdir. Qərb dövlətlərinə yaranmanın ən kilid nöqtəsi, kommunizmin şiddətlə cəbhə aldığı din mövzusunda fərqli bir taktika izləyə bilməkdir. Dindarlıq maskası, elə buna görə də 90-cı illərdən sonra PKK tərəfindən olduqca təsirli bir şəkildə istifadə edilməyə başlanmışdır.

Bu dəyişmənin təfərrüatlarına keçmədən əvvəl, din mövzusunda PKK-nın təməl dünyagörüşünü anlamaq lazımdır.

Dəfələrlə xatırlatdığımız kimi PKK, kommunist bir təşkilatdır. Kommunizm isə, ateizm ideologiyasıyla birlikdə ortaya çıxmış, bütün kommunist liderlər əslində ateist təbliğatı etmişlər. Onsuz da qurulacağı ehtimal olunan kommunist dövlət mütləq din, əxlaq və ailə anlayışlarını tərk etmiş olmalıdır. Necə ki, "Lenin 1900-cü ildə nə idisə mən də XXI əsr sosializmini təmsil edirəm" deyən Öcalan da, 90-cı illərin əvvəlində, yəni imperialist maskanı taxmadan əvvəl din mövzusundakı düşüncələrini açıq şəkildə ifadə etmişdir. Abdullah Öcalanın din ilə əlaqədar azğın ifadələrinin bəziləri bu şəkildədir (Allahı, Quranı və dini tənzih edirik):

*Lisey dövrlərində böyük fəlsəfi böhran yaşadım.* ***Tanrı ilə mübarizə apardım, bu mübarizədən müvəffəqiyyət ilə çıxdıqdan sonra yarı tanrı oldum.****(35)*

*Tək tanrılı din ideologiyaları, başdan sona siyasət ideologiyalarıdır. Dini ifadə edən, Allah, peyğəmbər və mələk kimi anlayışlar* ***dövrün siyasi ədəbiyyatıdır.****(36)*

*Allah bir növ* ***orta əsrlərin feodal manifestosudur****, təməl qanunu və bildirişidir.(37)*

*Namazın özü də ümumi mənada bir* ***teatrdır.****(38)*

*Qurani-Kərimlə əlaqədar* ***"İdeoloji şəxsiyyət səviyyəsində həyata keçirilən, şumer mifologiyasının üçüncü böyük versiyası, çevrilmə keçirmiş formasıdır".***

***Bizim din ilə əlaqəmiz yoxdur. Xalqımız Tanrıdan, ideologiyadan ayrılmalıdır. Mən çox əlləşdim, nəhayət Tanrıdan ayrıldım. Tanrını aşdım****. Beləcə, Abdullah Öcalan ola bildim. İslam qadınımıza bir şey verməmişdir. Bunun yerinə sosialist əxlaqı qoyacağıq.*

*Tarix içindəki inkişafına baxdığımızda, Allahı tapmaqla birliyə və gücə çatmaq istənildiyi çox açıq görülür. Elə* ***sevgili qulun cənnətə getməsi kimi anlayışlar, işin fantaziya hissəsidir, ədəbi hissəsidir.***

Leninizm, başlanğıcdan etibarən Öcalanın və PKK-nın ideologiyası olmuşdur. Lenin isə, tətbiq etdiyi marksist ideologiya içində dinə baxışını bu şəkildə ifadə etmişdir:

*Marksizm materializmdir ... Bu heç şübhə yaratmaz ...* ***Dinlə mübarizə aparmalıyıq.*** *Bu, hər cür materializmin və təbii olaraq marksizmin ABC-sidir. Ancaq marksizm, ABC-də donmuş qalmış materializm deyil. Marksizm daha irəli gedərək belə deyər:* ***Dinlə necə savaşacağımızı bilməliyik, bunu edə bilmək üçün də inancın və dinin mənşəyini kütlələrə materialist bir şəkildə açıqlamalıyıq. Dinlə savaş, mücərrəd ideoloji öyüdlərə sadələşdirilməməlidir.****(39)*

Marks, dini özünə görə, "suveren sinif, ya da müstəmləkəçi sinif əlində, xalqı keyitmək üçün istifadə edilən bir vasitə" olaraq xarakterizə etmişdir. Öcalanın da izlədiyi ideologiya əsasında dinə baxışı eyni istiqamətdə olmuş və dini, müstəmləkəçi olaraq qəbul etdiyi burjua və dövlətin əlində bir vasitə kimi görmüşdür. Necə ki, təşkilatın quruluş manifestosunda "İslamiyyətin müstəmləkəçiliyin bir agent qurumu olduğu, kürdlərin içinə yerləşmiş və onlara gizlidən gizliyə təsir edən bir Troya atı görünüşündə olduğu" ifadələri yer alır. Troya atı bənzətməsi, "Kürdüstan İnqilabının Yolu-Manifesto"

adlı kitabının 1994-cü ilin nəşrinin 32-ci səhifəsində Öcalanın şəxsən öz dilindən bu şəkildə ifadə edilmişdir:

*Kürdlər, mənəvi sahədə də xarici işğala məruz qaldı. Müsəlmanlıq, Kürdün beynində və ürəyində milli inkarı hazırlayan və qalanı içdən fəth edən rolu oynayan "Troya atı" kimidir.*

Leninist dünya görüşünün nəticəsi olaraq PKK, proletariatın hakimiyyətində bir sistem meydana gətirməyi əsas almış, proletariat hakimiyyətin də əvvəlcə dinsizliyin yayılmasıyla mümkün olacağına inanmışdır. Necə ki, Öcalanın bu mövzuda, *"Kürdüstan İnqilabı, Oktyabr inqilabı ilə başlayan və milli qurtuluş hərəkatiylə getdikcə güclənən Dünya proletariat inqilabının bir hissəsidir."(41)* ifadələrini nəzərə almaq lazımdır. PKK üçün proletariatın hakim edilməsinin ən böyük yolu şübhəsiz silahlı mübarizədir. Amma PKK içində bu zehniyyətin hakim ola bilməsi üçün ilk şərt daim dindən uzaqlaşdırıcı bir təhsil olaraq görülmüşdür. Öcalanın bu sözləri bunu açıqlayır:

*Dialektik tarixi-materializm meydana gəlmədən əvvəl nə proletariatın güclü bir hərəkəti reallaşdırıla bilinmişdir və nə də qabaqcıl təşkilatı yaradılmışdır. Bu mənada da proletariatın ən böyük ustadlarının işə fəlsəfədən başlamaları, dini tənqid edərək proletariatın sağlam dünya görüşünü ortaya çıxarmaları bir təsadüf deyil ...(42)*

Bütün bu açıqlamalardan da aydın ola biləcəyi kimi, Lenin də, onun izlərini təqib edən Öcalan da, dinin gözəlliyini və isti ruhunu, Allahın insanlara öyüd verdiyi gözəl əxlaqı qavraya bilməmişlər və bu səbəblə, daim həll yolunun dinə savaş açmaq olduğunu düşünmüşlər. Məhz bu səbəblə, PKK-nın əsas metodu daima saxta fəlsəfi təhsil vermək olmuşdur. Bu fəlsəfi təhsil, təməlində, dialektik materializmi əsas alır və bununla yanaşı dinə qarşı ifadə ehtiva edir. Bu təhsil şəkli PKK içində hələ də davam edir.

Halbuki Cənub-Şərq üçün bu səy boşunadır. Cənub-Şərq bölgədə xalqımız İslamın isti, mehriban ruhunu tam olaraq qavramış olan; İslamın sülh, şəfqət və fədakarlıq ruhunu mükəmməl tətbiq edən mənəviyyatı güclü bir xalqdır. Cənub-Şərq bölgəmizdəki xalqımızın İslamın xaricində bir həyat şəklini mənimsəməsi, marksizmin soyuq, ürküdücü, sevgisiz ruhunu bir həyat şəkli olaraq sahiblənməsi mümkün deyil. Necə ki, PKK da, qan itirməyə başladığı 1990-cı illərin başlanğıcında iki əhəmiyyətli həqiqəti qəbul etmək məcburiyyətində qalmışdır: 1) kürdlər dindardır, bu səbəbdən dindən kənar bir ideologiyaya məcburiyyət və ya təzyiq xaricində bu işə başlamaz və dəstək verməzlər. 2) Radikalizmlə üzləşən Yaxın Şərqdə qərbin dəstəyini qazanmanın yolu mülayim İslam ifadələrindən keçir.

Birinci maddə ilə əlaqədar olaraq siyasətçi, jurnalist və yazar Mehmet Metinerin şərhləri belədir:

*İddiam odur ki, PKK o dövrdə (quruluş illəri) sosialist-ateist bir ideologiya üzrə getməmiş, kürdlərin dini inancları və dəyərləri ilə birbaşa hesablaşan bir siyasət izləməmiş olsaydı, heç şübhəsiz ki, çox daha geniş bir kütləylə görüşmə imkanına sahib*

*olardı ... Çünki kürdlər tarixləri boyunca nə dinlərindən, nə də milliyyətlərindən imtina etmişlər(43).*

Kürdlərin dinlərindən imtina etməyəcəyi həqiqəti, dəstəkçi tapa bilməyən PKK-nı din maskası taxmağa məcbur etmişdir.

İkinci maddə isə, həqiqətən qərbdə PKK-nın gözlədiyi təsiri oyandırmışdır, ya da qərb, öz mənfəətləri üçün buna çox inanmaq istəmişdir. Qərb təfsirçilərinin bəziləri, Yaxın Şərqin radikalizm səbəbiylə qan gölü halına gəlməsini səbəb göstərir və din mövzusunda mülayim sözlərlə ortaya çıxan PKK kimi bir müttəfiqi -kommunist olduğu həqiqətini bilməyərək və ya tamamilə göz ardı edərək- öz normalarına olduqca uyğun hesab edirlər. Necə ki, fransız yazıçısı Bernard-Henri Levy, PKK ilə əlaqədar şərhlərində bunu bu sözlərlə açıq şəkildə izah etmişdir:

*Bəhs edilən bölgələrdə gender bərabərliyi, dünyəviliyə və azlıqlara hörmət və İslamın müasir, mülayim və ekumenizm anlayışını görmək mümkün; ki bunlar, bölgədə olduqca nadir görülən xüsusiyyətlərdir.(44)*

Diqqət yetirilsə sayılan üç ünsür, yəni qadın hüquqları, demokratiya və mülayim din anlayışı, qərbin daim Yaxın Şərqdə həsrət duyduğu ünsürlərdir. Məhz bu kilid və göz boyayıcı ünsürlər, PKK tərəfindən taktika dəyişməsinin bir parçası olaraq diqqətlə seçilib istifadə edilmiş; qərb isə, strateji əhəmiyyətə sahib bir coğrafiyada, bu xüsusiyyətlərə sahib yaxşı istifadə ediləcək bir müttəfiqi var olduğu zənninə qapılmışdır. Halbuki PKK, qərbi sadəcə aldadır.

## Kürd milliyyətçiliyi görünüşünə uyğun dindarlıq örtüyü

PKK, 90-cı illərin sonrasında görünüş dəyişdirərək, "etnik hərəkətlər", "yerli ünsürlər" və "çoxluğun altında əzilmiş şəxsiyyət böhranı" fürsətlərini davamlı gündəmə gətirmişdir. Bunun səbəbi, bu başlıqlarının AB və ABŞ-ın insan hüquqları gündəliyində yerinin mütləq olmasıdır. PKK, kürd kartını elə buna görə oynayır. Kürd kartını gərəyi kimi oynaya bilmək üçün isə kürdlərlə qaynaşan İslamı, öz ağıllarına görə istifadə mərhələsinə keçirmişlər. Halbuki həqiqətdə PKK, kürd milliyətçiliyi ilə heç bir əlaqəsi olmayan kommunist bir hərəkatdır. Necə ki, təşkilatın keçmişdən bu günə hədəfində daim kürdlər olmuş və təşkilat, əslində kürdlərə qırğın tətbiq etmişdir. Kitab daxilində zaman-zaman xatırlatdığımız kimi PKK ilə kürdlər arasındakı fərqi çox yaxşı anlamaq lazımdır.

Yazar Burhan Semiz, PKK-da xalqa nail olmaq adına edilən bu örtük dəyişikliyini bu sözlərlə açıqlayır:

*PKK-nın şəraitə görə birbaşa və ya dolayı şəkildə başqalaşdırdığı və düşmən olaraq gördüyü üst təşkilatların başındakı din - xüsusən İslamiyyət - qavrayışı gəlir. Dini və İslamiyyəti müstəmləkəçiliyin agent təşkilatı olaraq xarakterizə edən PKK, cəmiyyətin bu dəyərinə istiqamətli olaraq quruluşdan əvvəlki və sonrakı müddətində əks mövqe sərgiləmişdir ...(45) PKK, bölgə xalqı ilə yaşadığı dəyər qarşıdurmasını aşa bilmək*

*məqsədiylə 1990-cı illərin əvvəllərindən etibarən ictimai dəyərləri göz qarşısında saxlamanın əhəmiyyətini qavramağa başlamış,* ***ən əsas İslamiyyət -Dini dəyərlər- olmaq üzrə ailə, qadın və mədəni dəyərlərə istiqamətli olaraq ifadə dəyişikliyi aparmışdır.(46)*** *PKK-nın təşkilati çərçivədə istənilən səviyyədə ictimai yüksəlişə çata bilməməsi və kürdlərin təşkilata qarşı çıxaraq -Hizbullah, Elm, Mənzil kimi fərqli formalaşmalara meyil göstərməsi,* ***1990-cı illərdə Öcalanın İslamiyyət və din mövzusundakı klassik ifadələrini yenidən nəzərdən keçirməsinə və bu sahəyə əhəmiyyət verilməsinə səbəb olmuşdur.(47)***

Öcalan, bu örtük içində radikal dindar hərəkatları belə bir müttəfiq olaraq görə biləcəyini açıq şəkildə ifadə etmişdir.

*Xüsusilə dini hərəkatlarla həqiqətən nizama qarşı olanlarla dostluq uyğundur. İrana əsaslanan dini ideoloji hərəkatla dostluq münasibəti qurula bilər. Bunlar, radikal bir xətdə hərəkət edib, qərb tərəfdarları rejimini devirmək məqdəsi güddüyündən, düşmən olaraq görülə bilməz. Xüsusilə öz din siyasətimizi həyata keçirərkən, bunlarla yarış və həmrəylik içində olmalıyıq.(48)*

Bu ifadə dəyişikliyini Öcalan, materialist ünsürlərdən bir anda tamamilə uzaqlaşmadan, bir sınaq mərhələsi daxilində reallaşdırmağa çalışmışdır. Bu vəziyyəti "Din probleminə inqilabçı yanaşma" adı altında yeni bir strategiyayla həyata keçirmək istəmişdir. Bu başlıq altında dinə baxışını fərqli şəkillərdə ifadə etməyə çalışan Öcalan, İslam haqqında daha mülayim ifadələr istifadə etmişdir. Dini tamamilə dövrədən kənar buraxan keçmişdəki ifadələrinin yerinə -dialektik və materialist fikirlərini qorumaqla yanaşı-, dinin öz ağlına görə ictimai funksiyasını ön plana çıxarmağa çalışmışdır.

Bu taktika dəyişməsi keçən illərdə PKK-nın ümumi izahlarına daha geniş şəkildə daxil edilmişdir. Dini ifadələriylə tanınan müxtəlif siyasətçilər və aktyorlar dövrəyə soxulmuş, PKK ilə "mülayim İslam" anlayışı -qərbə təsir edəcək şəkildə birlikdə xatırlanmağa başlamışdır. Qərb, bu aldadıcı görünüş nəticəsində, Yaxın Şərqdə sayları getdikcə artan radikallara qarşı təsirli olacaq bir birliyə qovuşduğunu hesab etmişdir. Halbuki, həqiqət bu şəkildə deyil. PKK-nın İslamiyyətə yaxınlaşma görünüşünün yalnız bir taktika olduğunu, bir müddət təşkilat üzvü olan Demirkıran bu ifadələrlə izah edir:

*Mən təşkilata qatıldığımın ertəsi günü təşkilatın inancının olmadığını anladım. Çünki burada marksist-leninist bir təşkilat var idi. İlk zamanlarda bu məni çox kədərləndirirdi. Məni uzun müddət böhrana salmışdı. Lakin yenə də inancsız olmamı təmin etməyə çalışırdılar. Burada hər kəs inkar edərkən mənim inkar etməməyim mümkün ola bilməzdi. Hər nə qədər içimdən inkar etməsəm də bunu xaricə əks etdirməməyə imkan yox idi. Qəti olaraq hamımız inancsızdıq.(49)*

Əvvəl imamlıq edən, ancaq daha sonra müxtəlif səbəblərlə təşkilata qatılan 55-60 yaşlarındakı Hüseyn adlı təşkilat üzvü ilə əlaqədar şərhlər də diqqətə dəyərdir:

*Hüseyn əmi düşərgəyə ilk gəldiyində namaz da qılırdı. Baxdı heç kim namaz qılmır, üstəlik hər kəs dinə qarşı, yavaş-yavaş namaz qılmağı buraxdı. Bunun izahını özünə edirdi. "İndi müharibədəyik, namazı sonra qılarıq" deyirdi. Bir imam, marksist nəzəriyyə*

*üzərinə qurulmuş PKK-da dindən belə uzaqlaşırdı. Bizim kimilər isə, çoxdan Allahı unutmuşdular.(50)*

Kürd qardaşlarımızı və qərbi aldatmaq adına din maskası taxan PKK, əslində hələ də, dövlətin və ailənin yox edildiyi dinsiz bir kommunist sistemini xəyal edir. Necə ki, sonrakı hissələrdə əhatəli olaraq izah etdiyimiz kimi, PKK-nın şəhər quruluşu adı altında qurduğu KCK dövlət sistemi, tam olaraq bu kommunist sistemini təsvir edir, bu ifadə açıq şəkildə dilə gətirilir. Məhz bu səbəblə, PKK-nın dini ifadələrinin qərbi, hətta ölkəmizdə belə bəzi seqmentləri bu qədər aldada bilməsi təəccüblüdür. Bəhsi keçən kəslər, hər cür dini yox etmək istəyən bir birliyi "mülayim dindar" olaraq tanıdır və din ilə yoğurulmuş Yaxın Şərq üçün sanki bir model kimi göstərməyə çalışırlar.

## Türk təhsil tədris sistemi şüursuzca PKK-nın ideologiyasına dəstək verir

Burada diqqət çəkilməli olan və dövlətimiz və millətimiz baxımından ən təhlükəli olan həqiqət, türk təhsil tədris sisteminin şüursuzca PKK-nın ideologiyasına dəstək verməsidir. Daha əvvəl dəfələrlə ifadə etdiyimiz kimi PKK-nın təməl ideologiyası olan kommunizm, darvinizm qaynaqlıdır. Darvinizm, yəni təkamül nəzəriyyəsi isə, hiyləgər bir diktatorluq tərəfindən bütün dünyaya zorla qəbul etdirilmiş, ölkələrin təhsil tədris proqramlarına zorla daxil edilmiş, insanlıq tarixinin ən böyük yalanıdır. Bu yalan, xüsusilə XXI əsr elmi ilə qəti olaraq təsirsiz edilmiş, milyonlarla il heç bir dəyişiklik göstərməmiş canlıların 500 milyondan çox fosil (daşlaşmış qalıntı) nümunəsi torpaq altından çıxarılmış və bir zülalın təsadüfən əmələ gəlməyəcəyinə dair molekulyar və bioloji dəlillər ortaya qoyulmuşdur. Bu səbəbdən, təkamül nəzəriyyəsi elmi mənada etibarsızdır. Buna baxmayaraq darvinist diktatorluğun təzyiqi və daşındırma siyasəti səbəbiylə dövlət sistemləri bu yalana sahib çıxır, həm məktəblərdə, həm universitetlərdə təkamülü təməl bir mövzu olaraq zəruri hala gətirir, ana axın media, öz nəşr orqanlarını buna uyğun şəkildə təşkil edir.

Türkiyə də bu ölkələrdən biridir. Türk xalqının 99% -i dindar olmasına baxmayaraq türk təhsil tədris proqramında, təkamül, bütün digər ölkələrdə olduğu kimi baş rollardadır. Uşaqlarımız, hələ kiçik yaşlardan etibarən təkamülü bir həqiqətmiş kimi öyrənir, kainatın, güclünün zəifi əzməsi lazım olan bir mübarizə sahəsi olduğuna inanır və beyinlərində hər şeyin təsadüfən var olduğu məlumatını alaraq Allah inancından uzaqlaşırlar. Məktəblərdə din dərslərində uşaqlara ənənəvi bir yanaşmayla, din məlumatı öyrədilir, lakin uşaq, aldığı digər bütün dərslərdə Allahın var olmadığına dair saxta bir təlqin alır. (Allahı tənzih edirik). Bu səbəbdən bir uşaq, əldə etdiyi bu saxta fundamentin təsiriylə gələcək müddətdə kommunizm və faşizm kimi darvinizm qaynaqlı ideologiyaların asanca təsiri altında qalır, təsir altında qalmasa da bu azğın ideologiyalara qarşı savaşacaq ideoloji fundament və gücə sahib ola bilmir. Məhz bu səbəblədir ki, PKK, illərdir öz ətrafına darvinist, kommunist bir təhsil verərkən, bununla mübarizə aparmalı

olan Türk gəncləri də təəccüblü şəkildə dövlət məktəblərində bənzər bir təhsil alırlar. Bunun faciəvi bir nəticəsi olaraq PKK ilə heç bir elmi mübarizə aparılmır. Mübarizə yalnız hərbi sahə ilə məhdud qalır, o da PKK-nın alçaq şəkildə reallaşdırdığı qerilla terroru səbəbiylə itkilər gətirir.

Halbuki illərdir dəfələrlə açıqladığımız kimi, PKK-nın öhdəsindən gəlməyin tək yolu elmi mübarizədir. Bu edilmədiyi müddətcə, PKK-nı tamamilə ortadan qaldırmaq qəti olaraq mümkün deyil. Aparılan müzakirələrin, atəşkəsin də nəticə gətirməyəcəyi açıqdır. Həmçinin qatil dayanır, yalnız əlindəki silahı müvəqqəti olaraq alınır.

PKK-nın darvinist fundamentini daha açıq nümunələrlə görmək lazım olsa, Öcalanın özü qatı təkamülçüdür və PKK-nın ideoloji təməli də bunun üzərinə qurulmuşdur (Mövzuyla əlaqədar ətraflı məlumat üçün baxın. Harun Yəhya, Kommunist Kürdüstan Təhlükəsi, "PKK Darvinistdir" s.111 ). Necə ki, Öcalan, öz ağlına görə dinin tərifini edərkən "İnsanlaşmağın başladığı dövr" olaraq qəbul etdiyi xəyali bir dövrü çıxış nöqtəsi olaraq almışdır. Bu, Öcalanın zehnindəki, primatlardan insana çevrilmə saxtakarlığının bir təzahürüdür. Öcalanın istifadə etdiyi ifadələr belədir:

***İnsan növünün ortaya çıxmağa başladığı şərtlərdə, növ olaraq İnsanlaşmanın başladığı dövrdə,*** *ona bu xüsusiyyətlərini verən qabiliyyətləri formalaşmağa başladığında, bir din dəyərinə, bir din düşüncəsinə, bir dini dünyagörüşünə çatmaq məcburiyyətində idi. Bunu iki səbəblə etmək məcburiyyətində idi, bir tərəfdə fövqəladə gördüyü təbiət gücləri, o biri tərəfdə isə öz qabiliyyətləri.(51)*

Diqqət yetirilsə Öcalan, öz ağlına görə insanlaşma dövrü təsbit edir və fövqəltəbii güclərin və qorxuların təsiriylə insan tərəfindən din fikrinin yarandığını iddia edir. Bu qəribə izaha, digər şərhlərində də rast gəlmək mümkündür:

*... İnsanı nəzərdən keçirək və dini anlamağa çalışarkən təbiət qarşısındakı zəifliyi göz önünə gətirək. O, bu zəifliyini çılpaqlığını nə ilə aradan qaldıracaq? Bu mövzuda yanılmadığımıza inanıram:* ***İnsanlar özlərini hökm edənlər vəziyyətinə gətirmək üçün, acizliklərindən xilas olmaq üçün, təbiətə simpatik görünmək və təbiəti anlayışlı etmək üçün və əlbəttə ki, hamısının da kənarında özlərini suveren qılmaq üçün din və tanrı düşüncəsinə müraciət edirlər****. Əslində insanın özünün "hakim" olmaqda gözü vardır. Məhz bunun ön mərhələsi də, özünə tanrılar yaratmaqdır ... Daha da konkretləşdirsək; din, insan növünün təbiətlə qarşılaşmasında ilk girdiyi düşüncə və ruhi inkişaf formasıdır.(52)*

Əslində bu, o vaxta qədər dini tamamilə rədd edən Öcalanın yeni taktikasıdır. Hələ də dinsiz şəxsiyyətiylə danışır, hələ də PKK-nın dinsizlik strategiyasını müdafiə edir, lakin dinin "ilk insanın" bir ehtiyacı olduğunu iddia edərək dini öz ağlına görə "qəbul edilmiş bir təşkilat" olaraq göstərməyə çalışır. Beləliklə əslində, "... inancın və dinin mənşəyini kütlələrə materialist bir şəkildə açıqlamalıyıq" deyən Leninin dinlə savaşmaq üçün göstərdiyi metoddan istifadə edir. Dini öz ağlına görə sosioloji olaraq açıqlayan, lakin

tamamilə rədd etməyən görünüşü ilə ortaya çıxır və dindar kürd xalqı üzərində təsir oyandırmağa çalışır. Öcalanın mövzuyla əlaqədar digər sözü belədir:

***Din bütün zəiflikləri örtmədə, qorxularını, narahatlıqlarını, ağrılarını aradan qaldırmada insan oğlu üçün bir dərmandır.*** *Həm də zəruridir. İlk insan nə üçün elmi həqiqətlərə çatmadı, niyə səhv düşüncələrə, vəsvəsələrə qapıldı deyilə bilməz. Çünki o günün şərtlərində bundan fərqli davrana bilməzdi. O halda, ilk insanın həqiqətini daha yaxşı anlamaq vacibdir.(53)*

Açıq şəkildə görüldüyü kimi Öcalan, təbiətin və tarixin bir dialektik içində inkişaf etməsinə dair saxta təkamülçü anlayışı dinə də təlqin etməyə çalışır və dinin bir dialektik içində var olduğunu iddia edir. Buna görə dini, qorxulardan qaynaqlanan bir ehtiyac olaraq açıqlayır və zaman ərzində təkamül keçirdiyi yanılmasını ortaya atır. Öcalan özünə görə, *"primitiv kommunal cəmiyyətdə Tanrı və təbiət mehvərində bir din qavrayışının hakim olduğu, bununla yanaşı feodal cəmiyyətə keçidlə birlikdə dinin təkamül keçirməyə başladığı və tək Tanrılı dinlərin ictimai zəminini hazırladığı"(54)* kimi ürküdücü bir məntiqi müdafiə edir. Bu ifadələrin cəmiyyətin bir seqmentində təsir oyandırması o qədər də təəccüblü deyil. Çünki Türkiyə məktəblərində tədris sistemində din, sosiologiya dərsində tam olaraq bu şəkildə təyin olunur:

*Ümumi olaraq din, insanların anlaya bilmədikləri, qarşısında gücsüz qaldıqları təbiət və cəmiyyət hadisələrini, qurduqları fövqəltəbii, sirli xüsusiyyətli güclərlə şərhlərə yönəlmədir.(55)*

Uca Rəbbimizin bir haqq və yol göstərici olaraq Öz Qatından göndərdiyi dinin, öz məktəblərimizdə, insanların "təbiət və ictimai hadisələrin qorxusundan qaçmaq üçün sığındıqları və "özlərinin çıxardıqları" bir anlayış" olaraq açıqlanması dəhşət verici bir vəziyyətdir. Bu vəziyyət, yalnız PKK-nın zehniyyətinə xidmət etməklə kifayətlənmir, daxilində dinsiz cəmiyyətlərin də yetişməsinə zəmin hazırlayır. Allah qorxusu olmayan və bunun yerinə təbiətdə güclünün zəifi əzdiyi bir mübarizənin şərt olduğuna inanan cəmiyyətlər içində isə sevgisizlik, şiddət və nifrətin sərbəst olacağı açıqdır. Necə ki, indiki vaxtda, cəmiyyət içində vəhşi qırğınların, qadın cinayətlərinin, döyüş və psixopatlıqların get-gedə artması heç də təəccüblü deyil. Məktəblərdə şagirdlər təkamül əsaslı dərslər səbəbiylə birbaşa "Allah yoxdur" təlqini alır (Allahı tənzih edirik) və şiddəti təbiətin bir qanunu olaraq qəbul edirlər. Allah qorxusu olmadığı müddətcə, şiddətə meyilli insanları nə qanunlar, nə də daşındırıcı tədbirlər dayandıra biləcəkdir.

Yenə Türk məktəblərinin tədris sistemində olan fəlsəfə dərsi məktəb kitablarında keçən ifadələr bu şəkildədir:

*... Insan, azad və güclüdür. Onun Allah tərəfindən əvvəlcədən təyin olunan bir kökü yoxdur ... Yaradılan varlıq, heç bir şeydən gəlməz. Çünki özü xaricində heç bir şey yoxdur. Əgər Tanrı var olsaydı yaradılış və azadlıq olmayacaqdı. O halda ...*

*... Allah, dünyadakı pisliklərin qarşısını almaq istəyir və gücü çatmırsa gücsüzdür. Tanrının pisliklərin qarşısını almağa gücü çatır və qarşısını almaq istəmirsə pis niyyətlidir ... (56) (Allahı tənzih edirik)*

Bu dəhşətli ifadələr birbaşa Allahın varlığını inkar üzərinə şüuraltı təlqini məqsədiylə istifadə edilir. Bu şərhləri oxuyan bir uşaq, akademik bir əsərdən gələn məlumatın doğru olduğuna inanacaq və birbaşa dinsiz yetişəcək. Halbuki həqiqətdə, əzəli və əbədi olan Allahdır və kainatda yaradılış Allahın izni ilə reallaşmışdır; bütün kainatın və içindəkilərin mütləq əvvəli və sonu vardır. Kainatın, insanın və bütün canlıların yaradılmış olduqları genetika, astronomiya, fizika, kvant fizikası, biologiya, paleontologiya kimi elmin çoxsaylı sahələri tərəfindən isbat edilmişdir. Allahın varlığı azadlığın, ədalətin, xoşbəxtliyin və hüzurun zəmanətidir. Həqiqi pislik və bədbəxtlik isə, təkamülçülərin və materialistlərin iddia etdiyi kimi təsadüflər nəticəsində yaranan və davamlı ziddiyyət içində irəliləyən xəyali dünyanın xüsusiyyətidir.

Həmçinin tarixin və təbiətin dialektik əlaqədar keçmişdən bu yana davam edən şərhlər, təkamül saxtakarlığını dünyaya yaymaq üçün uydurulmuş saxta fəlsəfədir. Nə tarixdə, nə də təbiətdə heç bir şey ibtidaidən aliyə bir dəyişiklik göstərməmiş, tarixdə heç bir zaman "daş dövrü" var olmamış, canlılar bir bakteriyadan törəməmişdirlər. Keçmiş cəmiyyətlərin bəziləri, bəzi zaman günümüzdəkindən belə, daha inkişaf etmiş nümunələr təqdim edən fövqəladə mədəniyyətlərdir. (Ətraflı məlumat üçün baxın. Harun Yəhya, Təkamül yalanı və Harun Yəhya, tarixi bir yalan: Daş dövrü) səbəbdən Öcalanın və digər bütün darvinistlərin dinə təlqin etməyə çalışdıqları dialektika, yalnız bir yalandır. Lakin bu yalan, orta məktəb kitablarında şüursuz şəkildə tədris olunur.

Görüldüyü kimi, terroristlər dağda, şagirdlərimiz isə məktəblərdə aldadılır. Bu yalan sona çatmadan, Türkiyə sərhədləri içində PKK-ya və onun ideologiyasına istiqamətli həqiqi bir elmi mübarizənin reallaşa bilməsi çətindir. Dəfələrlə ifadə etdiyimiz kimi PKK-nın əsil problemi və əsil hədəf alınmalı olan bəla qaynağı ideologiyasıdır. İdeoloji mübarizə üçün fundamentin olmaması, gənclərin bu fundamentdən tamamilə məhrum halda, böyük bir yalanın əsiri olmuş şəkildə yetişmələri, Türkiyəni böyük fəlakətlərə sürükləyə bilər.

# MƏKTƏB DƏRS KİTABLARINDAKI TƏKAMÜL VƏ DİNSİZLİK TƏBLİĞATLARINDAN BƏZİ NÜMUNƏLƏR

(2013-14 təhsil tədris proqramına görə)

## Orta təhsilin 12-Cİ SİNİF BİOLOGİYA KİTABI

*"Bu tədris ilində; "HƏYATIN BAŞLANĞICI VƏ TƏKAMÜL şöbəsində həyatın ilk ortaya çıxışı və canlılardakı dəyişmə haqqında məlumat qazanmanız ... "*

*Fosillərdən (daşlaşmış qalıntılar) bizə yer üzündə canlıların necə ortaya çıxdığı, yer üzündə haralara və necə yayıldığı, yayılarkən nə kimi dəyişikliklər keçirdiyi mövzusunda əlamətlər təqdim edir. Fosillərin və bir çox elm sahəsinin araşdırmalarından əldə edilən məlumatların köməyiylə həyatın başlanğıcı və təkamül başa düşülməyə çalışılır. (S. 199)*

*Canlıların başlanğıcdakı vəziyyətlərindən günümüzdəki müxtəlifliyin ortaya çıxmasına qədər keçirdiyi dəyişikliklərin hamısı təkamül olaraq təyin olunar. (S. 204)*

*Paleontologiya sahəsində görülən işlər nəticəsində bu təbəqələr arasında bir-birindən fərqli fosillərin olduğu və təbəqələrin yaşı artdıqca burada olan fosillərin dövrümüzdəki canlılara daha az bənzədiyi müşahidə edilmişdir. Fosillərin araşdırılması ilə əldə edilən nəticələr dövrümüzdən milyonlarla il əvvəl yaşamış bəzi növlərin zamanla dəyişdiyini və ya yox olduğunu göstərmişdir. (S. 204)*

*Bu səbəblə, bir növün keçirdiyi təkamül prosesin müəyyən edilməsi, növlər arası bənzərliklərin müşahidə edilməsinə və bu növə bənzəyən fosillərin araşdırılmasına əsaslanır. (S. 205)*

*Lamarkın fikirləri (s. 205)*

*Darvinin fikirləri (s. 206)*

*Fosillər təkamülün ən güclü dəlilləridir. (S. 207)*

*Fosillər köhnə dövrlərdə yaşamış canlılarla indiki vaxtda var olan canlılar arasındakı bənzərlik və fərqləri müqayisə edir və canlılarda nə kimi dəyişikliklərin olduğunu göstərir. (S. 207)*

*Canlıların embrioloji, biokimyəvi, anotomik, genetik quruluşlarındakı bənzərlik və fərqliliklərin təkamüllə əlaqəsi (s. 208-209)*

*Təbiətdəki dəyişikliklər təkamülə necə təsir edər. (S. 210)*

*1. Təkamülün açıqlamasında embriologiyanın, genetikanın və biokimyanın fəaliyyətləri nələrdir?*

*2. Fosillər təkamülün başa düşülməsinə necə kömək edir?*

*4. Təkamülün nəzəriyyəsinə görə canlılardakı dəyişmələrin uzun zamanda və yavaş-yavaş reallaşması bu mövzuda tədqiqatlar aparan bioloqlar üçün nə kimi problemlər çıxarar?*

*5. İnsan sayının artması nəticəsində təbiətdə meydana gələn mənfi təsirlər nələrdir? Bunlar təkamül prosesinə və həyata necə təsir edir? (S. 211)*

## ORTA MƏKTƏBİN 9-CU SİNİF BİOLOGİYA KİTABI

*İbtidai eukariot ... Bir hüceyrədən çox hüceyrəyə ... Tək hüceyrələrdən çox hüceyrəlilərə keçid olaraq qəbul edilən Volvoks ... (s. 91)*

*Ancaq həyat dənizlərdə başlamış və yaxın zamanda (geoloji dövr olaraq təxminən 500 milyon il əvvəl) quruya keçmişdir. (S. 107)*

## İBTİDAİ TƏHSİL FƏNN VƏ TEXNOLOGİYA DƏRS KİTABI 6

*Atın təkamülü ... Atın atası beş barmaqlı və it böyüklüyündə bir canlı idi. (S. 232)*

## ORTA MƏKTƏBİN 10-CU SİNİF BİOLOGİYA KİTABI

*Bu vəziyyət, su altının fərqli şərtlərində həyatda qalmaq üçün inkişaf etdirilən təkamüllü uyğunlaşmadır. (S. 150)*

*Təkamül adaptasiyası isə populyasiyadakı genetik müxtəliflik təmin edər. (S. 18)*

*Bu suala, qurbağa, quşların və məməlilərin təkamülü göz önünə gətirərək cavab verilə bilər. (S. 47)*

*Bu qruplar təkamül prosesində bir-birlərindən ayrılmağa başladıqlarında ... (s. 47)*

*Onların təkamül prosesləri boyunca qızdırmaya heç tutulmamalarına görə ... (s. 126)*

## İBTİDAİ TƏHSİL FƏNN VƏ TEXNOLOGİYA DƏRS KİTABI 8

*Adaptasiya və təkamül: ... Bioloji müxtəlifliyin ortaya çıxmasında canlıların təkamül prosesinin bir göstəricisidir. Siz də adaptasiyaların bioloji müxtəlifliyə və təkamülə təmin etdiyi töhfələrlə nümunələr verin. (S. 38-40)*

*Canlıların ekoloji dəyişikliklərə qarşı təmin etdikləri adaptasiyaların bioloji müxtəlifliyə və təkamülə töhfədə fayda verə biləcəyinə nümunələr verdik. (S. 42)*

## ORTA TƏHSİL PSİXOLOGİYA DƏRS KİTABI

*Zoologiya: Heyvanlardakı rüşeym inkişafı, qidalanma, sağlamlıq, davranış, irsiyyət və təkamülü, digər canlılarla qarşılıqlı təsir və ünsiyyət mövzularını araşdırar. (S. 27)*

## İNCƏSƏNƏT VƏ İDMAN LİSEYLƏRİ MUZEY TƏHSİLİ -12

*İnsan təkamülünün bilinməyən nöqtələrini ortaya çıxarması, xüsusilə də uzaq atalarımıza aid fosil qalıqları, üyütmə alətləri, şəxsi əşyalar, məşəl, ayaq izləri, heyvan sümükləri, piyalələr, çanaqlar və keramika qablarının olmasıyla mağaralar, arxeologiya və antropologiya sahəsinə geniş bir araşdırma imkanı təqdim edir. (S. 56)*

İncəsənət, insanlıq tarixinin hər dövründə var olan anlayışdır. İnsanlığın keçirdiyi təkamül, insanların həyata formalarını və həyata baxışlarını dəyişdirmiş ... (s. 58)

## ORTA TƏHSİL ASTRANOMİYA VƏ KOSMOS ELMLƏRİ DƏRS KİTABI

*Ulduzların təkamülü, ulduzların təkamül mərhələləri (s. 63)*

*Bu qisimdə, bir ulduzun təkamülünü, əhəmiyyətli mərhələlərini nəzərə alaraq araşdıracağıq. (S. 63)*

## FƏLSƏFƏ DƏRS KİTABI (Allahı tənzih edirik)

*... İnsan, azad və güclüdür. Onun Tanrı tərəfindən əvvəlcədən təyin olunan özülü yoxdur ... Yaradılan varlıq, heç bir şeydən gəlməz. Çünki özü xaricində heç bir şey yoxdur. Əgər Tanrı var olsaydı yaradılış və azadlıq olmayacaqdı. O halda ... (s. 171)*

*... Tanrı, dünyadakı pisliklərin qarşısını almaq istəyir və gücü çatmırsa gücsüzdür. Tanrının pisliklərin qarşısını almağa gücü çatır və qarşısını almaq istəmirsə pis niyyətlidir ... (s. 171)*

## SOSİOLOGİYA DƏRS KİTABI (Allahı tənzih edirik)

*Ümumi olaraq din, insanların anlaya bilmədikləri, qarşısında gücsüz qaldıqları təbiət və cəmiyyət hadisələrini, qurduqları fövqəltəbii, sirli xüsusiyyətli güclərlə şərhə yönəlmədir. (S. 96)*

## 3. İmperializm maskası altında demokratiya və dövlət

15 Avqust 1984-cü ildə Eruh və Şemdinliyə etdiyi hücumlardan sonra "Müstəqil Birləşmiş Sosialist Kürdüstan" hədəfini elan edən PKK, Maoist bir xalq savaşı ilə Türk ordusunu Cənub-Şərqdən çıxarmaq məqsədini rəsmi olaraq elan etmişdir. 1990-cı illərin ilk dövrlərinə qədər bu hədəf izlənməyə davam etmiş və Öcalan 50 min nəfərlik bir orduya sahib olacaqlarını açıqlamışdır.(57)

PKK-nın təşkilat manifestosunda ən böyük hədəflərdən biri sinifsiz bir cəmiyyət yaratmaq olaraq keçir və kommunist Kürdüstan yaratmaq üçün döyüş çağırışı edilir. Daha əvvəl də ifadə etdiyimiz kimi, PKK proqramının “Kürdüstan inqilabının vəzifələri” başlıqlı hissəsində, müstəmləkəçi dövlət olaraq xarakterizə edilən Türkiyə Respublikasının təqdim edəcəyi hər cür həll axtarışlarını (regional muxtariyyət kimi) rədd etməyi ifadə edən bir maddədən bəhs edilir. Bu rədd etmədəki məqsəd, müstəmləkə dövləti olaraq qəbul edilmiş olan Türkiyənin mütləq parçalanmalı olduğu düşüncəsidir.(58)

Bu səbəbdən PKK, quruluş məqsədi gərəyi də heç bir zaman demokratik bir həll axtarışında olmamışdır.

Kommunist ideologiya demokratik bir zəmin altında razılıq metodu ilə torpaq və ya haqq əldə etməyi deyil, bütün bunları birbaşa silahlı mübarizə yolu ilə əldə etməyi əsas alır. Dövlət quruluşunun rədd edildiyi və dövlətə aid olan hər şeyin düşmən olaraq görüldüyü belə bir anlayışda, anarxiya tək və qanuni üsul olaraq görülür və nizamın dəyişdirilməsi adına, günahsız insanların belə qətl edilməsi çox təbii qarşılanılır. Bu səbəbdən, kommunist terror təşkilatları üçün demokratiya qəti olaraq qəbul edilməyən bir anlayışdır.

Manifestolarında Maoist bir savaş ilə Türk dövlətini tamamilə yıxmaq istədiyini açıq şəkildə ifadə edən və təxminən 40 il boyunca terrordan başqa heç bir üsul bilməyən və kommunizmin gərəyi olaraq demokratiya və dövlət anlayışlarına tamamilə savaş açmış olan PKK, imperialist maskanın bir "zəruriliyi" olaraq zaman ərzində fərqli bir ifadə inkişaf etdirməyə başlamışdır. 50 min nəfərlik orduyla Türkiyə Respublikasını yıxma fikri, zaman keçdikcə müxtəlif manevrlərlə dəyişiklik keçirərək Türkiyə Respublikasının mütləq varlığı ifadəsinə qədər gəlmişdir.

Bunun başlıca səbəbləri:

* Alçaq qerilla mübarizəsi üsulunu izləməsinə baxmayaraq PKK-nın, türk ordusu qarşısında davamlı ağır zərbələr alması, buna qarşı tərəfdar toplamaqda çətinliklər çəkməsidir.

* Öcalanın, tutulmasından dərhal sonra "Dövlətimin əmrindəyim" sözləri bu məcburi dəyişikliyin əslində dəqiq ifadəsidir. Burada Öcalan, dövlət ilə təmasa keçib dövlət ilə müzakirə yoluna gediləcəyinə dair ilk şərhlərini etmiş, məhkəmələri əsnasında da bunu təkrarlamışdır. Əlbəttə Öcalanın tutulması və sonrasında inkişaf edən

hadisələrin, hədəfdəki Böyük Kürdüstan adına, əhatəli Qərb dərin dövlət planı olduğu da aşkardır. Bu səbəbdən onsuz da müəyyən edilmiş bu plan daxilində, Öcalan, Qərbin təyin etdiyi şəkildə ifadə hazırlamış və Türk dövlətini istəməyərək qəbul edən hala gəlmişdir.

* Silahlı mübarizənin nəticə verməyəcəyi nöqtədə izlənilməyə başlayan bu imperialist siyasət, zaman keçdikcə Cənub-Şərqi daxildən ələ keçirmə səyinə çevrilmişdir. İlk olaraq Türkiyə hökumətini müzakirəyə məcbur etmə düşüncəsi ilə yola çıxılmış, bunu təmin etmək üçün də qarşılıq alacaq marksist ifadələr yerinə demokratiya ifadəsinə ağırlıq verilməyə başlanmışdır.

* Keçmişdə demokratiya sözünə həddindən artıq reaksiya göstərən BDP/HDP idarəçiləri, birdən-birə demokratiyanın ən böyük müdafiəçiləri halına gəlmişdir. Necə ki, Sırrı Süreyya Önderin, qatıldığı bir proqramda "PKK çox demokratik bir quruluşdur, bu sözlərim bir çox tamaşaçını yerindən hiddətləndirəcək, amma bu belədir"(59) ifadələrindən istifadə etməsi diqqət çəkicidir. 40 il boyunca alçaq şəkildə qerilla mübarizəsi aparıb, bütün demokratiya prinsiplərini əzərək uşaq, qadın demədən qırğınlar törətmiş bir terror təşkilatının demokratik olduğunun bu qədər naümidcəsinə ifadə edilməsi, necə bir oyun oynandığını açıq şəkildə gözlər önünə sərir.

* PKK, demokratiya ifadəsinin xüsusilə ABŞ və AB-dən olduqca güclü bir dəstək alacağını şübhəsiz bilir. Necə ki, belə də olur. Türkiyədəki PKK terrorunu, "şəxsiyyət böhranındakı bir kürd hərəkatı" olaraq təyin edən bəzi sadəlövh qərblilər, demokratiya ifadələrinin təsirinə dərhal girir və bunun cadusuyla Türkiyədəki qanlı terror həqiqətini bir anda tamamilə unudurlar. PKK, qərbin demokratiya həssaslığını öz ağlına görə ustalıqla istifadə edir.

Bu səbəblər əsasında demokratiya sözünü tez-tez dilləndirməyə başlayan təşkilat, adını da 2003-cü il noyabrdan etibarən Kongra Gel olaraq dəyişdirəcək və sonrakı hədəfini də, "Kürd probleminin həlli əsasında ayrı bir dövlət qurmağı hədəfləmədən, birbaşa demokratiyanın suveren olduğu demokratik ekoloji cəmiyyət inşa etmək" olaraq müəyyən edəcək.(60) Bunun bir təzahürü olaraq da hədəf, zaman keçdikcə müstəqil muxtar Kürdüstandan kantona, kantondan demokratik muxtariyyət ifadəsinə qədər getmiş, indi isə Türkiyə Respublikasının bütövlüyü içində bir Kürdüstandan bəhs edilir.

Halbuki buradakı hədəf heç bir zaman demokratiya və ya demokratik bir ölkə içində demokratik bir muxtariyyət olmamışdır. Hədəf, demokratiya anlayışını istifadə edərək qalanı içdən fəth etməkdir. Qoparıb ala bilmədikləri Cənub-Şərqi yerli rəhbərliklər vəsiləsiylə hakimiyyət altına alacaq, bu arada bağlı olduqları Türkiyə Respublikasının bütövlüyünü müdafiə edəcək, eyni zamanda Türkiyə Respublikasının gəlirindən, Avropa nəzdindəki haqlarından, ordusundan, təhsilindən, qaynaqlarından bacardığı qədər faydalanacaq və bu mənbələr vasitəsilə güclənib tək başına hərəkət edəcəklər. Bunu təmin etmək üçün, ilk əvvəl hazır və güclü bir dövlətin himayəsində olmaq əlbəttə işlərinə gəlir. Sanki türk ordusunu istifadə edərək özlərinə hakimiyyət qərargahı hədəfləyirlər. Bütün bunları edərkən müvəqqəti müddətdə bir kənarda türk bayrağının dalğalanmasına da etiraz etməyəcəklər.

Bunu yalnız Kürdüstan ifadələri üzərindən etmək də gözə olduqca çarpacağı üçün fərqli bir taktika təkmilləşdirmiş, Türkiyəni 25-26 muxtar bölgəyə bölməni planlamışlar. PKK-nın, Öcalanın və HDP kimi partiyaların bir müddətdir dillərindən düşürmədikləri plan budur. Buna görə hər bölgə öz içində muxtar hala gələcək və beləliklə, müstəqil bir Kürdüstanın meydana gəlməsi də o qədər gözə çarpmayacaqdır.

Bütün bu planı Diyarbəkir Bələdiyyə keçmiş Başçısı Osman Baydemirin 2010-cu il iyul ayındakı çıxışında açıq şəkildə görmək mümkündür:

*Demokratik firavan bir Türkiyə necə olacaq? Muxtar Şərq Qaradəniz olacaq, Muxtar Orta Qaradəniz olacaq, eyni zamanda Muxtar Kürdüstan olacaq ... Demokratik muxtariyyət layihəsində TBMM var, olmağa da qəti olaraq davam edəcək. Buna heç bir etiraz yoxdur. Türk Bayrağı Türkiyədə dalğalanmağa davam edəcək, buna da heç bir etirazımız yoxdur. Amma bununla yanaşı, hər bölgədə regional parlament olacaq. Bu regional parlamentlərdə biri də Kürdüstan Regional Parlamenti olacaq. Türk bayrağının yanında, Türkiyə bayrağının yanında, mənim babalarımın, hamımızın babalarının də töhfəsi ilə, ödəmiş olduğu əvəzlə əldə edilən və hal-hazırda asılan bayrağın yanında əlbəttə ki, kürd xalqının da yerli rəngləri, bayrağı da səmada olacaq. Bələdiyyə binamızın qarşısında ay ulduzlu türk bayrağımızla sarı, qırmızı, yaşıl bayrağımız dalgalansa nə olar? (Milliyyət, 01.08.2010)*

Edilən bu açıqlamalardakı inandırmaq üsuluna diqqət çəkmək lazımdır. Baydemir, bu ifadələrlə altdan alta TBMM-nin varlığına və türk bayrağının dalğalanmasına öz ağlına görə "icazə vermiş" və əslində təməl niyyətini açıq şəkildə ortaya qoymuşdur. Bu, son dövrlərdə demək olar ki, bütün HDP rəhbərlərinin istifadə etdiyi bir üslub halını almış, bu vətənin bölünməzliyinin ifadəsi olan ay-ulduzlu bayrağımız üçün "problem deyil, bir kənarda dalğalansa da olar" kimi şüursuz bir üslub formalaşdırmışdır.

Burada bunu ifadə etmək lazımdır; Osman Baydemir daxil olmaqla, BDP-HDP nümayəndələrinin bir qismi bu üslubu pis niyyətli olmadan və ya təzyiq altında istifadə edə bilər. Lakin mövzuya PKK-nın hədəfləri üzərindən baxıldığında, demokratik muxtariyyət, kanton, muxtariyyət kimi ifadələrə altdan-alta cənub-şərqdə bir kürd dövləti planlarının qurulduğu açıqdır. Bu planın, Türk dövlətinin pulu, imkanları və hərbi gücüylə reallaşdırılması kimi bir hədəfi olduğu da görülür. Necə ki, ötən son bir neçə ildə PKK-nın birbaşa Türk dövləti ilə bir "müzakirə" içinə girmiş olması, qerilla mübarizəsi ilə əldə edilə bilməyən, bu cür hiyləgər bir yolla əldə edilməsi məqsədi daşıyır və xeyli yol qət etdiyi görülür. Bu mövzuya sonrakı sətirlərdə təfərrüatlı olaraq toxunulacaq.

# 4-CÜ HİSSƏ

# QƏRBDƏ PKK QAVRAYIŞI

PKK, müxtəlif görünüş və ifadələr dəyişdirərək Qərbin gözünə girməyə çalışarkən əlbəttə Qərbdə PKK-ya istiqamətli bir anlayış inkişafı da gecikməmişdir. İllərdir kommunizmə qarşı amansız bir mübarizə aparan, bunun üçün Sovetlər Birliyi ilə nəticələri çox böyük olan soyuq müharibənin içinə belə girən, Vyetnamda, Koreyada döyüşən ABŞ və onu dəstəkləyən Qərb gücləri, kommunist terrorist şəxsiyyəti səbəbiylə PKK-nı terror təşkilatları siyahısına daxil etmişdilər. Hərçənd, əlbəttə, PKK-nın illər ərzində Avropa dövlətlərinin bir qismi tərəfindən dəstəkləndiyi, o ölkələrdə təşkilatlandığı bilinən bir həqiqətdir. Təşkilatın, illər sürən mübarizəsinə baxmayaraq tamamilə ortadan qaldırılmamasının ən əhəmiyyətli səbəblərindən biri şübhəsiz xaricdən aldığı dəstək olmuşdur. PKK bu səbəblə, yurd içində həyata keçirə bilmədiyi bir qisim fəaliyyətləri xaricdə rahatlıqla reallaşdıra bilən mühit tapa bilmişdir. Məsələn, müxtəlif televiziya və radio kanalları vasitəsiylə təşkilatın təbliğatı asanlıqla edilmiş, təşkilat rəhbərlərinin yazıları müxtəlif jurnallarda dərc olunmuş, uydurma şirkətlər vasitəsilə təşkilatın maliyyə qaynaqları yaradılmışdır. Xaricdəki marksist partiya, dərnək və təşkilatların bu mövzudakı səyləri ciddi ölçülərdədir.

Lakin yenə də, xüsusilə ABŞ və digər kommunizm əleyhdarı ölkələr, kağız üzərində də olsa PKK-nın marksist şəxsiyyətinə böyük ölçüdə qarşı qoymuşlar. Əvvəlki sətirlərdə da ifadə etdiyimiz kimi qərb ölkələrinin bu əleyhdarlığı zaman ərzində PKK-nın işinə yaramamış, PKK içində ifadə və görünüş dəyişikliyi bundan sonra özünü göstərmişdir. Həqiqətən də, böyük ölçüdə ABŞ-ın gözünə girmə hədəfi daşıyan imperializm maskası, PKK-nın tıxanan yollarını böyük miqyasda açmışdır. Hal-hazırda ABŞ-lı və avropalı yazarların arasından "PKK-nı terror siyahısından çıxarmağı" təklif edəcək qədər şüursuz kəslərin çıxması boşuna deyil. Burada soruşulmalı olan sual isə budur: ABŞ, həqiqətən bu maskaya inanıb mı?

ABŞ rəhbərliyi və dərin dövləti içində bu maskaya inananlar ola biləcəyi kimi həqiqətdə bu maska bir çoxlarının işinə yaramışdır. Belə ki, PKK-nın şəxsiyyət dəyişdirməsində belə dərin dövlətin rolu olması böyük ehtimaldır. Bu səbəbdən, xüsusilə Qərbin PKK-ya baxış bucağını iki istiqamətdən qiymətləndirmək lazımdır:

1. PKK-dan istifadə etmək istəyənlər
2. PKK-nın tələsinə düşənlər

## 1. PKK-dan istifadə etmək istəyənlər

Qərb dərin dövlətlərinin bir qisim şahin qanadı, Yaxın Şərqdəki bütün aktyorların, onların inkişaf strategiyaları və hədəflərindən xəbərdardırlar. Kitabın əvvəlindəki izah etdiyimiz xüsusilə evanqelist yeni mühafizəkar qanadın müəyyən bir seqmentini meydana gətirən bu kəslər, şübhəsiz ki, PKK-nın marksist təməlindən heç bir şəkildə qopmadığını, təşkilatın hədəfinin dörd ölkə üzərində meydana gətirəcəkləri kommunist Kürdüstan ilə kommunist dünya dövlətinə çatmaq olduğunu, bu hədəf daxilində ABŞ-a istiqamətli yalnız rol oynanıldığını və əsil məqsədin bütün kommunist ölkə və təşkilatlarla bir yerə gəlib imperializmi yox etmə düşüncəsi olduğunu bilirlər. Bu həqiqətə baxmayaraq, Amerika dəstəkçisi, demokratik bir Kürdüstan yaratmaq üçün PKK-dan istifadə edirlər. Çünki onlar üçün, Amerika tərəfdarı demokratik Kürdüstanın kağız üzərində meydana gəlməsindən dərhal sonra ilk məhv olan təşkilat PKK olacaq. Bəhs etdiyimiz kütlə, PKK-ya verdikləri kömək və dəstəyin kəsilməsi və rəhbərliyin birbaşa ABŞ-ın əlinə keçməsinin ardından bölgədə PKK-nın heç bir şəkildə hakimiyyəti qalmayacağına inanır və təşkilatı asanca uzaqlaşdıra biləcəklərini düşünürlər.

Bu nöqtədə, bəhsi keçən Neocon seqmentin çox böyük nəticələrə səbəb olacaq bir yanılması vardır. Yanılma, kommunizm təhdidinin ölçülərini fərq edə bilməməkdən irəli gəlir. Bu bir həqiqətdir ki, PKK, Amerikanın dəstəyini alıb bölgədə öz planlarına uyğun Kommunist Kürdüstan qurduqdan sonra, illər boyunca gizlicə əlaqədə olduğu kommunist təşkilat və ölkələrin də dəstəyi ilə güclü bir bölgə hakimiyyətinə keçid edəcək. Bunun üçün Avropa kommunist təşkilat və partiyalarından da dəstək alacaq, yayılmış siyasətini ciddi şəkildə artıra biləcəkdir. Kommunizm, ideoloji bir sistem olduğu üçün ideoloji fundament və dəstəkçilərini daim tapacaqdır. Məhz bu fundament vəsiləsi ilə, ABŞ-a qarşı kommunist bir birlik olaraq ortaya çıxmaları mümkün ola biləcək. ABŞ, hədəfinə çatmaq üçün PKK-dan istifadə etməyə çalışarkən, əslində PKK ABŞ-dan istifadə etmiş olacaq. Məhz o zaman ABŞ-ın bəhs etdiyimiz seqmenti, qarşı olduqlarını iddia etdikləri kommunizmi öz əlləriylə bəsləmiş və dünyaya hakim olmağa hazırlaşan bir kommunist ölkəni öz əlləriylə inşa etmiş olacaqlar.

## 2. PKK-nın tələsinə düşənlər

Qərbdə, demokratik bir Kürdüstan meydana gətirmənin ən asan yolunun PKK-ya dəstək vermək olduğunu zənn edən və daha da dəhşətlisi PKK-nı kürd etnik hərəkəti olaraq təyin edən, PKK-nın ciddi şəkildə tələsinə düşmüş bir seqment olduğu da bir həqiqətdir. Bu təbliğat, daha çox PKK-nın bir hissəsi olan Suriyadakı PYD üzərindən aparılır. Çünki PYD, PKK kimi müxtəlif ölkələrin terror siyahılarında deyil və PYD üzərindən edilən fərziyyələr bu səbəblə asanlaşıb. Bu mövzu sonrakı sətirlərdə daha ətraflı araşdırılacaq. İndi, Qərbin, PKK-nın əsil üzünü bilərək, ya da bilməyərək verdiyi dəstəyin ölçülərini araşdıraq.

## Qərbin Kobani həssaslığı

Kürdüstan planlarının konkret mənada başlanğıc nöqtəsi olan I Dünya müharibəsindən sonra zəmanəmizə gəldiyimizdə, əlbəttə artıq NATO, BMT kimi beynəlxalq ittifaqlar səbəbiylə Yaxın Şərqdəki planlar keçmişdəki qədər açıq şəkildə dilə gətirilmir. Sykes-Picot kimi gizli müqavilələr və ya Sevr kimi ürküdücü razılaşmalar bəlkə indiki vaxtda yoxdur; lakin tətbiq edilmək istənən plan eynidir.

Bəhs etdiyimiz plan daxilində, mövcud kürd bölgələrinə olan qərb həssaslığını əslində yaxın zamanda bütün çılpaqlığıyla bir daha görmək mümkün olmuşdur. 2011-ci ildə başlayan Ərəb Baharı etirazlarının xüsusilə Suriyanı dərindən vurub məhvə apardığını bilirik. Təməldə beş ayrı hissəyə ayrılmış olan və hələ parçalanmaqda davam edən Suriya torpaqları üzərində güclənən İŞİD (İraq Şam İslam Dövləti və ya yeni adıyla İslam Dövləti), həm İraq, həm də Suriyada əsas strateji bölgələri tamamilə ələ keçirdi. Maraqlıdır ki, İŞİD, Suriyada Rakka, Deyr ez-Zor kimi həm neft, həm də sərhəd baxımından strateji bölgələri ələ keçirərkən; İraqda Felluce, Ramadi, Tikrit və Mosulu tamamilə işğal edib Türkmən bölgələri Tuzhurmatu və Beyliceyi hakimiyyəti altına almışkən; Anbar vilayətində irəliləməsini davam etdirib, paytaxt Bağdada olduqca yaxınlaşmışkən səsini çıxarmayan Qərb, IŞİD-in mövcud planlarını dəyişdirib kürd bölgələrini hədəfləməyə başlamasıyla birlikdə dərhal hərəkətə keçmişdir. Yaxın Şərqdəki demək olar bütün işğallara ciddi mənada laqeyd qalan Qərb, İraqda kürd bölgəsinə istiqamətli bir hücum hiss edildiyində, heç tərəddüd etmədən bu bölgələrin qorunması üçün bir koalisiya gücü hazırlamışdır.

İkinci və əsil hərəkətlənmə isə IŞİD-in Suriyadakı kürd kantonu Kobaniyə yönəlmiş hücumunda reallaşmışdır.

Xatırlanacağı kimi İŞİD, Kobani kantonunda, vətəndaşların keçişinə icazə verdikdən sonra, o bölgənin idarəsini əlində tutan PYD-yə istiqamətli qerilla əməliyyatı başlatmışdı. Koalisiya gücləri tərəddüdsüz və olduqca ardıcıl bir şəkildə PYD-nin (PKK terror təşkilatının Suriya qolu) yanında yer aldı və işğal altındakı bölgələri bombalamağa və PYD-nin silahlı gücü olan YPG-yə silah köməyi etməyə başladı. Bu arada bütün Qərb mətbuatı ağız birliyi etmişcəsinə Kobanini gündəm halına gətirir, dünyada görünməmiş bir fəlakət yaşandığı təəssüratı verir, ana axın TV kanalları demək olar ki, yalnız bu mövzunu dilə gətirirdilər. Sosial mediada, nadir hallarda edilən Kobani dəstək kampaniyası başladıldı. Sanki IŞİD-in ələ keçirdiyi torpaqlar yalnız bu kiçik qəsəbədən ibarətmiş kimi fövqəladə bir beynəlxalq qiyam başladıldı. Halbuki, bütün bunlar olarkən "İslami bir dövlət" qurduqlarını açıqlayan İŞİD, İraq və Suriyanın kilid şəhərlərində öz nizamını qurmuş, öz ordusunu meydana gətirmiş, öz təhsil sistemini proqrama almış, öz qanunlarını dövrəyə salmış və öz məhkəmə sistemini qurmuşdu. Lakin kimsə bu bölgələrdən bəhs etmirdi belə.

Əlbəttə, qəsəbə və ya şəhər, kənd və ya ölkə olsun heç bir bölgədə heç kimin zərər çəkmiş olmasını istəmirik. Kobanidəki xalq bizim xalqımızdır. Necə ki, Kobani işğalından

dərhal sonra insani mənada həssaslıq göstərən tək ölkə Türkiyə olmuşdur. 200 minə yaxın Kobanili kürd bir gecədə qaçqın olaraq ölkəmizə qəbul edilmişdir. Bu səbəbdən, Kobani xalqı mühafizə altına onsuz da alınmışdır.

Bunu da ayrıca qeyd etmək lazımdır ki, bizlərin, IŞİD-ə qarşı hərbi fəaliyyət üçün yaradılmış koalisiya qüvvələrinin də tərəfdarı olmağımız mümkün deyil. Bəhsi keçən koalisiyanın İŞİD-i təsirsizləşdirmək üçün Mosul, Rakka və ya başqa bir bölgəyə istiqamətli hərbi fəaliyyət göstərməsini dəstəkləmədiyimiz kimi, Kobaniyə istiqamətli hücumları da dəstəkləməyimiz qeyri-mümkündür. Bölgəyə həll yolu və sülh silahla deyil, ancaq ağıllı bir elmi yanaşma ola bilər. Unudulmamalıdır ki, tarix boyunca sülh heç zaman müharibə ilə gəlməmiş, silah heç bir zaman həll yolu gətirməmişdir; gətirməsi də mümkün deyil.

Burada diqqət çəkmək istədiyimiz Qərbin həssaslıq sahələridir. Koalisiya qüvvələrinin yalnız kürd bölgələri mövzusunda heç vaxt itirmədən hərəkətə keçmələri, Qərb üçün ən zəruri nöqtələrin bu bölgələr olduğunu bir daha təsdiq edir. Suriya və İraq torpaqlarının qarışıqlığa uğraması, parçalanıb bölünməsi çox ciddi qəbul edilməmişdir. Çünki plana görə, Yaxın Şərqin onsuz da müxtəlif amillərlə bu hala gəlməsi, hətta İncilə görə dəfələrlə yıxılıb təkrar-təkrar inşa edilməsi lazımdır. Burada bəhs etdiyimiz kütlələrin səhvi, İncildə keçən və qədər daxilində onsuz da reallaşacaq, hətta bir çoxu reallaşmış olan bu Axırzaman əlamətlərini öz əlləriylə meydana gətirməyə çalışmalarıdır. Necə ki, koalisiya qüvvələrinin, Kobanidəki İŞİD işğalına tərəddüdsüz və dərhal müdaxilə edərkən, 4-cü ilini bitirən və sanki bir faciəyə çevrilən Suriyanın daxili müharibəsinə heç səs çıxarmamaları bu səbəbdəndir.

Qərbə görə, sabitlik göstərib özbaşına müstəqillik alması və güclənməsi gözlənilən kürd bölgələri, gözlənilməz İŞİD-in hücumu nəticəsində ciddi yara almışdır. Əlbəttə kürd bölgələrinin belə bir vəziyyətə düşməsi istədiyimiz bir şey deyil. Burada bu mövzunun xüsusilə ifadə olunmasının səbəbi, 100 ildir inkişaf etdirilən və tətbiq edilən planın, gözlənilməz bir şəkildə iflasa uğramasıdır. Xüsusilə bir qisim Neoconların bu mövzuda çaxnaşmaya düşmələri, bu mənada qiymətləndirilməlidir.

Bu arada İŞİD-in həqiqətdə, İslami qaynaqlara baxıldığında "gözlənilən" bir Axırzaman əlaməti olduğu həqiqəti qarşımıza çıxır. Axırzamanda hz. Mehdi (ə.s)-ın çıxışı üçün reallaşacaq olan "doğum sancılarından" biri də budur. Hz. Mehdi (ə.s)-ın zühurundan əvvəl, dünyaya fəlakət üzərinə fəlakət yağacaq, çətinliklər ard-arda gələcək, insanlar maddi və mənəvi olaraq qorxunc bir çöküşə sürüklənəcək. Məhz bu əlamətlərin bəlkə də ən diqqət çəkənlərindən biri olan İŞİD, bütün təfərrüatları ilə hədislərdə təsvir edilmişdir. Bu tərifə görə, Yaxın Şərqdə "yenilə bilməyəcək" bir güc olaraq ortaya çıxacaq və ancaq və ancaq hz. Mehdi (ə.s)-ın zühurundan sonra ona tabe olaraq, hz. Mehdi (ə.s)-ın sözü ilə şiddətə son verəcək.

# PEYĞƏMBƏRİMİZ (S.Ə.V), BU GÜN İRAQDA YAŞANAN HADİSƏLƏRİ VƏ və İŞİD-İ 1400 İL ƏVVƏL XƏBƏR VERMİŞDİR

## 1. ŞƏRQ TƏRƏFİNDƏN QARA BAYRAQLILAR ÇIXACAQ

Xorasanda **(Şərqdə) QARA BAYRAQLILAR ZÜHUR ETDİYİNDƏ ...** (Gaybet-i Numani, sf. 228)

## 2. YENƏ ŞƏRQDƏ BU DƏFƏ DAHA KİÇİK QARA BAYRAQLI BİR QRUP ÇIXACAQ

... Onlar bir müddət davam etdikdən sonra, **YENƏ ŞƏRQDƏ BU DƏFƏ KİÇİK QARA BAYRAQLILAR ÇIXAR ...** (Celâleddin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zamân Mehdisinin Alametleri, s.61, hədis no. 7.77)

## 3. QARA BAYRAQLILARIN ORTAYA ÇIXIŞINDAN ƏVVƏL SURİYADA QARŞIDURMALAR OLACAQ

Üç əlamətdən sonra imam qaim (Mehdi ə.s)-ın çıxışını gözləyin.

Özündən soruşdular: "Bu əlamətlər hansılardır?"

**SURİYALILARIN QARŞILIQLI ANLAŞILMAZLIQLAR,** Xorasandan qara bayraqlıların çıxması və Ramazan ayında qorxu. (Bihârü'l-Envâr, 14)

## 4. QARA BAYRAQLILAR SURİYADA OLACAQLAR

... Və yenə ŞAMDAN (SURİYADAN) **KİÇİK QARA BAYRAQLI BİR ADAM** görüldüyündə ... (Celâleddin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zamân Mehdisinin Alametleri, s.61, hədis no: 7.8)

... (Mehdinin çıxışının) digər bir əlaməti də, **QARA BAYRAQLI ORDUNUN ƏSGƏRLƏRİNİN, ATLARINI ŞAMDAKI ZEYTUN AĞACLARINA BAĞLAMALARIDIR...** (El-Kavlu'l Muhtasar Fi Alamet-İl Mehdiyy-İl Muntazar, s. 23)

## 5. ƏSƏD İLƏ DÖYÜŞƏCƏKLƏR

... **ƏBU SÜFYANIN SOYUNDAN BİR ADAMLA (BƏŞƏR ƏSƏD İLƏ) VURUŞARLAR ...** (El-Kavlu'l Muhtasar Fi Alamet-İl Mehdiyy-İl Muntazar, s. 29)

## 6. SURİYADAN SONRA İRAQA YÖNƏLƏCƏKLƏR

**BENİ ABBASA AİD (İRAQ) QARA BAYRAQLAR ÇIXAR ...** (Nuaym bin Hammad, Kitab al-fiten)

(Qara Bayrarlılar) **FIRAT SAHİLLƏRİNDƏKİ ŞƏHƏRLƏRİNDƏ, QURUDA VƏ DƏNİZDƏ ONLARI (ÖZLƏRİNƏ QARŞI ÇIXANLARI)** öldürəcəklər. (Gaybet-i Numani, sf. 327)

## 7. ÇOX SÜRƏTLİ NƏTİCƏLƏR ALACAQLAR

Onlar o vəziyyətdə ikən Xorasan tərəflərindən bayraqlar gələcək, **ONLAR SÜRƏTLƏ HƏRƏKƏT EDƏCƏKLƏR.** (Gaybet-i Numani, sf. 327)

Oradan bir ordu ilə geri dönüb Kufəni və Bəsrəni **BİR GECƏDƏ ƏLİNƏ** keçirəcək ... (Kitab El Haft El Şerif, s.174)

## 8. GİRDİKLƏRİ ŞƏHƏRLƏR SANKİ ÖZLƏRİNƏ TƏQDİM EDİLƏCƏKDİR

Özlərinə bu verilmədiyində döyüşərək qələbə qazanacaq və **İSTƏDİKLƏRİ ÖZLƏRİNƏ TƏQDİM EDİLƏCƏK.** (Meclisî, Bihârü'l-Envâr, c.51, s.87)

## 9. SAÇLARI VƏ SAQQALLARI UZUN OLACAQ

Onun (qara bayraqlıların komandiri) ƏSGƏRLƏRİNİN **SAÇLARI VƏ SAQQALLARI ÇOX UZUN OLACAQ,** paltarları qaradır və ONLAR QARA BAYRAQLARIN ADAMIDIRLAR. (Gaybeti Numanı, sf. 303)

## 10. TOPLU QƏTLİAMLAR TÖRƏDƏCƏKLƏR

Allah daş ürəkli və soyu bəlli olmayan birini göndərəcək və zəfərlər onunla olacaq ... **ONLARI (özlərinə qarşı gələnləri) HEÇ BİR FƏRQ QOYMADAN TOPLU ŞƏKİLDƏ ÖLDÜRƏCƏKLƏR**. (Gaybeti Numanı, sf. 303)

## 11. KUFƏYƏ DOĞRU İRƏLİLƏYƏCƏKLƏR

Xorasandan çıxan qara **BAYRAQLILAR KUFƏYƏ ENƏR ...** (Celâleddin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zamân Mehdisinin Alametleri, s.61, hədis no: 7.12)

## 12. ŞİDDƏT VƏ QARŞIDURMALARIN ARTMASI SƏBƏBİYLƏ İNSANLAR MEHDİNİ ARZU EDƏCƏK HALA GƏLƏCƏKLƏR

Böyük bir döyüş olar. Nəticədə qara bayraqlılar qalib gələr. Süfyani qüvvələri qaçar. **MƏHZ O ZAMAN İNSANLAR MEHDİNİ ARZU EDƏCƏK VƏ AXTARACAQLAR.** (Celâleddin Suyuti'nin Tasnifinden Hadisler, Ahir Zamân Mehdisinin Alametleri, s.61, hədis no: 7.26)

13. QARA BAYRAQLILAR SONDA MEHDİYƏ TABE OLACAQLAR

VƏ MEHDİNİN İTAƏTİNƏ GİRƏCƏKLƏR. (İmam-ı Suyuti)

Lakin bunu qəbul etməyib **ƏHLİ-BEYTİMDƏN (MƏNİM SOYUMDAN) OLAN MEHDİ (Ə.S)-A VERƏCƏKLƏR ...** (Meclisî, Bihârü'l-envâr, c.51, s.87)

14. MEHDİ DÖVRÜNDƏ MÜHARİBƏLƏR TAMAMİLƏ SONA ÇATAR VƏ TƏK DAMLA QAN BELƏ AXMAZ

Mehdinin ən əhəmiyyətli xüsusiyyətlərindən biri əsla qan tökməməsidir. Qan axıdan, döyüşən, zülm edən Mehdi deyil. Bu tip saxta Mehdilər məğlubiyyətə məhkumdur.

(Mehdinin) Ədaləti o cür olar ki, **YUXUDA OLAN BİR KİMSƏ BELƏ OYANDIRILMAZ VƏ BİR DAMLA QAN BELƏ** axıdılmaz. (Meclisî, Bihârü'l-envâr, c.51, s.87)

**HƏRB (ƏRBABI) AĞIRLIQLARINI (YƏNİ SİLAH VƏ S.) BURAXAR**. Heç bir kimsə arasında düşmənçilik qalmayacaq. Və bütün düşmənçiliklər, boğuşmalar, həsədləşmələr şübhəsiz yox olub gedəcək. (İmam Şarani, Ölüm-KıyametAhiret ve Ahir Zaman Alametleri, s. 496)

# PYD HAQQINDA FƏRZİYYƏLƏR

Kobani qoruyuculuğu mövzusunda ən diqqət çəkən ünsür isə Suriya Kürd bölgəsinin rəhbərliyini əlində saxlayan PYD (Partiya Yekitiya Demokrat) haqqında edilən fərziyyələr olmuşdur. Xüsusilə Qərb mediası və bir qisim Neocon yazarlar tərəfindən edilən bu istiqamətləndirmə, bəzən qəsdlidir, bəzən də məlumatsızlıqdan irəli gəlir. Bu səbəbdən, bu mövzuda çox az insanın bildiyi bəzi ünsürlər açıqlanmalıdır.

PYD, 2003-cü ildə qurulan və PKK-nın davamı olan bir təşkilatdır. Öcalan və digər PKK liderlərinin 1998-ci ildə Türkiyənin təzyiqi ilə, Suriyanı tərk etmək məcburiyyətində qalmalarından sonra geridə qalan PKK-lılar tərəfindən qurulmuşdur. YPG, PYD-nin silahlı qoludur. PYD, hər nə qədər bu günlərdə eynilə PKK kimi imperializm maskası taxmış olsa da, yenə eynilə PKK kimi leninist və kommunistdir. Hər iki qrupun da lideri Abdullah Öcalandır. Rəsmi tanıtımlarında, PKK-ya bağlı bir təşkilat olaraq qurulduqları, Öcalanı ideoloji liderləri olaraq qəbul etdikləri və Kongra-Geli (PKK-nın siyasi quruluşu) "kürd xalqının ən yüksək qanunvericilik orqanı olaraq gördükləri" ifadə edilir. Necə ki, KCK istintaqı daxilində (PKK-nın şəhər quruluşu olaraq adlandırılan KCK, əslində PKK-nın guya dövlət quruculuğudur. Bu quruculuqla əlaqədar olaraq 2009-cu il aprel tarixində Türkiyədə istintaq başladılmışdır. (Kitabın sonrakı səhifələrində KCK ilə əlaqədar təfərrüatlar ifadə edilmişdir) 2012-ci ildə hazırlanan ikinci iddianamədə PYD ilə əlaqədar məlumatlara da yer verilmişdir. İddianamədə, Öcalanın 2011-ci il aprel ayında vəkilləri vasitəsilə Bəşər Əsədə əməkdaşlıq məktubu göndərdiyi, məktubda PYD-yə ölkənin şimalında təmin ediləcək inzibati səlahiyyətlər qarşılığında təşkilatın rejimi dəstəkləyəcəyinin ifadə edildiyi qeyd edilir. (62)

Yenə 2014-ci ilin oktyabr ayında, Mardin 2-ci Ağır Cəza Məhkəməsi, Türkiyəyə gətirilən bir Rojavalı üçün YPG-li olduğu iddiasıyla "terror təşkilatına" üzv olmaq günahından həbs cəzası vermişdir. Məhkəmənin bu qərarı "terror təşkilatı" siyahısında yer almayan PYD və YPG, rəsmi olaraq "terror təşkilatı" olaraq qəbul edilmişdir.

Necə ki, PYD həmsədri Saleh Müslim verdiyi konfransları Öcalan şəkilləri altında reallaşdırır, digər həmsədri Asiya Abdullah təşkilatı birbaşa Kandildən idarə edir, YPG militanları ciblərində və evlərində Öcalanın şəklini daşıyırlar.

Bu mövzuda təqaüdçü general Armağan Kuloğlunun şərhləri isə bu şəkildədir:

*YPG başlı başına terror təşkilatı olaraq qurulmuş bir terror təşkilatı deyil. PKK-nın Suriyanın şimalındakı bir davamı. Suriyanın şimalındakı hadisələr baş qaldırınca, şimalda bir Kürd formalaşması ortaya çıxdı. YPG də o bölgənin idarəsini təmin edən, oradakı xalqı idarə edən bir təşkilat olaraq PKK tərəfindən quruldu. PKK-nın davamı, onun idarəsində olan bir təşkilatdır. PKK bir terror təşkilatı olduğuna görə, YPG də bir terror təşkilatıdır.(63)*

İraq Kürdüstan Muxtar Bölgəsinin lideri Məsud Bərzani, PYD-nin, Suriya rəhbərliyiylə əməkdaşlıq içərisində Rojavaya silah gücü ilə əl qoymaqla günahlandırır və PYD-nin antidemokratik tətbiqlərini davamlı olaraq dilə gətirir. Bərzani,

"Hər keçən gün naməlum bəzi bəhanələrlə silahlanırlar ... Sərbəst seçkilər olmadıqca heç bir qrupun özünü başqalarına həvalə etmə haqqı yoxdur. Suriya kürdlərinin həqiqi nümayəndəsi yalnız Yüksək Kürd Şurasıdır"(64) desə də PKK bu sözlərə heç əhəmiyyət vermir. Bərzaninin, "PYD, bizim meydana gətirməyə çalışdığımız ittifaqı pozdu və bölgədə yalnız özünün istədiyi bir siyasət yürütməyə başladı. PYD, Suriya Kürdüstan Demokrat Partiyasının rəhbərləri və üzvlərinə yönəlmiş nəzarət, həbs, deportasiya etmə və hücum siyasətlərinə ara vermədən davam etdi və bunu getdikcə genişləndirir. PYD-nin, bu birtərəfli və qanuni olmayan siyasəti səbəbiylə bölgədə demokratik bir sistem qurula bilmədi. Rojavadaki vəziyyət, rejimin nəzarəti altındakılardan daha pis hala gəldi. Siyasi azadlığın olmadığı Rojavada tələblər şiddətlə susdurulur, Rojava xalqı diktator üsulu ilə idarə olunmağa çalışılır" (65) təsbitləri olduqca əhəmiyyətli və doğrudur.

Peşmərgə komandiri mayor Məhəmməd Həsənin, PYD-nin, nəzarət etdiyi sərhəd bölgəsini ticari bir yola çevirdiyini, sərhədi keçən kəslərdən gömrük vergisi adı altında pul aldığını ifadə etməsi, PKK, PYD-nin kürdlərə həyatı necə zindan etdiyini göstərən əhəmiyyətli bir xüsusdur.

Maraqlıdır ki, günümüzə qədər demək olar bütün siyasətçilərin bildiyi bir həqiqət olan və PYD-nin özü tərəfindən açıq şəkildə ifadə edilən PKK-PYD əlaqəsi bu gün hər hansı səbəbdənsə bir qisim insanlar və ölkələr tərəfindən inkar edilir.

Qərbdə bir çox siyasətçi və yazarın, Suriyadakı PYD həqiqətindən xəbərsiz olduqları da açıq şəkildə görülür. Onlara görə Türkiyənin Cənub-Şərqində və Suriyanın şimalında kürd etnik mənşəyində insanlar vardır və bu insanlar yalnız azadlıq mübarizəsi aparırlar. Məhz bu məlumatsızlığa görə, bu "azadlıq döyüşçülərinin" Türkiyə tərəfindən nə səbəbə reaksiyayla qarşılandığı, Kobani hərəkatları əsnasında nə səbəbə Türkiyənin o bölgədə "Kürd döyüşçüləri" olaraq göstərilən terroristlərə dəstək vermədiyi aydın olur. Var gücü ilə Türk hökumətinə istiqamətli "etnik ayrıseçkilik" böhtanı atırlar. İşin maraqlı tərəfi, Türkiyədəki siyasətçi və yazarlar arasında belə bunu edənlər var.

İşin əsli isə budur: Kobaninin İŞİD-ə qarşı savaşanlar "Kürd döyüşçülər" deyil, PKK-nın davamı olan terrorist bir qrupdur. PKK, təxminən 40 ildir Türkiyədə separatçılıq təbliğatı etmiş, xaincə arxadan hücumlar etmiş, xüsusilə "kürd vətəndaşlarımıza" dəhşət yaşatmış və on minlərlə əsgərimizi şəhid etmiş alçaq bir terror təşkilatıdır. Belə bir terror təşkilatına Kobanidə Türkiyənin kömək etməsini istəmək, fövqəladə dərəcədə bir şüur qapanması və ya pis niyyət tələb edir. Türk hökuməti, özünü illərdir arxadan vuran, ölkəsini bölməyə çalışan, xain və alçaq bir terror təşkilatına əlbəttə ki, kömək etməyəcək. Türkiyə oradakı məzlum xalqı onsuz da himayəsinə almışdır. Kobanidə İŞİD ilə döyüşənlər isə, Türk xalqının otuz ildən çox düşməni olan birliyin özüdür.

Şübhəsiz Türkiyəni ayrıseçkilik etməklə günahlandıranlar yalnız bu mövzuda məlumatsız olan kəslər deyil. PYD-nin həqiqi mahiyyətini çox yaxşı bilməsinə baxmayaraq, o bölgədə bir Kürd dövlətinin meydana gəlməsi üçün əlindən gələni etməyə hazır bir qisim kəşfiyyatçılar, siyasətçilər və yazarlar; buradakı vəziyyəti öz lehlərinə istifadə etməyin təlaşı içindədirlər. Necə ki, bunu edə bilmək üçün demək olar ki, bütün ana axın media istifadə edilmiş, avropalı və amerikalı siyasətçilərdən Türk hökumətinə istiqamətli bu mövzuda ciddi tənqidlər şüursuzca yönəldilmişdir. Dəfələrlə Türkiyənin nə səbəbə YPG-li terroristlərə kömək etmədiyi hesaba çəkilmiş və Türkiyə bu dövrdə sanki beynəlxalq bir diktatorluq tərəfindən təzyiq altına salınmışdır. Türkiyə hal-hazırda, dünya tarixində, "illərdir vətəndaşını öldürmüş əli qanlı terroristlərə nə səbəbə kömək etmirsən" deyə hesaba çəkilən, bəlkə də tək ölkə mövqeyindədir. Bu heyrətamiz dərəcədə qəribə vəziyyət nədənsə kimsə tərəfindən ciddi mənada dilə gətirilməmiş, Türkiyə, xüsusilə beynəlxalq media diktatorluğu tərəfindən mahir bir şəkildə planlaşdırılan və tətbiq olunan qaralama kampaniyasının hədəfi olmuşdur.

Onu da qeyd edək; PKK, Türkiyənin cənub-şərqində illərdir xüsusilə kürd qardaşlarımızı təzyiq altına almışdır və qətl olunan insanların böyük əksəriyyəti kürddür. Oxşar vəziyyət Suriyanın şimalındakı Rojova bölgəsi üçün də keçərlidir. Buradakı kürd qardaşlarımız, PKK-nın davamı olan PYD-nin dəhşətli təzyiqi altında illərdir əzilir.

## Suriyada kürdlərə PYD təzyiqi

Suriyada vətəndaş müharibəsinin ilk başladığı illərdə, Rojova bölgəsindən Türkiyəyə çatan ilk kürd qaçqınlar, Cəzirə kantonundan gəlmişdilər. Bu qardaşlarımız açıq bir şəkildə, Əsədin zülmündən deyil, PYD-nin zülmündən qaçdıqlarını ifadə etmişlər. Necə ki, PYD, yuxarıda bəhsini etdiyimiz Öcalanın Bəşər Əsədlə ittifaq öhdəliyinə müvafiq olaraq Suriyada Əsəd ilə əməkdaşlıq içindədir. Bu səbəblə, bəhsi keçən bölgələrə o dövrdə Əsədin heç bir hücumu olmamışdır. Sonrasında da ölkədəki qarışıqlığı fürsət bilənlər, illərdir məruz qaldıqları PYD zülmündən qaça bilmək üçün bu fürsəti dəyərləndirmiş və Türkiyəyə sığınmışdır. Bu səbəbdən PYD, beynəlxalq ictimaiyyətə vermək istədiyi görünüşün tamamilə əksinə, eynilə PKK kimi, öz xalqına zülm edən və öz suverenliyi altındakı torpaqlarda leninist bir sistem qurmuş olan olduqca təhlükəli kommunist bir terror təşkilatıdır.

Suriyadakı Kürd bölgəsi olan Rojavada dindar kürd xalqı adına danışan Suriya Kürd İslam Cəbhəsi (Cephetül İslami Kurdi) lideri Əbu Abdullahın, "*Əsəd zindanlarından çıxdıq, PYD zindanlarına girdik, ikisi bizim üçün eynidir" (66)* sözləri olduqca böyük əhəmiyyət kəsb edir.

Necə ki, Kobanidə yaşananların ardından dindar kürdlər, PKK-nı əsla təsdiq etmədiklərinə dair çıxarmış olduqları mətbuat bülletenində belə söyləmişlər: *"Heç şübhə yoxdur ki; müsəlmanların Kobaninin dovşan kimi qaçan bu qorxaq dəstələrə (PKK-lılara) cavab verəcək qüvvət və qüdrəti vardır."*

Görülə biləcəyi kimi, Suriya kürd bölgəsi olan Rojovadakı kürd xalqı, idarəni əlində tutan PYD-ni bir bəla kimi görür və PYD-nin təzyiqindən xilas olmaq istəyir. Oxşar vəziyyətin Türkiyə üçün də keçərli olduğunu, Türkiyədəki kürdlərlə PKK-nın heç bir zaman eyni qəbul edilə bilməyəcəyini, Türkiyədəki kürdlərin də daim PKK-nın hədəflərindən biri olduğunu burada təkrar xatırlatmaq lazımdır.

Suriya kürd bölgəsindəki bəhsi keçən vəziyyəti sübut etmək üçün İnsan Haqları İzləmə Təşkilatının (HRW Human Rights Watch) 2014-cü il tarixli 108 səhifəlik hesabatı da böyük əhəmiyyət kəsb edir. Suriyada Kobani və Cəzirə kantonlarındakı vəziyyətin araşdırıldığı bu hesabata görə, bölgəyə hakim PYD gücləri, istədiyi kimi həbslər, qanuni hüquqların pozulması, bilinməyən məchul ölümlər və qaçırılmalarla əlaqədar məsul tutulur. Ehtiyatlı və yumşaq bir üsulla hazırlanmağa çalışılmasına baxmayaraq, hesabatdan olduqca ürküdücü bir mənzərə çıxır. İşgəncə problemi, insan haqq və azadlıqlarının məhdudlaşdırılması, ədalət sisteminin işləməməsi demək olar ki, hər sətirdə ön plandadır.

Həbsxanalardakı bir qisim günahkarlarla görüşən İnsan Haqları İzləmə Təşkilatı nümayəndələri, buradakı məhkumların hər hansı bir həbs əmri olmadan tutulduqlarını, vəkilləriylə görüşdürülmələrinin əngəlləndiyini və məhkəmə önünə çıxarılmadıqlarını ifadə etmişlər. Məhkumlar, həbsxanada həmişə səlahiyyətlilər tərəfindən təzyiqlərə məruz qalırlar. Həbslərin ümumiyyətlə yalnız böhtanlara əsaslandığı, etirafların isə işgəncə altında alındığı aydın olur. Müxalif olan hər səs, demək olar ki, susdurulmağa çalışılmışdır. Həbsxanada şübhəli ölüm hadisələri isə dəhşət çoxdur.

Hesabatda həmçinin uşaqların əllərinə silah verilib militan olaraq istifadə edildikləri ifadə edilmiş, ictimai hadisələrin daim qanlı şəkildə yatırıldığına diqqət çəkilmiş və bütün bunlarla yanaşı onlarla insan hüquqları pozuntusu sayılmışdır. Bəhs etdiyimiz qiymətləndirmədə, PYD-nin birbaşa Türkiyədəki PKK terror təşkilatının bir hissəsi olduğu açıq şəkildə vurğulanır, Suriya hökumətinin daxili qarışıqlıqlar səbəbiylə bölgədən çəkildiyi 2012-ci il tarixindən bəri bu təşkilatın yerli bir məhkəmə, həbsxana və polis ilə kefi istədiyi tətbiqlər etdiyi bildirilir. Həmin tətbiqlərin narahatlıq verici olduğu vurğulanır.(68)

Necə ki, Kobani hücumlarından sonra, Türkiyənin xəbərdarlıqlarını heç bir şəkildə nəzərə almayan bir qisim qərb mediası, bölgəni yaxından tanıdıqdan sonra ifadələrini dəyişdirmək məcburiyyətində qalmışdır. Daily Beastde Jamie Dettmer, Suriyada kürd bölgəsi rəhbərliyini, *"PKK-nın Suriya qanadını təşkil edən despot PYD"* olaraq adlandırmış və evlərinə geri dönmək istəyən bir qisim kəslərə PYD tərəfindən icazə verilmədiyinə diqqət çəkmişdir. Əli adlı təqaüdçü bir kürd kəndlisinin danışıqları isə yazıda bu şəkildə ifadə etmişdir: *"Döyüşçülər (YPG) istədiklərini edirlər və heç kim onlara qarışa bilmir. Əgər sizə bir şey etmənizi və ya etməmənizi əmr edərlərsə, onlara xeyr deyə bilməz və ya bunun doğru olmadığını söyləyə bilməzsiniz."* (69) Necə ki, Dettmerin görüşdüyü bölgə xalqının ifadələrinə görə, mühasirədən sonra Kobaniyə geri dönmək istəyən bir çox adamın girişinə icazə verilməmiş, YPG militanları tərəfindən bu insanların mallarına əl

qoyulmuş və bu kəslər bütün varlıqları əllərindən alınaraq köç etməyə məcbur edilmişlər. (70)

Bu despot yanaşma yazıda bu dəlillərlə təsvir edilmişdir:

*Kobanili kürdlər PYD-nin xalqın içində tənqid mövzusunda çox diqqətlidirlər; qisas alınmasından çox qorxurlar. Təşkilatı tənqid edənlərin heç biri ailə adlarının açılmasını istəmir. Partiya (PYD), həyatı müxaliflərə olduqca çətin hala gətirir.*

Oxşar yazıda, Qərbdən bəzi seqmentlərin baxış bucağı ilə Dettmerin gördükləri arasındakı fərqlilik də əhatəli olaraq dilə gətirilmiş və Kobani bölgəsinin PKK terror təşkilatının himayəsində olduğunun dəlilləri verilmişdir:

*Kobanidəki döyüşçülərin böyük əksəriyyəti suriyalı kürdlər deyil; ABŞ və Avropa Birliyi tərəfindən terror təşkilatı kimi tanınan PKK üzvləridir. ... Kobanidə atəş əmri verən komandirlər, mühasirə zamanı qadın döyüşçülərin rolunu dünyaya tanıtmaq üçün müsahibə götürən qərb mediaya göstərildiyi kimi yerli regional liderlər filan deyildirlər. Bunlar, əslində, yerli xalqın Kandil kürdləri dediyi kəslərdən meydana gəlir. Kandil, Şimali İraqda olan Türkiyədən də 30 kilometrlik bir sahədən içəri girən, separatçı hərəkatın hərbi təhsil düşərgələri də daxil olan PKK-nın dağdakı sığınacağına işarə edir. (71)*

Adını vermək istəməyən bir YPG militanının isə bu mövzudakı etirafları bu şəkildədir:

*Mühasirə zamanı da baş komandirlərdən yalnız 5-i kobaniliydi; 15-i isə Kandil komandirlərindən ibarət idi.(72)*

Bəhsi keçən müşahidələrin ardından Dettmer, sərhədə yığılmış türk tanklarının varlığına olduqca haqq vermiş olduğu görünür.

Kobani bölgəsində olduğu kimi, PYD, Tel Abyad kimi ətraf türkmən və ərəb bölgələrinə də İŞİD təhlükəsini bəhanə edərək koalisiya güclərinin dövrəyə girməsini istəmişdir. Məqsəd, bu bombardmandan istifadə edərək Türkiyə sərhədindəki türkmən bölgələrini ələ keçirib, uzun bir sərhəd xətti əldə etməkdir. ABŞ və digər koalisiya ortaqları isə İŞİD ilə mübarizə adı altında PKK terror təşkilatına açıq şəkildə kömək etmişlər. Halbuki, o bölgədən qaçıb yenə Türkiyəyə sığınan bölgə xalqı, İŞİD-in deyil YPG-nin zülmündən qaçmaqda olduqlarını açıq bir şəkildə ifadə etmişlər. ABŞ və digər koalisiya güclərinin bunu fərq edə bilməməsi və ya görməzlikdən gəlməsi, ciddi və olduqca təhlükəli nəticələrə səbəb olacaq.

Bütün bunlardan yola çıxaraq orada yaşayan kürd xalqının, PYD-nin zülmündən qaçıb 2011-ci ildən etibarən Türkiyəyə sığınmalarını çox yaxşı qiymətləndirmək lazımdır. Oradakı çarəsiz xalq, uzun zamandır, bu bölgədə hakimiyyətini elan etmiş bir leninist terror təşkilatından xilas olmağa çalışır. Bunun üçün Türkiyəni seçmələri, Türkiyədə etibarda olacaqlarını bilmələri, bu vəziyyəti təhrif edən, ya da tam anlamayan qərbə əhəmiyyətli bir işarə olmalıdır. Türkiyə, özünə sığınan hər kəsə böyük bir qürur duyaraq və sevgiylə sahib çıxdığı kimi kürd qardaşlarımıza də ən mükəmməl şəkildə sahib

çıxmışdır və onların təhlükəsizlik içində yaşamalarını təmin etmişdir. Necə ki, Kobanidən Türkiyəyə sığınan kürd qardaşlarımız, sərhədi keçər-keçməz özlərinə köməyə gələn türk əsgərinin boynuna sarılmış, sevgiylə etibarlı torpaqlara gəlmənin xoşbəxtliyini yaşamışlar. Türk əsgərini öz dostları, qohumları, oğulları kimi gördükləri başa düşülür.

Suriya sərhədindən keçən 2 milyondan çox qaçqının bütün ehtiyacını boynuna götürən Türkiyə, bu qaçqınların böyük bir qismini 22 ayrı düşərgəyə yerləşdirdikdən sonra, xüsusilə Kobanidən gələn zərər çəkmiş kürd qardaşlarımız üçün dünyanın ən böyük qaçqın düşərgəsini inşa etmişdir. 35 min nəfərlik tutuma sahib olan Suruçdakı bəhsi keçən qaçqın düşərgəsi məktəbə, xəstəxanaya, 100 ayrı camaşırxana və istirahət bölməsinə malikdir. Düşərgə eyni zamanda öz bünyəsində bir su şəbəkəsinə sahib olub, bu su həm orada yaşayanların ehtiyaclarını qarşılayacaq, həm də ətrafdakı kənd təsərrüfatı sahələrində istifadə edilə biləcək böyüklükdədir. Buraya yerləşdirilən kürd qardaşlarımızın sağlamlıqlarından ehtiyaclarına, təhsillərində istirahət və iş imkanlarına qədər hər cür təfərrüat düşünülmüş və böyük bir fəaliyyət aparılmışdır. Haqqında bəhs etdiyimiz düşərgə; BMT, Qərb siyasətçiləri, insan hüquqları nümayəndələri və media tərəfindən də təqdirlə qarşılanmışdır.

## Bir qisim qərblilərin PKK lehinə hərəkət etmələrinin əsil səbəbi

Hökumətin yaxşı niyyətli olaraq başlatdığı həll prosesinin ilk anından etibarən, separatçılıq və şiddət istəyən stalinist bir terror təşkilatının əsla silah buraxmayacağı, güclənmək üçün fürsət gözlədiyi və hiyləgər bir üsulla Türkiyənin Cənub Şərqini ələ keçirməyə meyil etməsi həmişə xatırlatdığımız mövzular olmuşdur. Necə ki, qarşıdurmaların təkrar başladığı bu günlər, PKK-nın həqiqətən də bu qarşıdurma mühitini özü üçün gizlidən işğal siyasətinə çevirmiş olduğunu göstərmişdir. Bu mövzuda alınmalı olan tədbirlər təcili və zəruridir. Bəhsi keçən tədbirlər kitabın sonrakı hissələrində geniş açıqlanmışdır.

Burada üzərində dayanmaq istədiyimiz xüsus, həll prosesinin başlanğıcından etibarən qərbdən bəzi kəslərin bu prosesə yanaşmasıdır. Şübhəsiz ölkələr içində sülhün reallaşması bütün dünya üçün xoş qarşılanacaq bir vəziyyətdir və ölkəmizdə haqqında bəhs etdiyimiz dövr içində silahların susmasının qərb ölkələri tərəfindən təqdirlə və təriflə qarşılanmasında da qəribə olan bir vəziyyət yoxdur. Qəribə olan qisim, qərb dövlətlərdən bir qisim spikerlərin Türkiyəyə maraqlı təkliflər etmələridir. Hər nə hikmətsə, bu təkliflərin hamısı PKK-nın lehinə olan və onların istəkləri çərçivəsində formalaşdırılmış təkliflərdir. Bu təkliflərin heç bir qismində Türkiyə Respublikasının bölünməz ərazi bütövlüyünü qoruyucu və Türkiyəni PKK qarşısında gücləndirən istiqamətləndirmə yoxdur. Bunun bəlkə də ən əhəmiyyətli səbəbi, PKK yolu ilə reallaşacaq olanların, əslində qərbin öz hədəflərini təmsil etməsidir.

Bu mövzuda veriləcək ən əhəmiyyətli nümunələrdən biri, ABŞ Xarici İşlər Nazirliyində uzun müddətdir müşavirlik edən Neocon David Phillipsin şərhləridir. Phillipsin 2007-ci ildə Türkiyəyə istiqamətli təklifləri diqqət çəkicidir. Bu təkliflərin əvvəlində, PKK ilə sülh prosesi olduğu təqdirdə təşkilat üzvləri üçün əfv elan edilməsi şərtindən bəhs edilir. İkinci təməl təklif isə mülki konstitusiyanın dərhal qüvvəyə qoyulmasıdır. Bunun mənası isə, yerli rəhbərliklərə əhəmiyyətli hüquqlar verilməsi deməkdir ki, bölünmə üçün təməl ünsür bu olacaq.

ABŞ-ın Türkiyədəki keçmiş səfiri Ross Uilsonun 2009 13-15 aprel tarixində etdiyi şərhlər isə yenə eyni başlıqları ehtiva edir. Ən əhəmiyyətli şərt, PKK-lıların mütləq sərbəst buraxılması və ikinci təməl şərt isə federalizmə yol açan yerli rəhbərliklərin gücləndirilməsi ünsürüdür.

Görülə biləcəyi kimi, ABŞ-dan bəzi adların Türkiyə üzərindəki təməl təzyiqi, PKK-nı bir sülh elçisi kimi göstərmək, Öcalanın mütləq sərbəst qalmasını təmin etmək və Türkiyənin bölünməsinin yolunu açmaqdır. İllər əvvəl hazırlanan və təklif olaraq təqdim edilən bu planlar isə bu gün açıq bir şəkildə müzakirə edilir.

Hədəf, PKK-ya federasiya verilərək, "Yaxın Şərqin yenidən dizayn edilməsi layihəsi" çərçivəsində PKK-nın bütün xalqların qəbul edəcəyi bir dövlət qurmasının qarşısını açmaq; bu yeni quruluş nəticəsində bölünən, Yaxın Şərqlə əlaqəsi kəsilən Türkiyənin gücünü zəiflətmək və etibarını zədələməkdir. Beləliklə, Qərb dərin dövlətləri baxımından, İslam Birliyi kimi bütünlüyün meydana gəlməsi də coğrafi və ideoloji mənada çətinləşəcək, Türkiyə ilə İslam ölkələri arasına İslam əleyhdarı kommunist-stalinist bir PKK dövləti sanki bir sədd olaraq çəkiləcək. Öz daxilində terror təşkilatına məğlub olan və bu səbəbdən İslam ölkələrinin problemlərinə həll tapmaqdan uzaq, güzəştə gedən bir Türkiyə görünüşü meydana gələcək.

PKK-ya muxtariyyət və ya federasiya verilməsi kimi bir vəziyyətin reallaşdırılması nəticəsində isə, Türkiyəni ən az 50 il məşğul olacağı və daha çox zəifləyəcəyi bir müddət gözləyəcək; mübadilə tələbləri, yeni torpaq tələbləri, yeni regional ayrılıq tələblərinin dilə gətirilməsi, fərqli dillərin də dövrəyə girməsiylə ölkə insanlarının ortaq dil, ortaq hədəf, ortaq ideallardan uzaqlaşdırılmasına səbəb olacaq. Parçalanıb bölünmüş gücsüz bir Türkiyə isə, qərbdə bir qisim dərin güclərə, 100 ildir əldə etmək istədikləri mənzərəni təqdim etmiş olacaq.

Bu məqsədlə bir qisim qərbli güclər, birbaşa muxtariyyət və ya federasiya kimi sözləri istifadə etməsələr də -ki, aralarında açıq şəkildə bunları da dilə gətirənlər də vardır- yerli rəhbərliklərə istiqamətli səlahiyyət genişləndirilməsi mövzusunda uzun zamandır Türkiyəyə istiqamətli təzyiq halındadırlar. Necə ki, Avropa Birliyinə uyğunlaşma qanunları daxilində bu imtiyazların bir qismi çoxdan təmin edilmişdir; bu mövzu sonrakı sətirlərdə əhatəli olaraq araşdırılmışdır.

Bu mövzuda müxtəlif düşüncə təşkilatları, diplomatlar və yazarlar tərəfindən Türkiyəyə istiqamətli təzyiqlər gözlə görünən ölçülərə çatmışdır. Türkiyə, vaxtaşırı Qərb

dərin dövləti spikerlərinin təyin etdiyi şərtləri yerinə yetirmədiyi təqdirdə, istəməsə də hər an özünü Yaxın Şərqdə bir döyüşün ortasında tapacağı təhdidiylə rastlaşır. NATO-nun köməyi olmadan raket və digər hava hücumları qarşısında zəif mövqedə olduğumuz hiss etdirilməyə çalışılır, hətta vaxtaşırı NATO-dan çıxarılmamıza istiqamətli təkliflər qəsdli olaraq gündəmə gətirilir. Türkiyənin qərb ölkələri nəzdində investisiya edilməyən, insan hüquqlarının pozulduğu, tək buraxılacaq bir ölkə olaraq göstəriləcəyi təhdidləri edilir.

Təkrar xatırladaq, PKK mövzusuna həll yolu tapmaq bizim də istədiyimiz bir şeydir. Lakin bu həll yolu, qərb dərin dövlətinin təzyiqlərinə əsaslanan, özü ilə kommunist bir dövlətin inşasını gətirəcək, Türkiyənin isə torpağından və şəxsiyyətindən güzəşt etdiyi bir həll yolu əsla olmayacaq. PKK-ya kökdən tək həll yolu, təşkilatı marksist ideologiyadan uzaqlaşdıracaq əhatəli bir təhsil səfərbərliyidir.

## Öcalana və PKK-lılara əfv gözlənilməsi acizlikdir

Qərb dərin dövlətlərindən bir qisim adların Türkiyəyə istiqamətli ən böyük təzyiqlərindən birinin, Öcalanın sərbəst buraxılması olduğundan bəhs etmişdik. Qərbin sanki yaltaqlığını etməklə vəzifəli bir qisim kəslər də bunu ölkəmizdə də dilə gətirməkdən çəkinmirlər. Bu heyrətamiz dərəcədə qəribə təklif, yavaş-yavaş ifadələr və şüuraltı təbliğatlarıyla məqbul hala gətirilməyə çalışılır, HDP-li bələdiyyə başçıları Öcalanı azad görmək istədiklərini açıq bir şəkildə dilə gətirir, şəhid analarının yaşadığı dəhşət, bu mövzunun dəstəkçilərini heç bir şəkildə maraqlandırmır. 40 min əsgərimizi şəhid edən qatillərin buraxılması üçün sanki pərdəarxası danışıqlar aparılır; hətta əfv edilmələri deyil, bunun azadlığa buraxılma şəklində olması istənilir. Türk millətinin qarşısında açıq şəkildə "onlar cinayət törətmədilər ki" deyilə bilinir. Ölkəmizdə bu cür böyük məntiqsiz fikirlərin danışılması, olduqca riskli bir nöqtədə olduğumuzu sərgiləyir. Bu səbəblə, belə bir əfv mövzusuna əsla icazə verməyəcəyimizi, xalqımızın da bunun qarşısında mütləq tək ürək olaraq bir arada dayanacağını israrla ifadə etməyimiz lazımdır.

Bu mövzuda həm Türkiyədə əfv dəstəkçilərinə, həm də xarici dərin dövlət nümayəndələrinə xatırlatmaq istədiyimiz nöqtələr vardır.

* Bilindiyi kimi, ölkəmizdə daha əvvəl bu məsələ ilə əlaqədar olaraq əfv sınanmış, ancaq tətbiqi həm terror, həm də cəmiyyət içindəki cinayət nisbətini daha da artırmışdır. Bülənt Ecevitin baş nazir olduğu dövrdə həyat yoldaşı Rahşan Ecevit tərəfindən hazırlanan əfv təklifi, 2000-ci ildə 4616 saylı şərtlə buraxılan Aktı adıyla Məclisdən keçmiş, 44 mindən adam bu əfvdən faydalanmışdır. Əfvdən sonra 3 il ərzində məhkum sayı 20 min artaraq 64 minə çıxmışdır. Rahşan Ecevit daha sonra, *"Mən əfvi fağırlar üçün istədim, qatillər faydalandı"* deyərək əfvin dəhşətli nəticələrini dilə gətirmişdir. “Rahşan əfvi”ndən sonra keçən 15 ildə isə cəza evlerindəki məhbus sayı 160 minə çatmışdır.

* ABŞ səfirliyinə bombalı hücum təşkil edən Ecevid Şanlı adlı DHKP-C-li terrorist sağlamlıq problemləri səbəbiylə Ahmet Necdet Sezer dövründə əfv edilən bir insandır.

Sezer dövründə əfv edilən 260 məhkumun 200-ü, DHKP-C, Dev-Sol, PKK, THKP/ML və TİKKO üzvü olmuşdur. Bu kəslər bir çox fəaliyyətlə yenidən ortaya çıxırlar. Polis hesabatlarına görə, Tuncelidə çıxan silahlı qarşıdurmada ölü olaraq ələ keçirilən Okan Ünsal, Berna Ünsal, Ökkeş Karaoğlu və Cemal Keser kimi DHKP-C militanları da Sezerin xüsusi əfvi nəticəsində azadlığa çıxan kəslərdir.

* 1 May 2003-cü il fəaliyyətlərində göstərilən Hüsamettiin Özdem, Keskin Hasan Bölücek, Abbas Alkan, Cihan Alkan, Enis Aras, Deniz Yıldız, Sakine Ögeyik, Gülten Özdemir, Özkan Güzel və Mehmet Leylek adlı terroristlər də eyni şəkildə əfvdən yararlanan kəslər idi. Son olaraq, prokuror Mehmet Selim Kirazın qətl edilməsi istiqamətində təlimat verən DHKP-C lideri Hüseyin Fevzi Tekin də 10-cu prezident Sezer dövründə bağışlanılmışdır.

* Digər tərəfdən, PKK-nın əfvi demək türk millətinin ləyaqətinin qırılması, şərəfinin və namusunun ayaqlar altına alınması deməkdir.

* On minlərlə şəhid, yüz minlərlə qazi ailəsi üçün, Mehmetcik, polis, mühafizəçi şəhid edən qatillərin bağışlanması dəhşət verici bir vəziyyətdir. Bu mühit bütün Türkiyədə bərpa edilməsi qeyri-mümkün yaraların açılmasına, acıların dözülməz hala gəlməsinə səbəb olacaq.

* Kommunist terrora verilən hər güzəşt, qarşısı alına bilməyən azğınlığa, itaətsizliyə, qanunsuzluğa yol açacaq.

* Qatillərin buraxılması demək, PKK-nın 40 ildir etdiyi bütün qanunsuzluqları qanuni hala gətirəcək, artıq ölkədə qanunlara hörmət, dövlətə hörmət əsla qalmayacaq, terror sanki qanuni hala gəlmiş olacaq.

* Müstəqil və PKK-ya bağlı bir Kürd dövləti qurula bilməsi üçün həm kürdləri bu quruluşu dəstəkləməyə məcbur edəcək, həm də bölgəni buna məcbur buraxacaq və cəmiyyəti tətikləyəcək bir sıra tədbirlərə ehtiyac var. Eyni zamanda Türkiyənin də gücünün, ləyaqətinin qırılmasına ehtiyac vardır. Öcalanı azadlığa buraxma planının bir səbəbi də budur. 40 min adamın qətliam əmrini verən birinin Türkiyə kimi güclü bir dövlət tərəfindən buraxılması və onlar ilə təmasda olması, o insanın sanki bütün kürdlərin lideri olaraq qəbul edilməsinə səbəb olacaq. Bu vəziyyətdə Öcalan da rahatlıqla bütün kürdlərin prezidenti olma xəyalına qapılacaq.

* Meydana gələcək bu siyasi-ictimai külək, bölgəyə yeni bir Səddam, Qəddafi, Ho Chi Minh, Stalin, Mao qazandırmış olacaq. Bu vəziyyətdə ağır silahlarla təchiz ediləcək, kəşfiyyat dəstəyi veriləcək PKK dövləti ilə bütün bölgə ölkələrini savaşdırmaq artıq uşaq oyuncağı halına gələcəkdir. Öcalan da özünə tapşırılan vəzifələri bilir, hansı qərb ölkəsinin arxasında necə dayanacağını görür, hətta hansı kommunist ölkələrin özünə necə hərbi yardım edəcəyinin hesabını aparır. Bu arada Öcalan, bu gücə çata bilmək üçün hər cür teatrı oynayacaq. Kommunistkən birdən imperialist kəsilən, 99-cu ildə tutulduğunda "Dövlətimin qulluğundayam" deyən, lakin sonra yüzlərlə PKK fəaliyyətini

istiqamətləndirən, 2004-cü ildə konfederalizm istədiyini kitablarıyla açıqlayan Öcalan, tarixin ən ibrətlə izlənilən oyunçularından biridir.

* "Qatillər çox insan qətl edincə, onlardan çəkinilir və əfv edilir" məntiqi bir dəfə cəmiyyətdə yayılarsa, bundan sonra pusquda gözləyən onlarla yeni terror təşkilatı Türkiyədə fəaliyyətlərə başlayacaq. İŞİD, Əl-Qaidə, Asala, DHKP-C kimi yüzlərlə terror təşkilatı "Çoxlu qətliam edək, dövlət bizimlə də təmas qurub masaya oturacaq. Bizə də güzəştə gedəcək. Qatillərimiz əvvəl-axır qəhrəman kimi buraxılacaq" düşüncəsinə qapılacaq. Bu, Türkiyənin yox olması deməkdir.

* Polis qatillərinin buraxılması, hələ polislik vəzifəsini icra edən 300 min polisimizin şövqünü qıracaqdır. Əsgər qatillərinin buraxılması, hazırda əsgər olan 700 min əsgərimizi psixoloji olaraq zəiflədəcəkdir. Bu kəslərin ailələri, yaxınları da düşünüldüyündə milyonlarla insan bu səhv nəticəsində vicdan cəhətdən böyük bir narahatlığa sürüklənəcəkdir.

* Öcalan və digər PKK qatilləri eyni zamanda 17 min kürdü də daxili edamla şəhid etmişdir. Bu qatillərin buraxılması, kürdlər arasında da dəhşətli psixoloji travmanın yaşanmasına səbəb olacaq. Özlərinin və ailələrinin qatilləri artıq yenə onlara təzyiq etmək üçün iş başında olacaq, dövlət də buna mane ola bilməyəcək. Bu şərəfli, qürurlu, vicdanlı kürdlər üçün sanki bir zülmdür.

* PKK-lıların şəhərlərə yayılması demək, PKK təbliğatının çoxalmasına, tək tərəfli təbliğatın böyüməsinə, marksist, leninist təzyiqin qat-qat artmasına səbəb olacaq.

* Öcalan, hal-hazırda yalnız Türkiyədə deyil, bir çox ölkədə ən çox düşməni olan insanlardan biridir. Həbsxanadan azad edilməsi vəziyyətində onu edam etmək üçün and içmiş olanların sayı çoxdur və bu kəslər əslində PKK-lıdırlar. Belə böyük bir risk qarşısında qoruna bilməsi olduqca çətindir. Öcalanın azad olunacağı vəziyyətində PKK içində qaçınılmaz olaraq liderlik mübarizəsi başlayacaq, hətta bəzi liderlər üçün Öcalan xain olaraq görüləcək və mütləq öldürülməsinə hökm veriləcək.

* Öcalan azadlığa buraxıldığı təqdirdə Bərzani və Talabani kimi kürd liderlərin lider olması çətin olacaq, Şimali İraqda çox partiyalı bir sistemin də varlığı ortadan qalxacaq. PKK orada da tək partiyalı kommunist diktaturasını asanlıqla tətbiq edəcəkdir.

Minlərlə şəhidimizin qanından məsul olan Öcalanın və cinayət işləmiş PKKl-lıların hər hansı bir əfv daxilində azadlığa buraxılmasının nəticələri ümumi xətləriylə bunlar olacaq. Lakin əslində belə bir qərar, izzətin, şərəfin, qürurun, namusun qalmadığı mənasına gəlir. Türk millətinin isə bir xüsusiyyəti vardır: Türk milləti, qürursuz və şərəfsiz olaraq yaşaya bilməz. Bunun yerinə mübarizə aparmağı və bu yolda Allah rizası üçün can verməyi gözə alar. Maraqlananlar bunu şanlı tariximizdən görə bilərlər.

Məhz bu səbəblədir ki, heç kim, Öcalanın və ya qatil PKK-lıların azad olunmaları kimi bir təklif ilə türk millətinin qarşısına çıxmamalıdır. Daxildə və xaricdə buna cəhd edənlər, bunun Türkiyədə necə bir fırtına ilə nəticələnəcəyini; türk əsgərinin, türk polisinin, xüsusi qüvvələrin və türk xalqının buna necə cavab verəcəyini görmək

məcburiyyətində qala bilərlər. Qərb dərin dövlətlərə və onların burada tərəfdarı olan bir qisim kəslərə, yol yaxınkən belə təhlükəli bir fikirdən imtina etmələrini məsləhət bilirik.

## Qlobal media diktatorluğu və qərbdə qavrama əməliyyatları

Daha əvvəl ifadə etdiyimiz kimi bir qisim qərbli yazarlar 100 illik planın tətbiqinə keçə bilməsi üçün, bir qismi də PKK-nın imperializm maskasına həqiqətən inandığından intensiv bir qavrayış əməliyyatı və sanki mühəndislik işinə yönəlmişlər. Əlbəttə burada dünyaya hakim qlobal media diktatorluğundan də bəhs etmək lazımdır. Hal-hazırda dünyanın qabaqcıl ana axın media orqanlarının dəstəkləyəcəkləri və qarşı duracağı ölkə, insan, sistem, ideologiya və təşkilatlar təyin olunmuşdur. Layihə; gücü əlində tutanların dəstəklədiyini dəstəkləmək, dəstəkləmədiyini də mümkün olduğu qədər pisləmək üzərinə qurulmuşdur. Qlobal medianın hissəsi olanlar heç bir şəkildə bunun xaricinə çıxa bilməzlər. Verilən xəbərlər bu istiqamətdə verilməli, köşə yazarları bu istiqamətdə yazılar yazmalıdırlar. Haqqında bəhs etdiyimiz sistem diktatorluq olduğundan, bu qaydalara uymayanlar mütləq xaric edilir. Bütün dünyanın bildiyi, lakin səssizcə qəbul etdiyi bu sistemdə qavrayış mühəndislikləri də ona uyğun şəkildə aparılır. Qlobal medianın idarəçiləri, bəzi zaman hədəflədikləri coğrafiyada istifadə edə biləcəkləri bir qisim kəsləri dövrəyə salıb istədikləri hədəfi asanlıqla əldə edə bilirlər.

Qlobal media diktatorluğu məhz bu metoddan xüsusilə son dövrlərdə intensiv olaraq PKK-ya istiqamətli olaraq istifadə etməyə başlamış və bəhs etdiyimiz qavrayış, istiqamətləndirmənin təsiriylə bir qisim ölkələr PKK-nın terror siyahısından çıxarılmasını belə dilə gətirirlər. Belə ki, təxminən 40 ildir türk əsgərini, kürd xalqını mərhəmətsizcə şəhid etmiş olan, yalnız alçaq, hiyləgərcə hücum etməyi bilən bu namərd təşkilatın üzvlərinin bir ayı balasını sığallayarkən rəsmləri gündəmə gəlmiş və bu başlıq atılmışdır: "Türkiyə, əllərində bala ayını tutan bu adamı hələ də terrorist zənn edir. Həqiqətən elədir mi görəsən?" (73)

Bir terroristi sanki şəfqət rəmzi kimi göstərmək, bunu dünyanın ən böyük qəzetlərindən birində təqdim etmək, bu anlayışı yaratmaq üçün də ümumiyyətlə Yaxın Şərqdən olan yazarları seçmək, tam olaraq nəzərdə tutduğumuz mühəndislik taktikasıdır. Qərb dərin dövlətlərinin, həmin bu taktikası o qədər kobudca, o qədər bilinən üsullarla və o qədər açıq şəkildə tətbiq edilmişdir ki, əsil hədəfinin başa düşülüb-düşülməməsindən çəkinməmişdir. Necə olsa bəhs etdiyimiz media diktatorluğunu tənqid edən, bu diktatorluğa dur deyə bilən yoxdur.

Bu qavrama əməliyyatının təsiri şübhəsiz çox böyükdür. Xüsusilə qərb xalqı, yalnız bu nəşrlərdən əldə etdikləri məlumatlarla PKK-nı sanki məzlum birlik olaraq qiymətləndirir; bu təşkilatın zalım, alçaqca arxadan vuran və illərcə məzlumları qətl etmiş və öz içində də saysız edam reallaşdırmış son dərəcə təhlükəli bir təşkilat olduğunu fərq

edə bilmir. Əlbəttə bu əməliyyat nəticəsində "kürdlərə zülm edən Türkiyə" görünüşünü də vermək olduqca asan olur. Xüsusilə kommunizm təhlükəsini bilməyən bir qisim qərblilər, kürdləri PKK-nın təmsil etdiyini zənn edir, Türkiyənin bütün kürdlərdən nifrət etdiyi nəticəsinə gəlirlər. Halbuki kürdlər, Türkiyənin şanı, şərəfi, dürüstlüyü və əfəndiliyinin simvolu olan tayı bərabəri olmayan bir dəyəridir. PKK isə, əslində kürd qardaşlarımıza zülm edən, başda kürd qardaşlarımızın başının bəlası olan, şərəfsiz və namərd bir terror təşkilatıdır. Məhz ikisinin arasındakı fərq bu qədər açıqdır.

TİME jurnalı "Yeni Yaxın Şərqdə gəzmək" başlıqlı mövzusunda, terror təşkilatı PKK-ya qatılan qadınları ucaldarkən, Öcalanı da guya yaraşıqlı lider olaraq tərifləyir. Dünya miqyasında məşhur qadın jurnalları ELLE və Marie Claire də eyni şəkildə, PKK-lı qadın terroristləri tərifləyən yazılar nəşr etmişlər. Alman Der Spiegel, üz qabığında verdiyi "Terrora qarşı tək başına" başlığındakı xəbərdə, PKK-nı Qərbin son ümidi olaraq göstərir. Rusiyanın Kommersant nəşr qrupuna aid Ogonyok jurnalı PKK qadın terroristləri tərifləyən ifadələr işlətmişdir. Newsweek, Kobanini böyük bir zəfərmiş kimi təqdim edərkən PKK-nın Suriya qolu olan YPG və YPJ-yi gündəmə gətirmişdir. Almaniyada nəşr olunan Marx21 jurnalı, PKK mövzusundakı tərif dolu şərhləri, "Kürdüstana azadlıq, lakin necə?" başlığıyla nəşr etmişdir. BBC də davamlı PKK-nı tərifləyən nəşrlər edir.

Qlobal media diktatorluğu və onun təsiri və himayəsində olan mətbuat orqanları, asanca ağı qara, qaranı isə ağ göstərə bilmə gücünə malikdir. Bu hiyləgər taktikanın fərqində olmayanlar isə ümumiyyətlə, bu qavrayış əməliyyatı ilə asanlıqla istiqamətləndirilə bilən insanlardır. Təəssüf ki, bu şəxslərin sayı da bir xeyli çoxdur.

# Yaxın Şərq və Asiyanın yaltaqları

İslamın və müsəlmanların maraqları yanında olmaq yerinə Amerika, İngilis, Alman və digər dərin dövlətlərin yanında olanların xarakter və məntiq pozuqluqlarını yaxşı tanımaq son dərəcə əhəmiyyətlidir. Yaltaqlıq edən şəxsiyyətə sahib bu insanların ən diqqətə çarpan xüsusiyyətləri, alçaqlıq kompleksi içində olmaları və bunu ləyaqətsiz fəlsəfəsiylə örtməyə çalışmalarıdır. Asiya və Yaxın Şərq ölkələrində tez-tez rast gəlinən bu tiplər öz ağıllarına görə etibar əldə etmək üçün bir çox güzəştlər edir, daha pisi digər insanlara da özləri kimi güzəştə getməyi təlqin edir. Allaha iman edən, bütün gücün və qüdrətin sahibinin Allah olduğunu bilən bir müsəlmanın əsla göstərməyəcəyi bu yanlış xarakter, bir çox ölkədə -bu kəslərin təlqinləriylə surətlə yayılır. Bu vəziyyət, ictimai bir xəstəliyə çevrilmədən lazımlı tədbirlərin görülməsi üçün doğru diaqnozun qoyulması və bu kəslərin əxlaq və məntiq pozğunluqlarının ifşa edilməsi son dərəcə əhəmiyyətlidir.

CIA kimi kəşfiyyat təşkilatlarının və bu təşkilatların davamı olan düşüncə quruluşlarının əhəmiyyətli fəaliyyətlərindən biri də Yaxın Şərq və Asiya cəmiyyətləri içində yönləndirilə bilinəcək kəsləri təsbit etməkdir. Ancaq çox vaxt CIA və digər kəşfiyyat təşkilatları birbaşa bunlarla təmasda olmazlar, müxtəlif düşüncə təşkilatlarını və ya digər yazarları vasitə olaraq istifadə edərlər. Alçaqlıq kompleksi içindəki bu kəsləri təsbit etdikdən sonra, qəlibləşmiş müxtəlif üslub və məntiqlə bu kəsləri təsir altına alarlar. "Sən çox qabiliyyətlisən, yaxşı və məşhur bir yazar ola bilərsən", "çox zəkalısan, zəkanla digər insanlar arasında diqqət çəkirsən", "digərlərindən çox fərqlisən" deyərək bu kəslərə yaxınlaşmağa başlayarlar. Yaltaqlıq edən xarakterli insanları təsir altına almaq üçün tez-tez istifadə etdikləri məntiqlərindən biri də, "Sən ağıllı və müasirsən, müsəlmanlar səhv tanınır, insanlar səni görsələr çox təsirli olar" yanıltmasıdır. Qarşılarındakı adamın alçaqlıq kompleksini yaxşı analiz etdikləri və bu tip yanıldıcı cümlələriylə rahat bir şəkildə təsir altına alacaqlarını bildikləri üçün, bu və bənzəri məntiqləri tez-tez istifadə edirlər.

Bundan sonrakı mərhələ alçaqlıq kompleks içindəki bu yalançı yazarların yazılarını nəzarət altına almaqdır. Əslində bu kəslərin çoxunun yazı qabiliyyəti olmaz, ancaq bir şəkildə bu kəslər yazıçı halına gətirilir. Əvvəl ölkə içində sonra beynəlxalq bəzi sayt və ya qəzetlərdə bu kəslərin yazmaları təmin edilər. Bir müddət sonra bu kəslər bir şəkildə "məşhur" olur. Və bu yazıların hamısı mütləq özünə bu imkanı təmin edənlər tərəfindən yoxlanılır, düzəlişlər verilir və çox zaman yenidən yazılır. İlk əvvəllərdə "bu cümlə yerinə bu olsa daha yaxşı olar, nə deyirsən?" deyə başlayan tövsiyələrə bir müddət sonra bu yazılar, tamamilə dərin hədəflərin fikirlərinin müdafiəsi halına çevrilər. Beynəlxalq arenada, müsəlman bir ölkə və ya müsəlmanlar əleyhinə tək qaynaqdan çıxmış olduğu hər halından müəyyən olan onlarla yazının arxasındakı oyun da budur.

Bu sistemin iş prinsipinin təməlində isə Yaxın Şərq və Asiya ölkələrindəki bəzi yazarların yaltaqlıq edən xarakteri vardır. Bu yaltaq xarakterin xüsusiyyətlərini bir az daha ətraflı araşdıraq:

## Alçaqlıq kompleksindən qaynaqlanan məzlumluq

Alçaqlıq kompleksi xüsusilə Yaxın Şərq və Asiyada geniş yayılmış olan psixoloji problemdir. Bu kompleks, insanın başqasının qarşısında, xüsusilə də özündən üstün olduğunu düşündüyü kəslərin qarşısında, özünü dəyərsiz görməsindən qaynaqlanır.

Bədəninin rəngindən, dilinin fərqli olmasından, imkanlarının qərbə nisbətən məhdud olmasından ötrü bir çox Asiya və Yaxın Şərqlilər hələ əvvəlcədən məzlumluğu qəbul edər. Bu kəslərin xəstə zehniyyətinə görə Yaxın Şərq və ya Asiya ölkəsində doğulmuş olmaq, ərəb, pakistanlı, hindli və ya misirli olmaq məzlumluğu hiss etmək üçün kifayətdir. Qərbdə doğulanların qəti olaraq özlərindən üstün olduğu düşünülər.

Özlərinə hörmət etmədikləri üçün başqalarından da hörmət görəcək bir şəxsiyyət inkişaf etdirə bilməzlər. "Əfəndisi" olaraq gördükləri kəslər qarşısında duyduqları əziklikdən ötrü sanki əzab çəkərlər və bu əzab hissini onları xoşbəxt və məmnun etmək üçün səy sərf edərək ört-basdır etməyə çalışırlar. Davamlı olaraq özünü yaltaqlığını etdikləri kəslərə sübut etmək səyi içindədirlər. Bu səbəblə də, özlərinə aid düşüncələri, şərhləri, fikirləri deyil, özlərinə diktə edilən, müdafiə etdiklərində təqdir toplayacaqlarını düşündükləri fikirləri müdafiə edirlər. Doğru olan həyatı deyil, "belə etsən təqdir edilərsən" deyilən həyatı yaşayarlar.

## Yaltaqlar, sahibləri tərəfindən addım-addım diqqətlə yetişdirilər

Yaltaq xarakterli kəslər kəşfiyyat təşkilatları və bu təşkilatların qolları olan bəzi düşüncə təşkilatları baxımından faydalı vasitədir. Haqqında bəhs etdiyimiz quruluşlar, çox vaxt özləri gündəmə gətirdiklərində təsirli olmayacaq, ya da tərs təsir edə biləcək mövzuları bu kəslər vasitəsilə gündəmə daşıyırlar. Məsələn, bir amerikalının Türkiyə əleyhinə çıxış etməsi beynəlxalq ictimaiyyətdə o qədər böyük bir məna daşımaz. Türk ictimaiyyətində isə aparıcı olar. Amma türk yazıçı Türkiyə əleyhinə fikir söyləyərsə və yazarsa bu daha sensasiyalı bir vəziyyətdir. Məhz buna görə yaltaq olanların təsbit edilməsi, təhsili və istifadəyə yararlı hala gətirilməsi əhəmiyyətli bir prosesdir.

Alçaqlıq kompleksə sahib yaltaq xarakterli kəslər təyin olunduqdan sonra, diqqətli və uzun bir müddət bir növ təhsildən keçərlər. Bu kəslərə, "Sən aydınsan, digərlərindən çox fərqlisən" deyərək yaxınlaşdıqdan sonra addım-addım insanı öz istədikləri qəlibə salarlar. Və bu müddətdə, yaltaq olanların bütün gücləriylə özlərini bəyəndirməyə səy göstərmələri "əfəndilər" in ən çox işinə yarayan xüsusdur. "Zəka"sına və "biliyinə" təriflər yağdıraraq təsir altına almağa başladıqları insana bir tərəfdən öz fəlsəfələrini beyinlərə yeridərkən, bir tərəfdən də bu insanı yazıçı halına gətirirlər. "Bu mövzuda bu cümlə o qədər yaxşı olmayıb", "istəsən belə ifadə et" deyərək edilən istiqamətləndirmələr, əslində təhsilin bir hissəsidir. Bu kəslər bu incə təhsillə həm yazıçı halına gətirilir, həm də

müəyyən bir fəlsəfə bunlara yeridilmiş olur. Yazılardakı kiçik cümlə düzəlişləri bir müddət sonra, "istəsən o qismi mən yazım" şəklinə çevrilər. Yazıya paraqraflar əlavə olunar, paraqraflar çıxarılar. Bu əsnada yaltaq da "ideal" yazının necə olmalı olduğunu öyrənməyə başlayır. Beləcə, artıq ortaq bir ağılın, müəyyən bir məntiqin müdafiəçisi olan ardıcıl istehsal olunan yazılar ortaya çıxar. Xüsusilə xaricdə oxuduğunuz bir çox yazı bu şəkildə hazırlanır.

Yaltaqlıq edənlərin təlimi yazıları ilə də məhdud qalmaz. Hansı mühitdə necə davranacaqları, harada necə geyəcəkləri, hansı mövzularda nə şəkildə zarafatlar edəcəkləri, hadisələr qarşısında necə reaksiya göstərəcəkləri incə bir şəkildə özlərinə öyrədilər. Qərbdə məşhur olmaq üçün, məlum kütlələrdən təqdir görməsi üçün, ölkəsində təriflənib "nə əhəmiyyətli insanmış" deyilməsi üçün çəkilən bu modelə uymaları lazım olduğu öyrədilir. Bir müddət sonra ortaya öz inancı, şərhi, fikri olmayan, tamamilə "əfəndisi"nin inancına, fəlsəfəsinə, həyat stilinə bağlı tiplər çıxar.

Bu zaman o insan çox əhəmiyyətli bir kütlə içərisində yoldaşlar əldə etdiyi qənaətindədir. Belə bir yoldaş kütləsi əldə etdiyi düşüncəsi də alçaqlıq kompleksini bir az da olsun yüngülləşdirmiş olur. Sistemi quranlarda da xüsusilə bu hissi verməyə diqqət göstərərlər. CIA üçün işlədiyini etiraf edən Alman Jurnalist Udo Ulfkotte, yaxın zamanda etdiyi şərhində bu sistemin necə işlədiyini dəqiq bir şəkildə yekunlaşdırmışdır:

*"Mənim qəbul edilməyimdə səbəb isə kasıb bir ailədən gəlməyim idi. Birdən pulsuz bir uşağın mükəmməl şirniyyatlarla dolu bir dükana düşməsi kimi oldu və hər şey pulsuz idi ... Mənə pul yerinə pulla alına bilməyəcək hədiyyələr təqdim etdilər. Məsələn, ABŞ Oklahoma ştatında fəxri vətəndaşlıq mükafatı, qızıl saatlar, 5 ulduzlu səyahətlər və hətta qadınlar. Amma ən əhəmiyyətlisi 5 ulduzlu iş şəbəkəsinə daxil edilməkdi. Hər hansı bir vəziyyətlə qarşı-qarşıya qaldığımda kömək istəyə bilirdim, çünki şəbəkədəki ən yüksək rütbəli insanları tanıyırdım. Kanslerlərlə eyni diplomatik mühitlərdə olmaq üzrə seçilirsiniz. Xarici ölkələrə səyahət edərkən təyyarədə təsirli kəslərin yanına oturdulursunuz. Sizə güvənirlər. Bu çox gözəl bir duyğu idi."*

Göründüyü kimi, sistemin həyat damarı özünə tabe etməyi məqsəd qoyduğu insanın, "şöhrətli olmaq", "məşhurlarla eyni mühitdə olmaq", "təqdir görmək" kimi duyğularını təmin etməkdir. Nazirlərlə, millət vəkilləriylə, müavinlərlə eyni mühitdə olmaq, yəni "sən əhəmiyyətlisən" imici haqqında danışdığımız insanlar üçün puldan çox daha qiymətlidir.

## Afərin almaq arzusu, "əfəndisi"nə yaranma məntiqi

Alçaqlıq kompleks içində olan insanların ən həssas nöqtələri "insan yerinə qoyulduqları"nı görməkdir. Bunu yaxşı bilənlər kiçik jestlər və hədiyyələrlə bu kəsləri asanlıqla özlərinə bağlayarlar.

Yaltaq xarakterli məzlum insanların təsir altına alınmaları üçün bahalı böyük hədiyyələrə ehtiyac yoxdur. Çox ehtiraslı kimi görünsələr də, çox yüksək bir mövqe, ya da ünvan gözləmirlər. Onları rahatlaşdıracaq ən əhəmiyyətli şey, etina etdikləri kütlələrdən afərin almaqdır. Çünki əsil məzlumluqları bu kəslərə qarşıdır. Öz ölkələrində dövlət rəhbərliyində belə olsalar, çox böyük bir şirkətin idarəçisi mövqeyinə belə gəlsələr yaltaqlıq etdikləri kəslərə qarşı bu məzlumluğu üzərlərindən heç cür ata bilməzlər. Bu səbəbdən, onlar tərəfindən bəyənilmək və təqdir edilmək arzusundan da heç xilas ola bilməzlər.

Bəyənilmək, təqdir edilmək, şərəfləndirilmək, etibar görmək məqsədində olduqları üçün "afərin çox yaxşı yazmısan", "afərin çox yaxşı çıxış etmisən" sözlərini eşitmək sanki ayaqlarını yerdən kəsər. Bu "afərin" sözünü eşitmək üçün, öz kütlələrinin, sevdiklərinin, ölkələrinin əleyhinə şərh etməkdən çəkinməzlər. Hər kəsi amansızca pisləyər, həmişə təpədən baxarlar. Əksər yazılarının ana mövzusu da bu əleyhdə şərhlər olur. Müsəlmanlar əleyhinə danışdıqca, öz ağıllarına görə müsəlmanları tənqid etdikcə, müsəlmanlara təpədən baxdıqca ucalacaqlarını zənn edərlər. Hətta çox vaxt, "baxın heç kim mənim qədər müsəlmanları tənqid etməz, bunları ən yaxşı mən tanıyıram, ən yaxşı da mən tənqid edirəm" rejimindədirlər, ya da ölkələrinin nə qədər "anti-demokratik", "geri qalmış","təzyiqçi" olduğunu söyləyərlərsə, o qədər "fövqəladə" təsbitlərdə olduqlarını düşünürlər. Bu səbəblə, yazılarının böyük qismi, öz ölkələrini xaricilərə pisləmək, öz insanlarına təpədən baxan şərhlər etmək, "mən onlardan fərqliyəm, mən də əslində sizin kimiyəm" mesajı vermək üzərinə quruludur. Bu yazılarda və şərhlərdə ağıllı səmimi tənqidlər və həll yolları deyil, başdan sona təbliğat və "afərin" alma səyi vardır.

Müsəlmanların və ya yaşadıqları ölkənin əlbəttə tənqid olunmalı olan səhv davranışları ola bilər, bu tənqidi etmək də vacibdir. Ancaq bu yaltaq kəslərin məqsədi tənqid edərək səhvlərin düzəlməsinə vəsilə olmaq deyil, yaltaqlıq etdikləri kütlələrin təqdirini qazanmaqdır. Bu vəziyyətdə yazıları, şərhləri, fikirləri də haqqında bəhs etdiyimiz kütlələrin təbliğatının bir hissəsidir.

## Seksual meyillərini yaltaqlandığı insanlara edərlər

Qəbilə kimi quruluşu olan bu nizamın ən qorxunc istiqamətlərindən biri isə, Yaxın Şərq və Asiyanın yaltaqlarının seksual meyillərini də "əfəndi"lərinə təqdim etmələridir. Kişi və ya qadın olsun yaltaq xarakterli bu kəslər, özlərini fiziki və seksual meyillənmə baxımından da, üstün gördükləri, əfəndi olaraq qəbul etdikləri tiplərə bəyəndirməyə çalışırlar. Yaxın Şərq və Asiyanın gənc qızları, qərbdəki dərin quruluşların orta yaşı keçmiş, maddi imkanları geniş bəzi tiplərinə sanki təqdim edilir.

Necə ki, bəzi zamanlar kino sektorunda məşhur olmaq istəyən gənc qızlar seksual meyillərini özlərini məşhur edəcəyinə inandıqları insana təqdim edərlərsə, Yaxın Şərq və Asiyanın məzlum, təqlidçi, alçaqlıq kompleksi olan bəzi qadınları da tanınan bir qəzetdə yazısı yayınlansın, məşhur bir kanalda şərhlərinə yer verilsin deyə seksual meyillərini

təqdim edər. Fələstinli, pakistanlı, misirli bir çox gənc qadının bu tərz əlaqələr quraraq və əlaqələrdən istifadə edərək müəyyən kütlələrə daxil olduğu bilinən bir vəziyyətdir.

Təqdir almaq üçün seksual meylini təqdim edən bu gənc qadınlar, qəribə bir quruluşun içinə daxil olmuş olarlar. Burada yalnız əlaqə halında olduğu əfəndisinə deyil, əfəndisinin istiqamətləndirdiyi kəslərə də seksual meylini təqdim etməyə məcburdur. Bu, çox alçaldıcı bir vəziyyət olmasına baxmayaraq, həmin mühitdə təəccüblü sayılmaz. Fələstinli gözəl bir qızın, məşhur bir musəvi iş adamıyla birlikdə olmağa başlaması, bunun sayəsində həyatı boyunca arzuladığı mühitə daxil olması, bu mühitdə qala bilmək üçün başqa "əfəndilərlə" də əlaqəyə girməsi tez-tez rast gəlinən bir vəziyyətdir. Dərin Amerika və dərin İngiltərə siyasəti içində olan bir çox siyasətçinin də bu vəziyyətdən istifadə etdiyi bilinir. Keçmiş nazirlər, keçmiş baş nazirlər, köhnə millət vəkillərinin də daxil olduğu bu qəbilə tipli quruluş içində bir çox Yaxın Şərqli və Asiyalı gənc qız çox acınacaqlı bir şəkildə istifadə edilir.

Xalq, qəzetləri oxuyarkən, televizorda şərhləri seyr edərkən bu acı həqiqətin fərqində olmaz. Bu insanları öz fikirlərini izah edir, üzərinə düşünüb araşdırdığı məlumatları çatdırır zənn edər. Halbuki, cinsi baxımdan belə bəhs etdiyimiz dairələrin nəzarəti altına girmiş bu kəslərin özlərinə aid bir fikirləri və ya şərhləri olması mümkün deyil.

## Əfəndilərinə olan inanc təslimiyyəti

Yaxın Şərq və Asiya yaltaqlarının ən diqqət çəkən xüsusiyyətlərindən biri də əfəndilərinə olan inanc təslimiyyətidir. Yəni, bu kəslər Qurana, Peyğəmbərimiz (s.ə.v)-ə və vicdanlarına Allahın ilham etdiyi doğruya görə deyil, özləri üçün biçilən sistemə görə bir inanc yaradarlar. Yaltaqlığını etdikləri kəslərin dünyaya baxışını tamamilə qəbul etdikləri kimi, inanclarını da onların şərhlərinə görə formalaşdırırlar. Allahın dediyini əhəmiyyətli görməzlər, amma haşa ilah kimi gördükləri dərin Amerikanın, dərin İngiltərənin nə dediyini çox əhəmiyyətli görərlər. Quranda yazılanı tətbiq etməzlər, amma sanki bütləşdirdikləri əfəndilərinin hər dediyini edərlər. Müsəlmanların, İslam coğrafiyasının mənfəətini düşünməzlər, amma kölə kimi bağlandıqları kütlələrin mənfəətini ən incə təfərrüatına qədər qoruyarlar. Əslində bu rəftarları, müsəlmanlara qarşı duyduqları şüuraltı kinin, İslam coğrafiyasında doğulduqları üçün duyduqları şüuraltı qəzəb və məzlumluğun xaricə yansımasıdır.

Məsələn, müdafiə etdikləri bir fikir üzündən müsəlmanların zərər görəcək olması bu tipləri heç narahat etməz. "Terrora qarşı mövqe tuturam", "İslamın əslində bu olmadığını" izah edirəm örtüyü altında məzlum, mülki müsəlmanları böyük bir çıxılmaz vəziyyətin içinə salarlar. Başda İraq və Suriya olmaq üzrə, Pakistan, Yəmən, Əfqanıstan kimi bir çox ölkədə reallaşan hava hücumlarını müdafiə etmək bunlardan biridir. Hava bombardmanı qadın, uşaq, yaşlı xəstə ayırd etmədən hədəf seçilən sahədəki insanların hamısını birdən yox edən, toplu bir cəzalandırma üsuludur. Və nə vicdana, nə insan

haqlarına və hüquqa uyğundur. Dünyanın heç bir demokratik ölkəsində, ağır cinayət törətmiş insanı tutmaq üçün kəndlər, qəsəbələr yox edilməz. Heç bir demokratik ölkədə cani bir qatil olsa belə mühakimə olunmadan başına bomba yağdırılaraq öldürülməz. Amma bəhs edilən yer İslam coğrafiyası olduğunda dərin kütlələr hüquq və demokratiya dəyərlərini unudarlar. Məhz bu mərhələdə bu insanlıq və vicdandan kənar tətbiqi ictimaiyyətə "məqbul" göstərmə məsuliyyəti də Yaxın Şərq və Asiyanın yaltaqlarına düşər. Bu kəslər, "terrorla mübarizə" adı altında, İslam coğrafiyasını yandırıb yaxacaq, yerlə bir edəcək, çox sayda vətəndaşın ölməsinə səbəb olacaq üsulları belə hərarətlə müdafiə edirlər. Əfəndiləri "öldürək" deyirsə onlar da "öldürək" deyərlər. Əfəndiləri "bombalayaq" deyərsə, onlar da gəlin birlikdə "bombalayaq, hətta daha da çoxunu edək" deyərlər. Halbuki, terrorla həqiqətən mübarizə aparmaq istəyən, terrorun fikri zəmininin aradan qaldırılması lazım olduğunu bilər. Fikri heç bir iş etmədən silahla, bombayla həll olmayacağını bilir. Daha da əhəmiyyətlisi şiddətin hər zaman daha çox şiddət doğuracağını da bilir. Ancaq bu kəslər üçün əhəmiyyətli olan bu doğrular deyil, yaltaqlığını etdikləri kəslərdən "afərin" almaqdır. Sırf bu "afərin" üçün, sırf daha çox təqdir yığmaq üçün Qurana uyğun olmayan, vicdansızca tətbiqləri var gücləriylə müdafiə edər, qatillərin yanında yer almağı qəbul edərlər.

Bu yaltaqların inanc təslimiyyətinin bir başqa təəccüblü nümunəsi də heç bir şəkildə İslam Birliyini gündəmə gətirməmələri, hətta tam tərsinə birliyin özlərinə görə qeyri-mümkün olduğunu izah etmələridir. Allah müsəlmanlara bir olmalarını əmr etmişkən, Quranın çox sayda ayəsində müsəlmanların qardaş və birlik olmaları lazım olduğunu söyləmişkən, bu kəslər israrla birliyə qarşıdırlar. Bu etiraz rəftarlarını da olduqca hiyləgər taktikalarla ortaya qoyarlar. Məsələn, açıq bir şəkildə "birlik olmayaq" deməzlər. Çünki bunun əks reaksiyayla qarşılaşacağını bilirlər. Buna görə mövzuya uyğun hədisləri istifadə edərlər. Peyğəmbərimiz (s.ə.v)-ə aid, halbuki doğru olmayan "Ümmətin ixtilafında rəhmət vardır" hədisini istifadə edərlər. Beləliklə, "baxın, Peyğəmbər belə birlik olmamaq lazım olduğunu" söyləyir deyərək, müsəlmanları təsir altına almağa çalışırlar. Halbuki, Peyğəmbərimiz (s.ə.v) Qurana uyğun olmayan bir sözü əsla söyləməz. Onlarla Quran ayəsiylə müsəlmanların birlik olması əmr edilmişkən, "ixtilafda rəhmət var" deməz. Müsəlmanlar üçün rəhmət birlik olmaqdır, çünki bu Allahın əmridir. Lakin yaltaq xarakterli tiplər üçün Allahın əmri deyil, peyki olaraq yaşadıqları müdirlərinin mənfəətləri əhəmiyyətlidir.

## Türkiyədəki yaltaqlar

Diqqətlə baxıldığında, müxtəlif Yaxın Şərq və Asiya ölkələrində yayılmış olan yaltaq xarakterinin Türkiyədəki nümunələrini görmək mümkündür. Öz ölkəsinin mənəvi dəyərlərindən uzaq, öz mədəniyyətinə yad -daha doğrusu yad təqlidi edən-, Türkiyənin ortaq dəyərlərini bilmirmiş, xalqın inanclarını və dəyərlərini tanımıırmış havasında davranan, xalqı kiçik görən, özünü çox qiymətli zənn edən, son dərəcə dar bir baxımdan

hadisələri qiymətləndirən bu kəslərin ən diqqətə çarpan istiqamətlərindən biri də, Türkiyənin mənfəətlərinə heç əhəmiyyət verməmələridir.

Bu kəslər eynilə digər ölkələrdəki nümunələri kimi, yalnız afərin almaq üçün, Türkiyəni pisləyər, türk xalqını alçaldıcı fikirlər söyləyər, daha da acısı irəlidə ölkəmizin zərərinə ola biləcək fikirlərə eşqlə dəstək verirlər. Xüsusilə son zamanlarda PKK-nı özlərinə qəhrəman azadlıq döyüşçüləri olaraq göstərməyə çalışan, Türkiyəni PKK təhdidiylə tərbiyə etməyə cürət edən, ölkəmizə "ya PKK-ya dəstək verərsən, ya da nəticə çox fərqli olar" təhdidləri edən, bölünməyə zəmin hazırlayan məntiqlər irəli sürülən yazıların və şərhlərin sayının belə artması da əhəmiyyətli bir göstəricidir. Qərbdəki bəzi düşüncə təşkilatları tərəfindən xidmət edilən fikirləri belə müdafiə edən bu kəslər, ortaya qoyduqları məntiqin nələrə səbəb ola biləcəyini düşünməzlər. Təqdir görmə, məşhur olma, hətta yalnız xarici bir jurnalistin yazısında adının keçməsi ümidi ilə özlərinə təlqin ediləni müdafiə edərlər. Bu fikirləri müdafiə etdikləri zaman ultra müasir, xalqın görə bilmədiklərini görə bilən, fövqəladə analizlər edən bir adam olaraq qəbul ediləcəklərini zənn edərlər. Halbuki, dərin quruluşların özünə söylədiyini təkrar etməkdən başqa heçnə etməyən, öz şəxsiyyətini və öz hörmətini itirmiş olan, insanların böyük əksəriyyətinin da acıyaraq baxdıqları insanlardır.

Yaltaqlar arasında yaltaqlıq yarışı da vardır. Kimin daha çox afərin alacağı, kimin daha çox yaltaqlıq edəcəyi yarışdır bu. Yarışda üstün gələ bilmək üçün öz ölkəsinin, öz dövlətinin, öz millətinin maraqlarını tamamilə bir kənara buraxıb, necə daha çox yarana biləcəklərini düşünərlər. PKK-nın xain bir terror təşkilatı olduğunu; qoşunlarımızı, polisimizi şəhid etməyə davam etdiyini bilə-bilə, PKK-ya təriflər yağdırmaq, terrorçuların əfv edilməsini gündəmə gətirmənin, hətta utanmadan Türkiyənin terroristlərə silah köməyi etməsi lazım olduğunu söyləməsinin ardında da bu yaltaqlıq yarışı vardır. Xarici mətbuatda tez-tez nəşr olunan Türkiyə əleyhinə yazılmış yazılar və ya bu yazılarda bəhs edilən bəzi şərhlər də bir mənada bu yarışın təzahürüdür. "Bəlkə məni də aralarına alarlar, mənim də adım onlarla birlikdə xatırlanar" ümidiylə edilən yaltaqlıq yarışı, bir müddət sonra insanın hər cür çirkinliyi qəbul etməsinə səbəb olacaq bir təxribat meydana gətirər. Çünki bu insanlarda öz iddiası, idealı, ailəsi, milləti, vətəni, inancı kimi müqəddəs dəyərlərin yerini "əfəndiləri"nin nə dediyi, nə düşündüyü narahatlığı tutur.

Haqqında bəhs etdiyimiz kəslərin əfəndilərindən öyrəndikləri və alçaldıcı bir şəkildə tətbiq edilən bir başqa rəftar pozuqluğu da lovğalıqdır.

## Ortaq fəlsəfə: Lovğalıq

Lovğalıq qərb ölkələrinin çoxunda yayılmış olan rəftar və əxlaq pozuqluğudur. Çoxbilmişlik və özünü ağıllı sanmaqla qarışıq bir üslub içində olan bu insanların səs tonları, danışma vurğuları, oturuş tərzləri, zarafatları, özlərini ön plana çıxarma üslubları ortaqdır. Özlərini digər insanlardan fərqli və xüsusi görən, bu "xüsusi halı" hər hərəkətləriylə vurğulamaq istəyən rəftar sərgiləyirlər. Şişirdilmiş mimikalar istifadə

etmək, danışıqlarının arasında xarici dildə sözlər işlətmək, saqqız çeynəyərək danışmaq, normalda heç bəyənməyəcəyi şeylərə heyranmış kimi izah etmək; bəlkə də heç getmədiyi yerləri çox yaxşı bilirmiş kimi, bir dəfə yan-yana gəldiyi insanları çox yaxından tanıyırmışcasına, heç dinləmədiyi musiqini çox sevirmişcəsinə, heç izləmədiyi filmləri incəsənətdən çox yaxşı anlayırmış kimi şərh edərək özündən razı söhbətlər lovğalığın ən bilinən xüsusiyyətlərindəndir. Lovğa kəslər üçün, 5 ulduzlu bir otelin gözləmə salonunda otura bilmək, bu otelin hədiyyə olaraq verdiyi siqarını çəkib tüstüsünü insanlara doğru üfləmək, əlində qədəhlə poza vermək, adı məşhur olan restoranın qapısında görünmək son dərəcə əhəmiyyətli işlərdir.

Mədəni və nəcib bir insanın həyatında sıradan olan təfərrüatlar lovğaların həyatında şişirdilmiş əhəmiyyətə malikdir. Çünki bunlarla ucaldıqlarına və dəyər qazandıqlarına inanırlar. Digər insanlara da öz ağıllarına görə sahib olduqları bu dəyəri göstərməyə çalışırlar. Lovğalıq fəlsəfəsinin hər bir tətbiqiylə insan, gözündə böyütdüyü insanlara "mən də sizdənəm" mesajını vermiş olur. Buna görə lovğalıq bir mənada da bəsit insanlar arasında ortaq bir dil, ortaq bir fəlsəfədir. Bir lovğa digərini gördüyündə dərhal tanıyar, bir lovğanın dilindən yenə ən yaxşı başqa bir lovğa anlayar.

Lovğalıq çox alçaldıcı bir hal olmasına baxmayaraq, bir çox cahil insan lovğalara böyük bir heyranlıq duyar. Lisey dövrlərindən etibarən lovğa rəftarı göstərənlər insanlar arasında etibar görərkən, məzlum və əfəndi olan insanlar çox vaxt dəyər görməzlər. Liseylərdə tərs, ərköyün, çoxbilmiş gənclərin maraq mərkəzi olmasının səbəbi də budur. Lisey illərindən sonra lovğalıq da inkişaf etməyə davam edər. Məktəb dövründə dinlədiyi musiqi qrupu, getdiyi konsertlər, etdiyi alış-verişlər lovğalığın vəsaiti ikən, sonrakı illərdə yaşadığı ictimai mühit, tətil üçün seçilən məkanlar, gəzilən sərgilər, məqam-mövqe, avtomobilinin markası, yaşadığı səmt kimi müvəqqəti dəyərlər əhəmiyyət qazanar. Bunların hər biri daha məzlum olanı psixoloji olaraq əzmək üçün istifadə edilər.

Lovğalıq Yaxın Şərq və Asiyanın yaltaqları ilə əfəndilərinin ortaq bir fəlsəfəsidir. Ancaq yaltaqlar əfəndilərindən öyrəndikləri lovğalığı onların yanında əsla etməzlər. Özlərindən aşağı gördükləri, fağır, sıravi insanları əzmək üçün onların yanında loğva davranarlar. Əfəndilərinin yanında isə son dərəcə əzikdirlər. Onlara loğvalıq etməyi təxəyyül belə etməzlər. Misirdə, Banqladeşdə və ya Fələstində Avropa görmüş bir insanın istifadə etdiyi üslubu, yerli xalqa təpədən baxaraq etdiyi analizləri gözünüzdə canladırmanız çətin deyil. Avropada və ya Amerikada böyük alçaqlıq içində, kölə kimi hər deyiləni edən, şəxsiyyətini düşünmədən yaşayan tiplər, öz ölkələrinə qayıtdıqlarında, sanki o əzilən özü deyilmiş kimi, tam fərqli bir xarakter göstərirlər. Məhz bu, loğvalığın bir tətbiqidir. Vəziyyətin acı istiqaməti isə, fağır xalqın bu loğvalıq tətbiqinə çox vaxt heyran qalması, bu kəsləri adam yerinə qoymasıdır.

Halbuki, heyran olunması lazım olan əsil əxlaq, keyfiyyətli və nəcib mömin əxlaqıdır. Dünyanın bütün nemətlərinin sahibinin Allah olduğunu bilən, gücün və qüvvətin yalnız Allaha aid olduğuna iman etmiş, təslimiyyətli möminin şəxsiyyəti qala kimidir; möhkəm və sarsılmazdır. Kölgə varlıqlarla qarşı-qarşıya olduğunun şüurundadır,

hər an Allahın özünə şahid olduğunun şüurundadır. Səthiliyə əsla tənəzzül etməz. Müasir və üstün keyfiyyətlidir. Özünü formalaşdırmaq istəyənlərə görə deyil, Allahın istədiyi əxlaqa görə yaşayar. Yaltaqların çox əhəmiyyətli görüb köləsi halına gəldikləri əfəndilərinin də aciz bir qul olduğunu, hamısının ölümlü varlıqlar olduğunu bilir. Bir insana göstərdiyi hörmət və verdiyi dəyər o insanın təqvası ilə düz mütənasibdir. Kimsəyə qarşı nəzakətsizlik etməz, amma acizlik içindəki insanların qarşısında əzilməyin nə qədər alçaldıcı olduğunu bilir. Möminin nəfsini qarşısında təmənnasız əzəcəyi, səmimi bir təslimiyyətlə təslim olacağı tək varlıq Allahdır.

# 5-Cİ HİSSƏ

# TÜRKİYƏ NECƏ BİR RİSK ALTINDADIR?

Əvvəlində müxtəlif görüşlərlə formalaşan və rəsmi olaraq 2013-cü il tarixində başlayan ölkəmizdəki həll prosesində hər kəsin gözlədiyi silahların tamamilə susması idi. Lakin həll prosesinin əvvəlində daim bu xəbərdarlığı etdik: Müzakirələr, qarşılıqlı danışıqlar və ya razılıqlarla həqiqi həll yoluna çatılması mümkün deyil. PKK-nın leninist və kommunist ideologiyası, hiyləgər və qanlı üsullarla mütləq bölünmə hədəfinə doğru gedəcək, bu hədəflərindən heç bir zaman dönməyəcəklər. Əgər həll yolu üçün doğru bir proses istənilirsə, bunun mütləq təhsillə edilməsi lazımdır, bunun xaricində heç bir həll yolu yoxdur.

O dövrdən bu yana PKK, müxtəlif üsullarla şəhərlərin içinə qədər girmiş, PKK rəhbərlikləri öz səslərini təsirli bir şəkildə eşitdirmiş, Öcalan, bir anda ölkənin bir qisim guya "Ağ Türkləri" tərəfindən göylərə çıxarılmağa başlanmışdır. Əslində Türkiyə, indi bəlkə də tarixində heç olmadığı qədər böyük bir risk altındadır. Bu hissədə bəhs etdiyimiz riskləri araşdıracağıq.

## "Demokratik muxtariyyətə" doğru gizli addımlar

Sülh prosesinin rəsmi olaraq elan edilməsindən sonra yenidən qarşıdurma mühitinə girdiyimiz bu günlərə qədər keçən müddətə baxdığımızda, əslində Türkiyədə həm siyasi, həm də qavrama rəhbərliyi baxımından çox böyük dəyişikliklər olduğunu görərik. Bu dəyişikliklərin, Türkiyə baxımından çox da ürək açan dəyişikliklər olmadığını da ifadə etmək lazımdır.

Bu müddət içində bir qisim yazıçılar tərəfindən Öcalan ilə danışıqlar sanki qanuniləşmə kimi göstərilmişdir. Öcalandan gələn məktublar PKK-ya yaxın kütlələr tərəfindən "Hörmətli Öcalanın tələbləri" başlığı altında oxunmuş və bu vəziyyət olduqca normal qarşılanmışdır. Öcalan, açıq və ya gizli bir üslubla hökumətə rahatlıqla tənqidlər yönəldə biləcək, bütün bunlar həll prosesinin təbii tələbləri olaraq qəbul ediləcək hala gəlmişdir.

Bunlarla yanaşı, bir qisim sol fikirli yazar, siyasətçi, bürokratlar, "yaxşı ki Öcalan varmış" deyəcək qədər irəli getmişlər, daha da sonra Öcalanın sərbəst buraxılmalı olduğunu əvvəl yarım ağız, sonra açıq şəkildə tələb etmişlər. Bəzi jurnalistlər Kandilə gedib illərdir Türk əsgərinə xain tələlər quran əli qanlı terroristləri sanki bir xalq qəhrəmanı ədasıyla təqdim etməyə başlamışlar.

Məhz bu hiyləgər üslub dəyişikliyi, həqiqətdə əhəmiyyətli bir fəlakətin xəbərçisi olmaqdan başqa bir şey deyil. Bu üslub dəyişikliyi, PKK-nın və PKK-nın dəstəklədiyi

ünsürlərin, qerilla üsulları ilə bərabər daha daxildən, bünövrədən, hiyləgər üsullarla hərəkətə keçmiş olduğunun bir xəbərçisidir. Bu fəlakətin ilk xəbərçisi, 30 aprel 2014-cü il tarixində reallaşan yerli seçkilər olmuşdur.

## 2014-cü il yerli seçkilər və hiyləgər planın elanı

30 Mart 2014-cü il tarixində yaşanan yerli seçki üçün Türkiyə daxilində həyata keçirilən hazırlıqlara baxdığımızda, əslində bu günki Türkiyə üçün heç yaşanmaması lazım olan bir mənzərə qarşımıza çıxır və bəzi partiyaların mitinq proqramları Cənub-Şərqi bölgəmizin əhatə etmirdi. O bölgələrdə xüsusilə gedib mitinq etmələri lazım olan, xalqı qucaqlamaları lazım olan müxalifət partiyaları, öz vətənlərinə aid Cənub-Şərq torpaqlarına can qorxuları səbəbiylə gedə bilmədilər. Öz torpaqlarında, öz xalqlarını qucaqlaya bilmədilər.

Hətta AKP millət vəkilləri belə Cənub-Şərqdə rahat şəkildə hərəkət edə bilmədiklərini, mitinqlərini də çətinliklə etdiklərini, vilayət təşkilatlarında partiyalıların belə qarşılaya bilmədiklərini ifadə etmişlər. Ak Partiya millət vəkili Orxan Miroğlu bu vəziyyəti "qorxu dağları gözləyir" şəklində yekunlaşdırmışdır.

Müxalifət partiyaları tərəfindən bəhsi keçən tədbirlər, 7 İyun 2015 tarixində keçirilən ümumi seçkilər zamanı da alınmışdı. Bu tədbirlər zəruri idi, çünki Türkiyənin siyasi partiyaları özlərinə istiqamətli bir şiddət hərəkətinin hər an reallaşa, bölgədə Dövlətin hakimiyyətinin tam mənasıyla var olmadığını bilirdilər. Öz torpaqlarının bir hissəsi, vətənin siyasi demokratik partiyalarına tam mənasıyla bağlı idi.

Bu vəziyyət hal-hazırda hələ də bəzi bölgələrdə davam edir və bir çox seqment tərəfindən normal qarşılanır. Halbuki, bir az düşünüldüyündə hadisənin dəhşəti və o torpaqların hələ də necə bir təhdid sahəsi olduğu açıq şəkildə aydın olur.

30 mart 2014-ci il tarixli yerli seçkilərin Türkiyə üçün xüsusi və yerli seçkilərdən başqa bir mənası olduğu açıqdır. Səyahət hadisələri başda olmaq üzrə müxtəlif qiyam və hadisələrlə keçən hərəkətli bir ilin ardından sanki bir güvən səsverməsi mənasını daşıyan yerli seçkilərin göstərdiyi nəticələr, hər partiya üçün ayrı bir əhəmiyyət daşıyırdı. Həll prosesinin sonrasındakı günlərdə hökumətin kürd xalqına vermiş olduğu təminatlar və xüsusilə Cənub-Şərq bölgəmizdə keçirilən tərəqqi və inkişaf planları daxilində ən böyük gözlənti, bu bölgəmizdə hökuməti təmsil edən partiyanın və ya müxalifət partiyalarının zəfər ilə çıxması idi. Lakin belə olmadı.

Seçki xəritəsində Cənub-Şərq vilayətlərinin hamısında BDP bələdiyyələrinin zəfərlə çıxması, Ak Partiya və MHP-nin keçmişdə üstün olduğu şəhərlərdə BDP-nin üstünlük qazanmış olması əhəmiyyətli bir mesaj verirdi. Aydındır ki, qala, daxildən fəth edilməyə çalışılırdı. PKK-nın açıq şəkildə dəstək verdiyi bir partiya güclənmişdi. Bu vəziyyət açıq aydın göstərirdi ki, həll prosesi olaraq adlandırılan və PKK militanlarının silahlarını buraxıb getmələri gözlənilən dövrdə əslində PKK ölkəni tərk etmiş filan deyildi və təzyiq

sistemi davam edirdi. Aydındır ki, bu dəfə Türkiyənin bölünməsi üçün fərqli bir üsul izlənilirdi.

Bu təfərrüatların izahına keçmədən əvvəl bunu əhəmiyyətlə ifadə etmək lazımdır. BDP və ya yeni adıyla HDP, Türkiyənin demokratik sistemi içində yer alan siyasi bir partiyadır. Demokratiya daxilində şübhəsiz ki, bütün digər partiyalarla eyni hüquqlara malikdir. Dövlətin qoruması və zəmanəti altında qanuni bir partiya olaraq şübhəsiz ki, vəzifəsinə davam edəcək. Bu partiyaya və partiya mənsublarına yönəldilmiş olan hər cür hücum və ya yersiz söz demokratiyaya böyük bir zərbədir və mütləq hüquqi qarşılıq tapmalıdır.

Cənub-Şərq mövzusunda HDP ilə əlaqədar ayrı-seçkiliyi etməyimizin yeganə səbəbi, bu partiyanın PKK tərəfindən dəstəklənməsidir. Əslində, bir az sonra KCK quruluşlunun təfərrüatlarında da açıqlayacağımız kimi, bəhsi keçən partiyanın KCK/PKK tərəfindən ciddi təzyiq altında tutulduğu da ehtimal edilir. Məhz bu həqiqət, ölkəmiz üçün böyük bir təhdid təşkil edir. Xüsusilə də həll prosesinin başından bəri bu partiya səlahiyyətlilərinin muxtariyyət mövzusunu daha tez dilə gətirir olmaları, bu mövzuda fərqli bir dilə keçid etmələri, Abdullah Öcalanı qanuni hala gətirmə səyləri əhəmiyyətli bir təhlükənin işarələrini verir. Bəhs etdiyimiz Cənub-Şərq, bölgəmiz olduğu üçün bu ifadələrə sahib bir partiyanın xüsusilə o bölgədəki zəfəri, özü ilə haqlı olaraq narahatlıq da gətirir.

2015-ci il ümumi seçkilərin isə Cənub-Şərq baxımından daha dəhşətli bir xəritə çəkdiyini burada xatırladaq. Xatırlandığı kimi HDP-nin güclü çıxdığı bölgələr yalnız Cənub-Şərqi bölgəmizlə məhdud qalmamış Şimal-Şərqdə Ardahana qədər çatmışdı. Burada xüsusilə yerli seçkiləri nümunə verməyimizin səbəbi, PKK-nın dəstəyini görən bir partiyanın yerli rəhbərliklərə sahib olmasının qarşıdurma dövrünə girdiyimiz bu günlərdə gətirmiş olduğu dəhşətli nəticələrdir. Sonrakı sətirlərdə bu mövzu ətraflı izah edilir.

## "Demokratik muxtariyyət" adı altında torpaq tələbi

Bu anlayış mühəndisliyindən ən çox pay alan söz şübhəsiz ki, "demokratik muxtariyyət" sözüdür. Xüsusilə 30 mart 2014-cü il yerli seçkilərdən sonra qəflətən daha çox eşitməyə başladığımız bu söz, əslində bölünmənin yumşadılmış adıdır. Bölünməyi müdafiə edən siyasətçilər tərəfindən elə zərərsiz, elə şəkərlə örtülmüş halda təqdim edilir ki, Türk xalqının bu mövzunu niyə bu qədər böyütdüyü sanki hesaba çəkilir. Bu kəslərin sözlərinə görə "demokratik muxtariyyət", demokratik bir hərəkətdir.

Halbuki, PKK dilində demokratik muxtariyyət, demokratik bir hərəkət filan deyil. Ölkəni bölmək üçün demokratiya bir örtük olaraq istifadə edilir. Əslində PKK əgər muxtar bir dövlət əldə etmiş olsa, bu dövlət demokratiyadan uzaq, kommunist və kommunal sistem üzərinə qurulacaq. Necə ki, bu xəyali dövlətin konstitusiyasını təşkil edən KCK bəyanatı, bunu açıq bir şəkildə elan edir.

Demokratik muxtariyyət ifadəsi ilə əslində verilməyə çalışılan təəssürat, "biz birbaşa bölünməyi istəmirik" demək, amma arxa planda bölünmənin bütün lazımlı ünsürlərini hazır etməkdir. Bunun üçün əvvəlcə bələdiyyələrin imkanları istifadə ediləcək. Yəni imkanlar kommunist təbliğat üçün səfərbər ediləcək.

Yerli seçkilərin dərhal ardından yuxarıda ümumi xətləriylə izah etdiyimiz qavrama mühəndisliyi davam edərkən, aralara sıxışdırılan maraqlı, gözlənilməz və təəccüblü tələblərin gündəmə gəlməsi də eyni üsulun bir hissəsidir. Seçkilərin üzərindən hələ bir neçə həftə keçməsinin ardından Gültan Kışanakın "Neftdən pay istəyirik" çıxışı buna bir nümunədir. (74) Bu elə bir sözdür ki, sanki Cənub-Şərqdə İraqda olduğu kimi muxtar bir rəhbərlik qurulmuş, dövlətin ayrı, muxtar bölgənin ayrı qaynaqları olmuş kimi bir təəssürat vermək üçün istifadə edilmişdir. Cənub-Şərq bölgəsi bu ölkənin milli sərhədləri içindədir və bu milli sərhədlər içindəki hər cür yerdən olduğu kimi neft gəliri də, bu ölkənin milli hasilatına daxildir. Əldə edilən hər gəlir, Türkiyə sərhədləri içindəki hər şəhərə və bu ölkənin hər bir yerinə çatan büdcənin bir hissəsidir. Antaliyada yetişən portağalın gəliri necə eyni zamanda Cənub-Şərqə də axırsa, eyni şey Cənub-Şərqdə çıxan neft üçün də keçərlidir. Bu ölkənin bölünməz bütövlüyünün bir gəliridir. Kışanakın bu maraqlı çıxışı, yalnız diqqətləri bu ifadəyə çəkmək və gizlincə davam edən muxtariyyət layihəsinə xidmət etməkdən başqa bir məqsəd daşımır.

Kışanakın, yerli seçkilərdən bir il əvvəl muxtariyyət tələbini birbaşa səsləndirmiş olduğu da burada xatırlanmalıdır. 10 fevral 2013-cü ildə “Hürriyet” qəzetinə, *"Dümdüz bir yolumuz var: Muxtar Kürdüstan"* çıxışını edən yenə Kışanakdır.(75)

Necə ki, köhnə Diyarbəkir Yenişəhər Bələdiyyə Başçısı Fırat Anlı, bu qavrama siyasətinin şəhərlərin içində necə həyata keçdiyini təsvir etmişdir. Anlı, "*Hal-hazırda onsuz da qismən bu modeli Cənub-Şərqdə tətbiq etdiklərini, məhəllə və digər məclislərin burada qurulduğunu, cənubda da müstəqilliyə yaxın bir federasiya meydana gəldiyini ifadə edərək yaxında muxtariyyət elan edəcəklərini"* ifadə etmişdir.(76) Bu şərh üzərindən çox keçmədən PKK, hücumlarına qaldığı yerdən başlamış və yerli seçkilərdən sonra HDP-yə sanki hədiyyə edilən bəzi bələdiyyələr bir-bir muxtariyyət elan etməyə başlamışlar. Mühakimə bu mövzuda dərhal hərəkətə keçsə də, Cənub-Şərqdə qarşımıza çıxan bu faciəvi mənzərənin güzəştlər nəticəsində meydana gəldiyi həqiqətinin yaxşı düşünülməsi şərtdir.

Bu dəhşətli vəziyyət əslində açıq-aydın şəkildə "gəlirəm" demişdir. Bir neçə ildir israrla xəbərdarlıqlar etdiyimiz təhlükə, əslində hal-hazırda ölkəmizdə xaincə tətbiq edilməyə başlamış olan hiyləgər, qeyri-qanuni və kommunist bir dövlət quruluşudur. Adı isə, KCK-dır

## Qanuni dövlət içində formalaşmış qeyri-qanuni bir dövlət: KCK

KCK (Koma Civakên Kurdistan-Kürdüstan kommunistlər Birliyi), terror təşkilatı PKK-nın meydana gətirdiyi bir təşkilatdır. Bu təşkilat, məqsədlərini və istifadə üsullarını "KCK müqaviləsi" adlı sənəd ilə qüvvəyə qoymuşdur.

Bəhs etdiyimiz qaydalarda, bayrağı, məhkəmə və ordu sistemi ilə əslində bir dövlət təsvir edilir. Təşkilatda, 300 nümayəndəli Kongra-Gel qanunvericilik vəzifəsini üzərinə götürür, qanunvericilik qanunu çıxarır, icra edərək tətbiq edir. Problem çıxdığında isə dövrəyə məhkəmə orqanları girir. KCK müqaviləsi, bu dövlət quruluşunun konstitusiyasıdır. Terror təşkilatının bölmələri və təşkilat üzvləri, sistemli bir quruluş içində bu dövlət sistemində yer almışlar. TBMM yerinə alternativ bir qanunvericilik orqanı 2003-cü ildən bəri iş başında olub KCK təşkilatıyla funksional bir hala gətirilmişdir.(77) Üç hissədən ibarət olan KCK məhkəmə sistemi, Türk Cəza Qanununun cinayət saydığı heç bir əməli və səlahiyyətli məhkəmə sistemini tanımır, yəni Türk dövlətini və ədalət sistemini öz ağlına görə rədd edir. Bunun yerinə insanları, öz hazırladığı qanunlar daxilində yenə öz qurduğu məhkəmələrdə mühakimə edir.

KCK, Cənub-Şərqdə, xüsusilə Diyarbəkirdə, "PKK" məmurları, "PKK" kənd təsərrüfatı vilayət müdirləri şəklində "bürokratik təyinatlar" edir. "Təyin edilən" guya PKK "səlahiyyətlilərin" Türkiyə Respublikası məmurlarını məqamlarında təhdid etdiyinə dair xəbərlər mətbuat nəşr orqanlarında gündəmə daşındığı kimi, TBMM sual təklifi ilə də hökumətdən soruşulmuşdur. (78)

KCK-nın ordusu "asayiş bölmələri" (YDG-H) adını almışdır. PKK adına vergi toplanması, mağazanı bağlatma, cəzalandırma, seçmənin və seçki mərkəzlərinin təzyiq altına alınması kimi fəaliyyətlər "asayiş bölmələri" vasitəçiliyi ilə həyata keçirilir. Bu bölmələr, şəhərlərdə PKK qorxusunun davam etməsi, vətəndaşın üzərində yaradılan şiddət təhdidinin davam etdirilməsi üçün istifadə edilirlər. Guya həll prosesi davam edərkən belə, Diyarbəkirdə vətəndaşlar saxta "KCK dövlətinin bir fərdi olaraq" dövlətə vergi ödəməyə məcburdur.

Prokurorluq iddianaməsinə görə 17 may 2005-ci ildə, PKK-nın KCK adlı bir quruluşa çevrilməsi 2005-ci ildə Öcalanın, kommunist/anarxist yazıçı Murray Bookchinin izahlarından təsirlənərək inkişaf etdirdiyi dövlət üstü konfederal model fikrindən ortaya çıxmışdır. Plan üç mərhələlidir: demokratik rəhbərlik, demokratik muxtariyyət, demokratik konfederalizm. Yəni hədəflərin ilki Öcalanın sərbəst buraxılmasıdır; hal-hazırda ölkəmizdə yayılan ifadələrə və bu istiqamətdə edilən əxlaqsız təkliflərə baxıldığında planın bu mərhələsinin həyata keçirilməyə çalışıldığını görmək mümkündür. Bu təmin edildikdən sonra demokratik muxtariyyət mərhələsinə keçməyi, ardından da Türkiyə, İran, İraq və Suriyadan ibarət dörd parçalı konfederal bir dövlət qurulması planlaşdırılır. Əslində mətnin 4-cü maddəsinin I-ci bəndində keçən "Demokratik Cəmiyyət Yaxın Şərq Konfederasiyasını inkişaf etdirmək" ifadəsindən də aydın olacağı üzrə hədəf yalnız kürd bölgələriylə məhdud qalmamış, bütün Yaxın Şərq plana daxil edilmişdir. Bu da göstərir ki; PKK-nın təməldəki hədəfi, Türkiyə daxil olmaqla bütün Yaxın Şərqə kommunist bir nizam gətirməkdir.

KCK əslində 2000-ci illərin ortasında həbsdən çıxan PKK-lıların siyasətə qatılmaları, təşkilat içində qalmaları, özlərini kənara atılmış, unudulmuş hiss etməmək üçün şəxsən Öcalan tərəfindən kəşf edilmiş bir siyasi məşğulluq formuludur. KCK təşkilatının əsas vəzifəsi isə, dağlardan ayrılaraq şəhərlərdəki nəzarəti ələ ala bilmək, PKK-nın qeyri-qanuni xəttini guya qanuni görünüşlü bir quruluş daxilində həyata geçirə bilməkdir. Əslində bu şəkildə, bütün dünya tərəfindən terror təşkilatı olaraq tanınmış olan PKK, KCK üzərindən "qanuni" bir görünüş altında siyasi proseslərə müdaxilə etməyi məqsəd qoyur.

Müqavilədə, KCK təşkilatının qurucusu Abdullah Öcalan olaraq göstərilir və Öcalanın İcra Şurası sədrini vəzifələndirdiyi və şura qərarlarını təsdiqlədiyinə vurğu edilir. Yəni açıq bir şəkildə KCK təşkilatı, əmr və təlimatlarını Abdullah Öcalandan və PKK-nın lider kadrlarından alır. Şəhərin içində siyasi görünüşlü hərəkətlərlə qalanı içdən fəth edəcək bir təşkilat onsuz da Öcalanın çox uzun zamandır istədiyi bir şeydir. Necə ki, Öcalan ilə aparılan danışıqlar araşdırıldığında, həvalə etdiyi yeganə modelin KCK modeli olduğu görülür. KCK, qanuni bir görünüş altında şəhərlərə enərək, burada PKK nüfuzunu güclü şəkildə hiss etdirmək üzrə var olmuşdur. Bu quruluş altında, KCK-nin bölgədəki bəzi siyasi fiqurlar, bələdiyyələr və bələdiyyə başçıları üzərində təzyiq və nüfuz qurmağa çalışdığı, millət vəkili və bələdiyyə başçılarını təyin etmə gücü və səlahiyyətinə sahib olduğu da bilinir.

Mövzuyla əlaqədar Strateji Düşüncə İnstitutunun analizi bu şəkildədir:

*KCK, şəhərdəki nəzarəti əlində tutmaq və qanuni siyasəti PKK xəttində tutmaqla vəzifəli bir quruluş ... Elə ki, bir bələdiyyə başçısı bir yerə getdiyində, yanında mütləq KCK-dan biri var. Xalq arasında bunlara “komissar” deyilir. Bələdiyyə başçılarının, onların düşüncələrinin xaricinə çıxmaları mümkün deyil.(80)*

Haqqında bəhs etdiyimiz quruluş əslində stalinist sistemlərdə məşhur olan bir təşkilat formasıdır. Bilindiyi kimi, Stalin də yazıçı, peşə, ordu kimi müxtəlif təşkilatları birbaşa meydana gətirmiş və buralarda "komissar" olaraq adlandırılan kəsləri vəzifəyə gətirmişdir. Bəhsi keçən komissarlar əslində kommunist militandırlar. Onların vəzifəsi, həmin təşkilatları nəzarət altında tuta bilmək, şəhər daxilində hegemonluğu təmin edə bilmək, müxalif səsləri təyin edib, sistemi öz istədiyi kimi nizamlaya bilməkdir. İndi gəldiyimiz nöqtədə bu, PKK-nın bəhsi keçən üsulla HDP üzərində siyasi təzyiqi şəklində şərh olunur. Necə ki, stalinist qaynaqlarda "komissar" termini; "Nəzarət altında tutulmaq istənən quruluşlarla Stalin arasında möhkəm və pozulmaz daxili bağlılığın mühafizə edilməsi" olaraq təyin olunur. (81)

Qısacası, KCK, qeyri-qanuni təşkilat hədəflərini reallaşdırmaq adına arxa planda qeyri-qanuni təşkilat üzvlərini saxlayan, amma təzyiq yolu ilə ön planda qanuni siyasi fiqurları istifadə edərək, şəhərlərdən başlayaraq bölgənin hamısına kommunist bir sistem gətirməyi hədəfləyən bir təşkilatdır. KCK müqavilə mətnindən açıq şəkildə aydın ola biləcəyi kimi, bu sistemin üzv qəbul edən, qanunvericilik gücü və məhkəmə orqanları olan, mühakimə edən, silahlı mübarizə bölümü nəzərdə tutan, yerli və mərkəzi

təşkilatları olan, vergi yığan, xüsusilə yerli rəhbərliklər üzərində söz sahibi olmağa çalışan bir təşkilat xüsusiyyətində olduğu açıqdır; yəni KCK saxta bir dövlət kimi hərəkət edir. (82)

Jurnalist-yazıçı Sedat Laçinerin bu təsbiti əhəmiyyətlidir:

*KCK, şəhərdə mülki itaətsizlik hərəkətlərini yönəldəcək, xalqı hərəkətə gətirəcək, Fransada olduğu kimi avtomobillər yandırılacaq, xalqla polis vuruşacaq, bu səbəbdən də dövlət-xalq qarşı-qarşıya gətirilmiş olacaqdı. Bunun yaratdığı zəmin üzərindən də, KCK Türkiyə Respublikası Dövlətinə paralel bir ikinci dövlət olacaq və bu dövlətin bir kütləsini inşa etməyə çalışacaqdı. Dövlətin məhkəməsi KCK-nın məhkəməsi, dövlətin qubernatoru KCK-nın o vilayətdəki məsulu kimi paralel bir nüfuz yaratma səyi olaraq planlaşdırılmışdı.*

*KCK-nın iş üsullarında şiddət hələ mərkəzdədir. Bir hərəkəti terror olmaqdan çıxaran, şiddətə nə qədər müraciət edib-etmədiyidir. Açar söz şiddətdir ... İnsanlar terrorist olduğunuzu düşünür və sizdən qorxduğu üçün bəzi hərəkətlərə qatılırsa, dükanını bağlayırsa, bu bir terror hərəkətidir. KCK-nın Diyarbəkirdəki məsul şəxsi məhkəmə təşkil edir, ona insanlar istəməsə də gedir, məhkəmənin sonunda cəza alırsa, burada qeyri-qanuni bir terror hərəkəti var. Bomba partlamaması onu terror hərəkəti olmaqdan çıxarmaz.(83)*

Siyasi quruluş deyilən təşkilatın, əslində tamamilə PKK-nın nəzarətində, hətta PKK-nın təzyiqi altında olduğunu isə yazıçı-jurnalist Adem Yavuz Arslan bu şəkildə ifadə edir:

*Görünən odur ki, Bələdiyyə başçılarını xalq seçməmiş; KCK ad təklif etmiş və seçilmiş. Heç bir təşəbbüsü yoxdur. Hətta nümayişlərə qatılmadıqları səbəbiylə mühakimə olunub cəzalandırılırlar. Bir təmizlik işçisi Osman Baydemiri hesaba çəkir, cəza verir. (84)*

Bu mərhələdə, Məclis içində yer alan və qanuni siyasət aparan bir qisim partiyaların birbaşa KCK-nın əmri, hətta təzyiqi altında hərəkət etdiyi həqiqəti hər zamankından daha çox ortaya çıxır. Əslində Pervin Buldanın, "Kandil, İmralı və partiya tək bir vücud halında mı hərəkət edirlər?" sualına verdiyi cavaba diqqət etmək lazımdır:

Açıq şəkildə bunu ifadə etməkdə fayda var, Kürd Azadlıq Hərəkatı (PKK-nı nəzərdə tutur) ilə Türkiyədə siyasət aparan təşkilatları bir-birlərindən ayıra bilməzsiniz. Nəticədə azadlıq hərəkatının içində siyasi mexanizmdə vəzifəlilərin yaxınları, qohumları, öz uşaqları var.(85)

Adem Yavuz Arslan isə bu mövzuyla əlaqədar belə davam edir:

*BDP-li (HDP) siyasətçilərlə əlaqədar hissələr isə düşündürücüdür. Çünki, BDP-lilər sanki KCK əlində əsirdirlər. Heç bir təşəbbüsü yoxdur. ... Necə danışacağından tutmuş harada, nə edəcəyinə qədər hər şeyi onlar təyin edir.*

Mövzuyla əlaqədar olaraq jurnalist-yazar Ahmet Altanın bu təyinləri olduqca əhəmiyyətlidir:

*Oxuyun KCK müqaviləsini.*

*Bir diktatorluq konstitusiyasıdır o.*

*Oxuduğum maddələrdən dəhşətə düşdüm.*

*Əvvəl azad izahatlarla başlayır, sonra "tək qərar orqanı" olaraq "liderliyi" göstərir.*

*"Liderliklə"' eyni fikirdə olmayan bir kürd nə edəcək bilmirəm, elə bir ehtimal o konstitusiyanı yazanların ağlından belə keçməmiş.*

*Onlara görə heç bir kürd, heç bir mövzuda "liderlikdən" fərqli düşünə bilməz anladığım qədəriylə.*

*KCK İcra Şurası, Xalq Azadlıq Məhkəməsi Prokrorluğunu vəzifələndirə bilir, hakimləri təyin edə bilir.*

*"Mətbuat komitəsi" isə "ideoloji və milli birliyin möhkəmlənməsinə istiqamətli işlər" icra edir.*

*Həqiqətən belə bir nizamda yaşamaq istəyir mi kürdlər?*

*Türklərin illərcə sürən təzyiqlərindən xilas olmağın tək çarəsi, liderliklə, şuralarla, komitələrlə idarə edilən, "milli birlik" anlayışını qanuniləşdirən bir cəmiyyətdə yaşamaq mı?*

*BDP-li dostlarımız KCK-nin bu "konstitusiyasını" çox müasir və faydalı görürlərsə, eyni maddələri Türkiyənin yeni konstitusiyası üçün təklif edəcəklər mi?*

*Türkiyənin bir "liderliyi", icra şurası, komitələri olsun mu? Prokurorları, hakimləri təyin etmək haqqı şuraya verilsin mi?*

*Əgər bunları Türkiyə konstitusiyası üçün istəməyəcəklərsə, bunları kürdlərə mi rəva görürlər?*

*Türklərin əsla qəbul etməyəcəyi, bu gün artıq kimsənin Türklərə təklif belə edə bilməyəcəyi bir konstitusiya nə səbəbə kürdlərə kürdlər tərəfindən israrlar təklif edilir? (87)*

Bəhs etdiyimiz təşkilat konstitusiyası, PKK tərəfindən kürdlərə israrla qəbul etdirilməyə çalışılır. Bir kommunist diktatorluq konstitusiyasının bizim canımız və hissəmiz olan kürd xalqına KCK yolu ilə qəbul etdirilməsi, əslində Cənub-Şərqə və sonra Yaxın Şərqə istiqamətli necə bir plan qurulduğu da gözlər önünə sərir. Bunu daha yaxşı anlaya bilmək üçün KCK-nın nəyi hədəflədiyini daha yaxından görməkdə fayda vardır.

## 1. Diktatorluq sistemi və liderin bütləşdirilməsi

Kommunist rejimlərdə sistemi idarə edən Lenin, Stalin, Mao, Kim Il Sung kimi diktatorlar, özlərini cəmiyyətin gözündə sanki bir ilah halına gətirəcək kütləvi bir beyin yuma proqramı aparmışlar. İngilis dilində bu liderlərin siyasətini müəyyənləşdirmək üçün istifadə edilən "cult of personality" (insan dini) anlayışı "lider bütləşdirməsini" ifadə edər.

Lenin, Stalin, Mao, Kim Il Sung kimi kommunist diktatorlar kütlələrin itaətinin təmin edilməsi üçün bütləşdirilmişdir. Lider bəzən xalqın üzərində parlayan bir günəş kimi canlandırılmış, bəzən də nəhəng heykəlləri düzəldilərək insanların bu heykəllərin qarşısında səcdə etməsi təmin edilmişdir. Bütün bunların məqsədi, kommunist lideri, dəyişməz bir yol göstərici olaraq təqdim etmək və ona itaət edənlərə yalançı xoşbəxtlik və həyat sevinci gətirən bir yalançı "ilah" olaraq təsvir etməkdir.

PKK-nın lideri Abdullah Öcalan da, ilk kommunist inqilab olan rus inqilabının lideri Leninlə başlayan bu bütləşdirmə üsulunu istifadə edir.

Bu meylin təsirini KCK konvensiyasında "Kürdüstan Demokratik Cəmiyyət Konfederalizmi Qurucusu və Lideri" başlığı altında bəhs edilən 11-ci maddədə görmək mümkündür. Konvensiyada terror təşkilatının lideri, kürd xalqının lideri olaraq göstərilən, xalqın bütün ehtiyaclarını bilən və qarşılayan haşa bir ilah kimi təsvir edilmişdir. Guya o, son qərar orqanıdır, altındakıların hamısı ona tabedir. Liderlik olaraq adlandırılan bu saxta ilahi şəxsiyyətə qarşı çıxmaq maddə 33-də ifadə edildiyi kimi savaş səbəbidir.

Terror təşkilatının lideri Abdullah Öcalan, Demokratik Sivilizasiya Manifestosu adlı kitabında özünü kürd cəmiyyətinin hər şeyini düşünən, planlayan, onlar üçün acı çəkən və onlara azadlıq yolunu açan, kapitalist sivilizasiyaların vəhşiliyi qarşısında Yaxın Şərqdəki kürd xalqlarının hüquqlarını və gələcəklərini qorumağa çalışan bir lider kimi tanıdır.

Öcalanın kitabında özünə ilahi bir görünüş vermə səyi ictimaiyyətdə KCK iddiası olaraq bilinən iddianın hakiminin də diqqətini çəkmişdir. İstanbul Respublika Prokuroru Adnan Çimen hazırladığı iddianamədə, Öcalanın özünü mifoloji və cinsiyyətsiz bir yarı tanrı kimi göstərməyə çalışdığını belə ifadə etmişdir:

*Hətta Öcalan, "Urfadan çıxışını hz. İbrahim (ə.s)-ın İbrani qəbiləsindən çıxışına, tutulması prosesini də hz. İsa (ə.s)-ın çarmıxa çəkilməsinə bənzədərək özünü müqəddəsləşdirir və özünə mifoloji və cinsiyyətsiz bir yarı tanrı sifəti verməyə belə çalışır.*

*Bu səbəbdən, müqavilədə öndərlik olaraq cisimləşdirilməyə çalışılan, Öcalana həm fiziki, həm də ruhani bir şəxsiyyət qazandırır, kürd xalqlarının tək və universal nümayəndəsi olaraq önə çəkilir, Öcalan üzərindən Kürd cəmiyyəti müəyyən bir refleks səviyyəsində tutulmağa çalışılır ...*

Ayrıca, terror təşkilatı liderinin özünü hz. İbrahim (ə.s)-a bənzətməsi də tragikomikdir. Çünki iddianamənin müxtəlif yerlərində ifadə edildiyi üzrə özü kürd xalqının geri qalmasından və digər zərərlərindən din faktorunu məsul tutur. Belə birinin özünü xalq nəzdində müqəddəs qəbul edilən anlayışlarla eyniləşdirməyə çalışması isə sadəcə istismardır.

PKK-nın qurucularından olan lakin daha sonra təşkilatdan ayrılaraq xaricə yerləşən Selim Çürükkaya isə, Öcalanın ona qarşı fikrindəki xəstəlikli ruh halını bu şəkildə ifadə etmişdir.

*Özünü sıravi bir lider görməkdən çox, ulu bir öndər deyə xarakterizə edən Öcalan, PKK içərisində də ululuğunu qəbul etdirmək üçün hər axşamüstü "Canımızla, qanımızla səninləyiz ey öndər" deyə şüar səsləndirərək militanların əbədi olaraq özünə sadiq olmasına çalışmışdır.(88)*

Öcalanın təşkilat üzvlərinə etdiyi bir çıxış da bu mənada diqqətə layiqdir:

*Mən özümü fövqəladə nizamlayan biriyəm. İnsanlığın ən aşağı səviyyəsindən ən ucasına çatana qədər özümü bir tanrı qədər şüurlu, səlahiyyətli və iradəli qılmış vəziyyətdəyəm.(89)*

Necə ki, KCK üzvlərinin texniki təqibdə ələ keçən telefon söhbətlərində Öcalanı peyğəmbər kimi gördükləri aydın olur. "Kəbə" olaraq qəbul etdikləri Öcalanın evini doğum günündə ziyarət edən KCK-lılar "*Təvaf etdik, hacı olduq. Torpağına üz sürdük"* ifadələrini istifadə etmişlər.(90)

Oxşar bir başqa hadisə, Diyarbəkirin Sur mahalında reallaşmışdır. İsgəndərpaşa məhəlləsində olan və BDP-yə yaxınlığıyla bilinən BƏRABƏR-AZAD-VƏTƏNDAŞ dərnəyinin divarına yazılan *"Peyğəmbər Apoya salam.* KCK" yazısı ətrafdakı xalqın reaksiyasına səbəb olmuş və yazı daha sonra bəzi vətəndaşlar tərəfindən boyayla silinmişdir. (91)

Göründüyü kimi, KCK konvensiyasının nəzərdə tutduğu "liderlik" anlayışına görə Öcalan bir ilah olaraq qəbul ediləcək (Allahı tənzih edirik) və bunun nəticəsində də geniş miqyaslı və qanlı bir diktatorluğun nəzarəti altında kommunist sistemi yaradılacaq. Bu kommunist sistemini isə KCK konvensiyasındakı təsvirlər işığında belə araşdıra bilərik:

## 2. KCK konvensiyasının nəzərdə tutduğu ibtidai komunnal cəmiyyət

Karl Marks, bu gün etibarsızlığı qəti olaraq elmi dəlillərlə isbat edilmiş olan Çarlz Darvinin təkamül nəzəriyyəsindən yola çıxaraq tarixi açıqlamış, canlılarda guya ibtidaidən aliyə bir dialektik olduğunu fərz etmiş və bunun tarixə də tətbiq olunmalı olduğunu irəli sürmüşdür. Mərkəzində materializmin olduğu bu saxta anlayışa görə guya tarix ilk insanabənzərlərlə başlayar. İnsanabənzər deyilən bu xəyali canlı nə tam insan, nə də tam qorilladır, ancaq alətdən istifadə etməyi öyrəndikcə guya zaman keçdikcə insana bənzər xüsusiyyətlər qazanmışdır. Bilindiyi kimi, bu saxta hekayə, bu gün uşaqlarımıza məktəb kitablarında hələ də izah edilir.

Daha əvvəlki sətirlərdə açıqladığımız əhəmiyyətli bir həqiqəti bu nöqtədə təkrar xatırlatmaq lazımdır: Elmi dəlillər əsasında canlıların keçmişində ibtidaidən aliyə dəyişmə heç bir şəkildə olmadığı kimi, tarix də ibtidaidən aliyə bir dialektik içində inkişaf etmiş deyil. Bu səbəbdən, "ibtidai" varlıqların yaşadığı "ibtidai" dövrlər heç bir zaman var olmamışdır. İnsanlıq, var edildiyi dövrdən bu yana ağıllı və mədəni cəmiyyətlərdən meydana gələr, hətta elə ki, keçmiş dövrlərdə hal-hazırda sirrinə çata bilmədiyimiz,

bizdən çox daha irəli və mədəni birliklərin yaşadığına dair izlər var. (Ətraflı məlumat üçün baxın. Harun Yəhya, Tarixi Bir Yalan: Daş Dövrü)

Marksın saxta təkamül hekayəsinə görə şərh etdiyi saxta tarix anlayışında yarı çılpaq, meymuna bənzəyən, əlində nizə tutan adamlar, ortada özbaşına gəzən uşaqlar vardır. Qadınlar meyvə toplayar, ya da yemək bişirərlər. Səylərinin böyük bir hissəsi yemək təmin edən bu insanlar hər şeylərini bölüşərlər. Ovladıqları heyvanları ortaya yığar və həmişə birlikdə yeyərlər. Silahlar, yeməklər, hətta qadınlar belə ortaq istifadəyə daxildir.

Materialistlər və xüsusilə kommunistlər bu təsvir ilə yığmanın, acgözlülüyün, eqoizmin olmadığı bir cəmiyyət modeli təsvir etməyi hədəfləyərlər. Marksistlərin iddiasına görə mülk əldə etmə, ailə sahibi olma, yığma kimi bir qayğıları olmayan bəhs edilən xəyali cəmiyyətdə heç bir ictimai qarşıdurma yaşanmayacaqdır. Lakin əslində bu təsvirdəki cəmiyyət elə degenerasiyadır ki, yalnız xüsusi mülkiyyət deyil, ailə, əxlaq və din anlayışı da yoxdur. Bütün dəyərlərini itirmiş belə bir cəmiyyət içində isə qarşıdurmalar, küçə ortasında həyata keçirilən qətliamlar, şiddətli döyüşlər və müharibələr şəklində özünü göstərəcək; əxlaqsızlıq və degenerasiya təsvir edilə bilməz ölçülərə çatacaq.

Dərin dövlətlər, güclü və ya zəif, inkişaf etmiş ya da geri qalmış, demək olar ki, hər ölkənin zəminində iştirak edərlər. Dövlətlərin qərarları, tətbiqləri, tələbləri, sülhləri və döyüşləri daim bu dərin dövlətlərin nəzarəti altında olmuşdur. ABŞ kimi güclü bir ölkə necə dərin dövlətlərin təsiriylə bu gün Yaxın Şərq və kommunist Kürdüstan layihəsini tətbiq edirsə, İran da bu dərin dövlətin siyasəti səbəbiylə, Yaxın Şərqin bir qisim sünniləri tərəfindən təhdid olaraq görülür; Suriya vətəndaş müharibəsi də, Rusiya-İran-Çin dərin dövlətlərinin nüfuzu səbəbiylə həll yolu tapa bilmir. Çox vaxt dövlət başçıları və dövlətlər qərar mexanizmləri üzərində elə gücsüz olurlar ki, siyasiləşməmiş vicdani ifadələri əməlləri ilə tamamilə ziddiyyət təşkil edər. Çünki əməldə mütləq dərin dövlətlərin dediyini etmək məcburiyyətindədirlər.

Türkiyənin də keçmişi, bu qaranlıq dərin dövlət sisteminin ən ürküdücü, ən soyuq və ən mərhəmətsiz şəklinin yaşandığı olduqca dumanlı bir keçmişdir. Bu dövr ərzində müəyyən seqmentlər üzərində təzyiqlər heç bir zaman sona çatmamış, ölkə içində naməlum cinayətlər heç bir zaman ara verməmişdir. Qəyyumluq sistemi bütün ürküdücülüyü ilə dövlətə suveren olmuş, Ergenekon dərin dövləti bütün xainliyi ilə ölkəni dinsiz, faşist bir xəttə doğru aparmağa başlamışdır.

Son 10 ildə dövlət içində dolanmış olan bu terror təşkilatının ifşa edilməsi ölkəmizdə tərtəmiz bir nəfəs təsiri göstərmişdir. Naməlum cinayətlər böyük ölçüdə sona çatmış, dindar təbəqə üzərindəki təzyiqlər demək olar ki, qalxmış, fərqli etnik qruplara istiqamətli şiddət azalmışdır. Türkiyədə dərin dövlət mexanizminin tamamilə yox olduğunu söyləmək çətindir. Belə bir sistemin məhkəmə və ya mətbuat kimi orqanların içinə sızmış bəzi kəslər ilə varlığını hələ də göstərdiyini söyləmək çətin deyil. Lakin köhnə Türkiyə anlayışı böyük ölçüdə məğlub olmuş, xalqımız üzərindəki təzyiqlər azalmışdır.

Keçmişdə, Ergenekon dərin dövlətinin çirkin üzü bütün yurdda müxtəlif şəkillərdə hiss edilərkən, şübhəsiz bunun təsirlərini ən çox hiss edən seqmentlərdən biri kürd qardaşlarımız olmuşdur. Bunu düzəldə bilmək üçün, onların çəkdiyi acıları yaxşı bilmək lazımdır.

## İki təhdid arasında qalan kürdlər

Osmanlı İmperatorluğunun yıxılmasının ardından İraq, Suriya və Türkiyə arasında dağınıq vəziyyətdə qalan (İrandakı əhalisiylə birlikdə dördə bölünmüş olan) kürd xalqı, müxtəlif çətinlik və təzyiqlərlə qarşılaşdılar. İraqda Səddam, Suriyada Əsəd digər bir ifadəylə, Baas rejimləri kürdləri yox etməyə istiqamətli bir təzyiq siyasəti yürütdü. Səddam, kimyəvi silahlardan istifadə edərək kürdlərə qarşı kütləvi qırğın edərkən, Əsəd

kürd xalqının haqq və azadlıqlarından istifadə etmələrinə icazə vermək bir yana, onlara şəxsiyyət vəsiqəsi belə vermir, onları tamamilə yox sayırdı. Türkiyədə isə dərin dövlət zehniyyətinin hakim olduğu dövrlərdə ələvilər, dindarlar, mühafizəçilər kimi kürd vətəndaşlarımız da şiddətli təzyiq gördülər.

Xüsusilə, 90-cı illərdə Cənub-Şərqdə, terror təşkilatı PKK-nın təhdid və təzyiqlərinin kürd qardaşlarımıza yönəldildiyi ən çətin dövrlərdən biridir. Bu dövrün, eyni zamanda Cənub-Şərqdə dövlət yerinə dərin dövlətin hakimiyyət qurduğu və yazılmamış qanunsuz tətbiqlərlə dəhşət yaşatdığı bir dövr olduğu hər kəsə məlumdur. PKK-ya qarşı mübarizə aparan tayfaların belə dərin dövlət tərəfindən hesaba çəkildiyi; dövlətin təyin etdiyi vətənpərvər mühafizəçi qardaşlarımızın PKK agenti elan edilib dərin dövlət rəsmiləri tərəfindən dəfələrlə işgəncə verilməsinə; qardaşı, oğlu və ya qızı dağda olan ailələrin, PKK əleyhdarı olmalarına baxmayaraq davamlı təzyiq altında tutulduğu qorxunc bir dövrdür.

Bu dövrdə xain terror təşkilatı PKK tərəfindən ciddi şəkildə təzyiq görən kənd mühafizəçilərimizin ailələri belə PKK-nın xain güllələrinə hədəf olmuşkən və canlarını Allah rizası üçün vətən uğrunda ortaya qoymuşkən, bir tərəfdən də dərin dövlətin hədəfi halına gəlmişlər. Sorğusuz-sualsız evlərindən çıxarılan bir çox kürd vətəndaşlarımızın bir hissəsindən bir daha xəbər alınamamış, bir qismi isə günlərlə qorxunc sorğulara məruz qalmışlar. Bu dövr, qardaşın qardaşı vurduğu, saysız naməlum cinayətlərin törədildiyi, milyardlarla dollarlıq maddi zərərin Türkiyəni vurduğu bir dövrdür.

Dövlətin səlahiyyətlərini haqsız yollarla istifadə edən dərin dövlətin meydana gətirdiyi qeyri-qanuni təşkilatlar, bölgə xalqına hər zaman təzyiq göstərmiş və pis rəftar etmişlər. Dövlət içinə dolanmış bu şəbəkələr, bölgədə sanki səlahiyyət sahibi dövlət kimi davranıb dövlət əhalisini şəxsi mənfəətləri istiqamətində istifadə edib, bölgədə hər cür qeyri-qanuni fəaliyyəti reallaşdırmışlar. Belə ki, dövrün kənd mühafizəçilərinin izahlarına görə, bölgədə terrora qarşı aparılan mübarizəyə ən böyük zərəri bu kəslər və təşkilatlar vermişlər. (131) Terrorun dayanması da, bir baxımdan, bu dərin təşkilatların fəaliyyəti nəticəsində mümkün olmamışdır.

O dövrdə Cənub-Şərqdə dövlət yoxdur. Məzlum kürd xalqı iki od arasında sahibsiz buraxılmışdır. Yaşadıqları haqsızlıqları, işgəncələri, kabusları şikayət edəcəkləri bir orqan yoxdur. Haqq axtaranlar, yenə, təhdid və işgəncələrlə üzləşirlər. Rəsmi dairələr belə dərin dövlətin himayəsi altında rüşvət çarxının gizlicə işlədiyi yerlərə dönmüşdür. (132) Lakin xalqın, bunu belə şikayət edə biləcəyi bir orqan yoxdur. Haqqında bəhs etdiyimiz dərin dövlətin təzyiqləri ilə media azadlığı tamamilə məhdudlaşdırılmış və bunun nəticəsində də bölgədə yaşanan qırğınlar, naməlum cinayətlər, səbəbsiz həbslər, təzyiqlər və bütün digər problemlər gizli qalmışdır.

Bölgə kəndlərinə saxta səbəblərlə dərin dövlət təşkilatları basqınlar etməyə başlamış, kənd xalqını meydanlara yığaraq onlara göz dağı vermiş, bir çox insanı səbəbsiz yerə tutub aparmışlar. Eyni kəndlərə bu dəfə də gecələri PKK militanları tərəfindən hücum edilir, onlar tərəfindən də təzyiq tətbiq edilir. Alçaq PKK-lılar təşkilatın

təbliğatını apararaq, təzyiqlə pul yığaraq, şübhələndikləri şəxsləri xəbərçi və ya agent deyə qətl edərək daha qorxunc bir zülm edirlər.(133) Dindar kürd xalqımız, bəlkə də ən çox ehtiyacı olduğu bir zamanda yanında dövləti tapa bilməmiş, haqqını tələb edə bilməmiş, haqsızlıqların ən şiddətlisi ilə qarşı-qarşıya qalmışdır.

Ergenekon terror təşkilatı, Türkiyəni hər an qarışıqlıq çıxara biləcək bir zəmində tutaraq dilədiyi anda, istədiyi bölgədə fövqəladə hal elan edə bilmişdir. Ergenekon terror təşkilatı tərəfindən, terrorla mübarizə adı altında kəndlər boşaldılmış, yandırılmış, yüz minlərlə kürd mənşəli vətəndaşımız yaşadıqları yerlərdən köç etmək məcburiyyətində qalmışdılar. Köç edilən Mersin, Adana, Ankara, İstanbul kimi şəhərlərdə kürdlərin yaşadığı gecəqondu məhəllələrində pis şərtlərdə yaşamaq məcburiyyətində buraxılmaları PKK təbliğatlarına uyğun bir zəmin hazırlamış və PKK-nın şəhər qruplaşmasında əhəmiyyətli rol oynamışdır.

Bir çox kürd aydın və ya fikir öndəri və qeyri-qanuni həbs olunmuş və ya sui-qəsd ilə qətlə yetirilmişdir. Bunların çoxunun, Ergenekon-PKK əməkdaşlığı ilə təşkil edildiyi çox yaxşı bilinən bir həqiqətdir.

Dərin dövlət bölgəyə qəsdli olaraq laqeyd yanaşarkən, bölgə xalqına sahib çıxan, iş, aş, imkan və s. təmin edən xilaskar görünüşü verilərək, PKK ön plana çıxarılmışdır. Bölgə qəsdli olaraq sosial-iqtisadi baxımdan geri buraxılmış, xalq şüurlu bir şəkildə yoxsulluğa, səfalətə və cəhalətə tərk edilmişdir. Bütün bunların nəticəsində də məhdud ünsiyyət imkanları da fürsət bilinərək bölgə xalqı "quru təbliğatlarla" yoldan çıxarılmış və dövlət sanki "kürdləri yox etmək istəyən faşist bir güc" olaraq göstərilmişdir.

Şübhəsiz, əvvəlcədən Ergenekon terror təşkilatının da hədəfi, Türkiyəni parçalamaq, canımız kimi sevdiyimiz kürd qardaşlarımızı bizdən ayırmaq və Türkiyədən ayrı bir kommunist Kürdüstan qurmaq olmuşdur. Bunun üçün xüsusilə kürd xalqı üzərində təzyiq tətbiq edərək onları uzaqlaşdırmaq istəmiş, onların bu təzyiq altında Türkiyədən qopmağı tələb etmələrini gözləmişdir. Lakin bu qaranlıq dərin dövlət, kürd xalqının iman gücünü, vətənə və millətə bağlılığını heç bir zaman nəzərə almamışdır. Bu dəyərli xalq, dövlətin özlərini ciddi şəkildə -və yenə dərin dövlətin təzyiqi altında- laqeydlik etdiyi dövrlərdə belə dövlətə olan inanclarını itirməmiş, əsla qopub ayrılmağı düşünməmişlər. Ergenekon terror təşkilatı, məhz bu qətiyyət nəticəsində kürd qardaşlarımız üzərində hazırladığı ssenaridə müvəffəqiyyətsiz olmuş və nəzərə almadıqları böyük bir məğlubiyyətə uğramışdır.

Kürd qardaşlarımız bunu bilməlidir: O dövrdə Cənub-Şərqdə baş verənlərdən xəbərsiz deyilik. Kürd qardaşlarımızın ciddi şəkildə təzyiq altında tutulduqlarını, böyük haqsızlıqlara məruz qaldıqlarını, öz ailələrindən ədalətsizcə itkilər verdiklərini, bir tərəfdən hiyləgər PKK bəlası ilə boğuşarkən, bir tərəfdən dərin dövlətin qatilləriylə mübarizə aparmaq məcburiyyətində olduqlarını çox yaxşı bilirik. Bununla yanaşı, məruz qaldıqları yoxsulluqların, ailə və tayfa daxili təzyiqlərin, feodal sistemin gətirdiyi acıların da fərqindəyik. Kürd dili silinməyə çalışıldığından, kürd mədəniyyət və nənələrinə şiddətlə döyüş açıldığından da xəbərimiz var. Kürd qardaşlarımız üçün həll yolu təklifləri təqdim

edərkən, PKK-ya istiqamətli bir üslub təkmilləşdirərkən bütün bu həqiqətləri bilərək hərəkət edirik.

Yenə PKK-ya qoşulan bir çox kürd gənci üzərində kommunist ifadələrdən çox, məruz qaldıqları ədalətsizliklərin təsirli olduğunun, dağa çıxdıqdan bir müddət sonra da bu gənclərin bir qisminin təşkilat təzyiqindən ötrü bir daha geri qayıtmaqdıqlarının fərqindəyik. Bir çox gənc, terror təşkilatının stalinist, kommunist və dinsiz bir təşkilat olduğunu sonradan fərq etdiklərini açıq şəkildə söyləyir. Yenə hal-hazırda Cənub-Şərqdə və yurdun müxtəlif yerlərində yaşayan kürd gəncləri içində, dərin dövlətin qeyri-qanuni təşkilatlarının özünə, ana-atasına etdiyi pis rəftarlar səbəbiylə dövlətə və Türk şəxsiyyətinə qəzəbli olan və küskün olan bir birliyin olduğunun da fərqindəyik. Bir qisim kəslərin etdikləri kimi bunlara gözlərimizi bağlamış və ya bunları yox saymış deyilik. Kürd qardaşlarımız bu əhəmiyyətli nöqtəni unutmamalıdırlar: Buradakı məqsəd, bütün bunlara həll yolu tapmaqdır.

## Kürd və PKK fərqini doğru etmək

Əvvəlcə dünyanın bəzi super güclərinin, hətta ölkəmizdə də bəzi kəslərin israrla anlamazlıqdan gəldiyi bu həqiqətə vurğu edək: Kürd və PKK ayrı şeylərdir. Kürd; nur, əfəndilik, qürur, şərəf, namus, gözəllik deməkdir. PKK isə adı üstündə pis, alçaq, xaindir. Bir kürdü PKK olmaqla ləkələməyə çalışmaq, ona edilmiş ən böyük təhqirlərdən biridir. Kürd qardaşlarımızın əfəndiliyinə və nəcibliyinə edilən ən böyük böhtandır.

Mövzunun bu istiqamətini bilməyən və ya bu həqiqəti qəbul etmək istəməyənlər ümumiyyətlə, marksist PKK hərəkatını "Kürd müqavimət hərəkatı" şəklində şərh edir və terror hərəkatlarını Cənub-Şərq xalqının hamısını əhatə edən bir hərəkat olaraq qiymətləndirir. Halbuki, bu çox böyük bir yalan və haqsızlıqdır. Daha əvvəl də ifadə etdiyimiz kimi, PKK terror təşkilatı, əslində kürd qardaşlarımızı hədəf almış bir təşkilatdır. Hal-hazırda da qorxu imperatorluğu kürdlər üzərinə qurulmuşdur. Belə ki, PKK-ya qarşı vətəni qoruyan əsgərlərin əksəriyyəti, mühafizəçilərimizin isə demək olar ki, hamısı kürddür. Allah rizası üçün vətən torpaqlarını qorumaq adına PKK-ya qarşı öz canlarını ortaya qoymuşlar.

Bütün kürdləri sanki PKK-ya dəstək verən, Türkiyədən ayrı bir xalqmış və dövlətə qəti olaraq qarşıymış kimi göstərmək də kürd qardaşlarımızın üzərində keçmişdən bəri tətbiq edilən bir başqa oyundur. Bu şəkildə, terror edən bir ovuc kommunist qatillə, şərqli və kürd mənşəli günahsız vətəndaşlarımızı eyni tutmağa çalışırlar. Bu surətlə, Türkiyənin hər tərəfində kürd qardaşlarımıza qarşı nifrət və düşmənçilik mühiti yaradılmağa cəhd edilmişdir.

Kürdlərlə PKK-nı bir göstərmə səyi çox təhlükəli və hiyləgər bir taktikadır. Türkiyənin bir çox yerində kürd vətəndaşlara "PKK" deyilərək hücumlar təşkil edilmişdir. Bu hücumlar da PKK üçün əvəzolunmaz bir təbliğat vasitəsi halına çevrilmişdir. Bölgə

insanına, "Baxın, sizi türklər istəmir, sizə düşməndirlər" imici verilmiş və PKK-nın istifadə edəcəyi bir mühit hazırlanmışdır.

Cənub-Şərqli kürd vətəndaşlarımızın çox böyük bir seqmentinin vətəninə dərin bağlı, dindar və Anadolu əxlaqının bütün gözəlliklərini daşıyan üstün insanlar olduğu həqiqəti görməzlikdən gəlinə bilməz. Allah qorusun, məsələn, bölgədə -bütün silah təzyiqlərindən təmizlənmiş şəkildə muxtariyyət referendumu reallaşdırılacaq olsa, bölünməyə ilk qarşı çıxacaq olanların kürdlər olacağı dərhal görüləcək. Müdrik Adamlar Strateji Araşdırmalar Mərkəzindən (BİLGESAM) Dr. Saleh Akyüreyin kürd problemi üzərinə hazırladığı hesabat, müstəqillik, ya da federasiya tələbinin bölgə xalqı arasında 90%-dən çox olan bir nisbətlə qəbul edilmədiyini ortaya qoymuşdur.

Kürd və zaza vətəndaşlara "Türkiyədəki kürdlərə müstəqillik verilməsi kürd problemi üçün həll yoludur mu?" deyə soruşulmuş, kürd vətəndaşların 90,1%-i bu suala "xeyr" cavabını verərək müstəqillik tələblərinin olmadığını ifadə etmişlər. "Kürdlərə federativ hüquqların verilməsi kürd problemi üçün daimi həll yolu təmin edir mi?" sualına isə kürd vətəndaşlarımız 92,7% nisbətində "xeyr" cavabını vermişdirlər.

PKK da bu həqiqəti bildiyi üçün, xalq üzərində təhdid, təcavüzkarlıq və təzyiq yolu ilə bu hakimiyyəti təmin etməyə çalışır. Bu səbəbdən, bir qisim kəslərin və xüsusilə PKK-nın yaymağa çalışdığı kürd=PKK sözlərinə şiddətli şəkildə qarşı çıxmaq və kürd canlarımızın haqlarını sonuna qədər qorumaq lazımdır. Kürd ilə PKK fərqini çox doğru etmək və bu fərqi açıq şəkildə və israrla xalq arasında yaymaq vacibdir. Bu məlumat, xüsusilə qərb cəmiyyətlərinə israrla çatdırılmalı, dindar və müqəddəsatlı, əfəndi və nəcib kürd xalqı ilə namərd bir kommunist təşkilat olan PKK-nın fərqi izah edilməlidir.

## Sevgi olmadan həll yolu olmaz

Keçmişin acıları şübhəsiz ki, dərin izlər buraxmışdır. Lakin bu günə baxdığımızda əhəmiyyətli olan nöqtə budur: İnkişaf etdirilən sevgisizlik və inamsızlıq mühitinin düzəldilməsi mümkündür. Bu isə yalnız və yalnız sevgi və azadlıqlar yolu ilə edilə bilər.

Kürdlər, imanlı, dərin və əfəndi təbiətli bir millət olduqlarından daim nəcibdirlər. Nurlu və dürüst insanlardır, insana və dostluğa əhəmiyyət verirlər, hörməti mükəmməl bilirlər. Anadolu əxlaqının gözəlliyini ən möhtəşəm şəkildə yaşayan insanlardandırlar. Bu səbəbdən, bu gözəl əxlaqlı insanlar hər şərtdə və hər şəraitdə ən mükəmməl davranışa layiqdirlər.

Bu mövzuda hökumətimizin ayrı, xalqımızın isə ayrı üzərinə düşən vəzifələr var. Keçmişin acılarını düzəltmək üçün hökumətimiz də, xalqımız da kürdlərə xüsusi və imtiyazlı bir üslub inkişaf etdirməlidirlər. Keçmişdə kürdlərin görmədiyi sevgini hər kəsdən çox onlara göstərməlidirlər. Keçmişin kəffarəsini bu şəkildə ödəməlidirlər.

## Hökumətimizin üzərinə düşən vəzifələr:

Bu mövzudakı təkliflərə keçmədən əvvəl, Ak Partiya hökumətinin 2002-2015 illəri arasındakı 13 illik iqtidarı boyunca, Cənub-Şərqə istiqamətli olaraq, daha əvvəlki illərdə reallaşdırılmış çox böyük yeniliklərə imza atdığını ifadə etmək lazımdır. Bunlar xülasəylə:

• OHAL (Fövqəladə Hal) tətbiqi qaldırıldı.

• Vətəndaşların uşaqlarına kürd dilində ad verməsinin önündəki maneələr qaldırıldı.

• Siyasi partiyaların bağlanılması çətinləşdirildi.

• Kürd dilində nəşr qadağası qaldırıldı.

• Kurd dilində kursların açılmasına imkan yaradıldı.

• Müxtəlif dil və ləhcələrdə radio və televiziya yayımına imkan təmin edildi.

• Müxtəlif dil və ləhcələrdə reklam edilməsinə icazə verildi.

• TRT 6 kanalı 24 saat kürd dilində verlişlər verməyə başladı.

• 10 yanvar 2015-ci ildə TRT 6-nın adı TRT Kurdi olaraq dəyişdirildi.

• Xüsusi televiziya və radio qurumlarına müxtəlif dillərdə 24 saat yayın imkanı təmin edildi.

• Universitetlərdə müxtəlif dillərdə əsas elm sahəsi, institut, bölüm açma, seçməli dərs imkanları təmin edildi. Kürd dili və ədəbiyyatı bölmələri quruldu.

• Universitetlərdə kürdoloji kitabxanaların qurulmasına icazə verildi.

• Müxtəlif dillərdə mədəni fəaliyyətləri dəstəkləmə qərarı alındı. Kürd dilində filmlərə dəstək verildi.

• Həbsxanalarda məhbus və məhkumların yaxınlarıyla ana dillərində görüşmələri təmin edildi.

• Çağrı mərkəzlərində türk dilini bilməyən vətəndaşlara istiqamətli xidmət imkanı təmin edildi.

• Əhəmiyyətli bölgələrdə kürd Kürd açılım qrupu təşkil edildi.

• Yaşayış yerlərinə köhnə kürdcə adların qaytarılması təmin edildi.

• Müxtəlif dillərdə siyasi təbliğat edilməsi üçün şərait təmin edildi.

• Mədəniyyət və Turizm Nazirliyində kürd dilində bəzi əhəmiyyətli əsərlər nəşr olundu.

• Yayla və otlaq sahələri yenidən istifadəyə verildi, kəndə geri qayıtmağa başladılar.

• Kürd dili, ilk dəfə TBMM kataloqunda yer aldı.

• Diyarbəkirdəki həbsxanada yaşananlarla əlaqədar istintaq komissiyası yaradıldı.

• Kürd dili teatr oyunlarının səhnələşdirilməsinə icazə verildi.

• Kürd dilində musiqi albomu çıxdı.

• Yerli din adamlarının (Mele-lərin) Dövlət tərəfindən məşğulluğuna imkan təmin edildi.

• Şübhəlilər üçün ana dildə müdafiə imkanı təmin edildi.

• Türk Dil Qurumu Türkcə-Kürdcə lüğət nəşr etdi.

• Anadolu Agentliyi kürd dilində nəşrə icazə verdi.

• 8 mart 2015-ci ildə Hökumət GAP Tədbirlər Planını açıqladı. Planda, əkinçilikdən turizmə, təhsildən səhiyyəyə, Cənub-Şərqi Anadolu Bölgəsinin inkişafı üçün 26.7 milyard dəyərində ümumi 115 layihə var.

• Kurd dilində Quranı Kərim nəşr olundu.

• Bölgədə çox sayda anbar, hava limanı, xəstəxana və məktəb tikildi.

• Bütün qanunlarda demokratikləşmə və həll prosesi mövzusunda onlarla tənzimləmə edildi.

Sırf bu maddələrə baxıldığında belə tarixi inkişafların yaşandığı, çox böyük addımların atıldığı ortadadır.

Mövcud hökumətimiz keçmiş hökumətlərdən olduqca fərqli irəliləyişlərə imza ataraq, kürd qardaşlarımızın rifahı üçün əhəmiyyətli inkişafları həyata keçirmiş, kürdlərin hüquqlarına sahib çıxmışdır. Şübhəsiz, bu irəliləyişlər yalnız kürdlərə qarşı deyil, ölkəmizdə yaşayan bütün digər etnik qruplara, ələvilərə və digər azlıqlara istiqamətli də reallaşdırılmışdır. Bütün bunlar olduqca sevindirici və qürur vericidir. Həmçinin, bu daha çox demokratikləşmə üçün də zəruridir. Bütün bu açılımlarla bərabər, keçmişdə çox əskik buraxılmış bir boşluğun da aradan qaldırılması, bunun üçün səy göstərilməsi lazımdır. Bu əskiklik sevgidir. Bu sevgi yanaşmasına -keçmişi düzəltmək naminə ələvilər, yunanlar, ermənilər, musəvilər, xristianlar, qısacası keçmişdə etinasız qalan bütün etnik və inanc qrupları daxil edilməlidir. Lakin buradakı mövzumuz kürdlər olduğu üçün bu mövzunu ayrı müzakirə edəcəyik.

Cənub-Şərqdə yolların, hava limanlarının, körpülərin düzəldilməsi əlbəttə əhəmiyyətli hadisələrdir. Lakin bundan daha əhəmiyyətlisi kürd xalqımızın ürəyini qazanmaqdır. Bunun üçün mütləq sevgi siyasətini əsas götürən tədbirlər təşkil edilməli, kürd qardaşlarımız dövlət tərəfindən həm qorunduqlarını, həm də sevildiklərini hiss etməlidir. Hökumətimizin, kürd qardaşlarımızın haqq və azadlıqları istiqamətində yuxarıda saydığımız açılımlarından da aydın olacağı üzrə, bu sevgi siyasətinin təcili olaraq tətbiq ediləcəyinə inancımız tamdır. Lakin təbii ki, bu mövzuda əsas olan PKK terrorunun və terroristlərinin bölgədən silinməsidir. Hal-hazırda gəlinən nöqtədə bu mövzuda bəzi tədbirlər görülsə də daha əhatəli və mütəşəkkil bir müdaxilə ilə bölgədəki

bütün terrorçuların tez-tələsik tutulmaları və bir an əvvəl həbs olunmaları lazımdır. Bu, bölgə xalqının təhlükəsizliyi üçün çox zəruridir.

Bu mövzuda bu əhəmiyyətli xüsus mütləq nəzərə alınmalıdır: Hazırda hökumət tərəfindən Cənub-Şərq vilayətlərimizə təyin olunmuş bir qisim valilərin və dövlət işçilərinin özündən razı, insanlara təpədən baxan, qürurlu, qürur sındıran, lağ edən, haldan anlamayan və sevgisiz rəftarlarının olmamasına diqqət göstərilməli, belə şəxslərə vəzifə verilməməli və belə bir vəziyyətlə qarşılaşanda əlaqədar kəslər dərhal vəzifədən kənarlaşdırılmalıdır. Bu bölgələrə dövlətin sevgi və şəfqətini təqdim edə biləcək, gülər üzlü, hörmətli və sevgi dolu, əzmli və xidmət əhli, mədəni, keyfiyyətli, qarşısındakını alçaltmaqdan həya edən, gözəllikləri təriflməsini bilən valilərin təyin edilməsi lazımdır. Hökumətimiz bu bölgələrdə, cəmiyyətləri bir-birlərinə birləşdirəcək müxtəlif fəaliyyətləri həyata keçirməli, onlara təhsil, sənət və elm kimi mövzularda kömək etməli, dövlətin dəstək və sevgisinin hər an yanlarında olduğunu hiss etdirməlidir.

Kürd bölgəyə kürd valisi anlayışı da tərk edilməli, kürdləri bir irq olaraq təcrid etmə görünüşü ortadan qalxmalıdır. Kürd valilər yurdun digər seqmentlərinə, yurdun digər seqmentlərindən də valilər Cənub-Şərqə təyin edilərək tək bir vətən üzərində tək bir millət olaraq qaynayıb-qarışdığımız göstərilməlidir.

Hökumətimizin azad və təsirli şəkildə hərəkət edə bilməsi üçün bölgədəki bir qisim Mülki Hökümət Quruluşlarından (MHQ), yerli dini liderlərdən, tayfa liderlərindən, yerli radio və Tv-lərdən, sevgi üslubundan istifadə edən, kommunist və faşist fəlsəfəyə qarşı olub İslam Birliyini müdafiə edən ziyalılardan dəstək alınması gözəl olacaq.

Bu dəstək ilə xüsusilə bölgədə milli və mənəvi birlik, qardaşlıq üzərinə konfransların, filmlərin, sənədli filmlərin yayımlanması vacibdir. Mədəniyyəti korlayan yox; Allaha, Qurana iman həqiqətlərinə, Quran möcüzələrinə, elmə, incəsənətə, gözəlliyə, keyfiyyətə, mədəniyyətə, sevgiyə, insanları sövq edən siyasətlər izlənilməlidir. Bunlar üçün internet və media yolu ilə böyük bir səfərbərlik edilməlidir.

Xüsusilə ictimai mediada sevgi, sülh əsaslı, müasir, keyfiyyətli, elmi bir baxışla Böyük Türkiyə, İslam Birliyi ideallarını mənimsədəcək bir səfərbərlik edilməlidir. Bu siyasət daxilində keyfiyyətsizliyə, sevgisizliyə, nifrətə, mövhumatçılığa əsla icazə verilməməlidir. Xurafatlara, bidətlərə yol verilməməlidir.

RTÜK-ə bağlı bütün televiziya və radiolar bu təhsil səfərbərliyinə daxil edilməlidir.

Səddam kürdlərə zülm etdiyində, Əsəd qətliam etdiyində və ya PYD-nin zülmü əsnasında kürdləri həmişə Türkiyə qorumuş və xilas etmişdir. Hər cür ehtiyaclar səmimi şəkildə və gözəlliklə qarşılanmışdır. Kobanili kürd qardaşlarımıza ölkəmizdə ən gözəl şəkildə qucaq açılmışdı. Bütün bu faktlar tarixi məlumat və sənədlərlə ətraflı olaraq izah edilməli, kürd qardaşlarımıza istiqamətli keçmişdəki sevgisiz yanaşmaların, hədəfləri fərqli olan Ergenekon terror təşkilatı və PKK bəlalarından qaynaqlandığı israrla ifadə edilməli, kürd qardaşlarımızın daim Türk dövlətinin və millətinin mühafizəsi altında olduğu hiss etdirilməlidir.

## Xalqımızın üzərinə düşən vəzifələr:

Türk xalqı içində özünü "Ağ türk" olaraq adlandıran insanlardan bir qisminin bu təsvirin ardına sığınaraq ürküdücü irqçilik siyasəti irəli sürən, bu siyasətə görə Türkiyə üzərində yalnız kürdləri deyil, başqa irqləri də istəməyən bir dəstə olduğu bilinir.

İrqçilik, cəhalətdən də artıq bir ruh xəstəliyidir. Dünyadakı hər kəs hz. Adəm (ə.s)-ın nəslindəndir, bu səbəbdən hər kəs bərabər yaradılmışdır. Özünü darvinizmin azdırıcı təsirləri və ya başqa səbəblərlə üstün görən anlayış, haqqında bəhs etdiyimiz insanın həm darvinizm cəfəngiyatına inanacaq qədər cahil, həm də bundan nifrət ifadəsi çıxaracaq qədər xəstə bir zehniyyət olduğunu göstərir. Bu səbəbdən, irqçilik edən bir insanı, normal və sağlam ağılda biri olaraq saymaq və onunla bu mənada təmasda olmaq doğru deyil.

Uca Rəbbimiz Quranda üstünlük ölçüsünün irq deyil, yalnız və yalnız təqva olduğunu bildirmişdir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən üstün (kərim) olanınız, (irq və soya görə deyil) təqvaca ən öndə olanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

Yenə özlərini bir şəkildə "Ağ Türk" olaraq adlandıran bu insanlar arasında, kürdlərin mədəniyyətlərini və şəxsiyyətlərini özünə uyğun görmür, eqoizm və qürurdan gözləri və ruhları kütləşmiş, maddiyyat və təhsil ilə üstünlük qazanıldığını zənn edən bir seqment, ölkənin yalnız Qərb xəttindən meydana gəlməsini istəyir və Cənub-Şərqin ayrılmasında öz ağıllarına görə bir problem görmür. Bu kəslərin, kürd qardaşlarımızın kommunistlərin əllərinə düşməsi və əzilmələri veclərinə belə deyil. Bəla özlərinə toxunmadığı müddətcə, eqoist və materialist dünyalarının içində sevgisiz bir həyat yaşamağa davam edərlər.

Unudulmamalıdır ki, bəhsi keçən "Ağ Türklər"in bir qismi, bəhs etdiyimiz eqoizm və qürur dolu rəftarlarını yalnız kürd qardaşlarımıza deyil, ölkədəki bütün azlıqlara, hətta kasıblara, kəndli qardaşlarımıza, təhsil səviyyəsi aşağı şəxslərə, daha da irəli gedərək xəstələrə və şikəstlərə belə göstərirlər. Bunun şübhəsiz ən əsas səbəbi, təsirində qaldıqları materialist zehniyyətin üzərlərində buraxdığı fövqəladə mənfi ruh halı və vicdan zəifliyidir. Haqqında bəhs edilən kəslər, təəssüf ki, bu sevgisiz ruh halının itkisini əslində özləri çəkir, daxillərində bəslədikləri sevgisizlik əslində özlərinə zərər verir.

Bu da bir həqiqətdir ki, yuxarıda saydığımız bu fikirdəki kəslər, ölkəmizin çoxluğunu təşkil edir. Xalqımızın əksəriyyəti, kürdlərin, dürüstlük, əfəndilik, düzgünlük baxımından çox üstün birlik olduğunun fərqindədir. Kürdlərin qüruru, bütün millətimizə nümunə olacaq gözəllikdədir və bu qardaşlarımız, yüksək əxlaqın ən mükəmməl təcəlli etdiyi kəslərdir. Əsla yalan söyləməz, onların şərəfinə yaraşmayan bir işə girişməzlər, dürüstlükdən güzəştə getməzlər. İllərcə əzab çəkmək, əziyyətlərə dözmək insanı çox

gözəl tərbiyə edər və acı çəkən insanlar həmişə nəzakəti və sevgini ən çox bilən insanlar olurlar. Məhz bu səbəblə, kürdlərin dəyəri bir çox insandan qat-qat üstündür.

Millətimizə düşən, özünü bilməz bir qisim "Ağ türklərin" iddialarını və tələblərini boşa çıxaracaq şəkildə kürdlərə sahib çıxmaqdır. İstər göstəriləcək sevgi ilə, istər qardaşlığı təşviq edən yazılar ilə, istərsə də ictimai mediadakı kampaniyalar ilə bu sevgisiz azlığın pis təlqinlərini aradan qaldırmaq olar. Xalqımız, kürdlərin illərcə çəkdikləri əzablara şərik olduqlarını, PKK-ya və zalım dərin dövlətlərə qarşı birlikdə mübarizə aparacaqlarını göstərən cəhdlər etməlidirlər.

Kürd qardaşlarımıza düşən isə haaqında bəsh etdiyimiz özünü bilməz azlıqların sözlərinə və əməllərinə heç bir şəkildə etibar etməmələridir. Allah mütləq haqqı və doğrunu hakim edər. Zalım şəkildə düşünənlər, Allah Qatında nə qədər aciz olduqlarını bilmədən, cahillliklə təkəbbür göstərməyə çalışanlar, Allahın qanununa görə mütləq məğlubiyyətə uğrayacaqlar. Bu səbəbdən, kürd qardaşlarımıza düşən, doğru və dürüst davranmağa davam etmələri və daim yaxşılarla birlikdə hərəkət etmələridir. Kürdlərin haqqını müdafiə edən bu ölkədə çox doğru, vicdanlı və dürüst insanlar vardır.

Unudulmamalıdır ki: Hər acı, daha çox sevgi və daha çox azadlıqla qarşılıq görməlidir. Bizlər bu acıları sevgi və azadlıqlarla düzəltməyə hazırıq. Bunun üçün də bütün gücümüzü istifadə edəcəyik. Bu səbəbdən, bundan sonra edilməli olan, sevgi insanları ilə ittifaq içində yeni bir başlanğıc qurmaqdır. İslam Birliyi, irq və din ayrı-seçkiliyi olmadan bütün insanları əhatə edəcək böyük məqsəddir. Kürd qardaşlarımız bizimlə bu məqsədi paylaşmalı və zalımın gücünün olmadığı, haqsızlıqların qalmadığı, ədalətli və hüzurlu dövr birlikdə inşa edilməlidir.

Rəbbimiz bildirmişdir:

**... Allah batili məhv edib-ortadan qaldırar və haqqı Öz sözləri ilə bərqərar edər. Çünki O, ürəklərdə olanları biləndir. (Şura surəsi, 24)**

# 8-Cİ HİSSƏ

# DÜNYANIN QURTULUŞ VAXTI YAXINDIR

Çətinliklərlə, bəlalarla, döyüşlərlə, ədalətsizliklərlə sarsılan dünyanın qurtuluş vaxtı yaxındır. Bunun üçün dua etmək; bir az qətiyyət, bir az səbir və bir az fərasət göstərmək və Uca Rəbbimizin vədinə güvənərək əlimizdən gələni etmək tələb olunur.

Həll yollarını göstərmədən əvvəl illərcə çətinlik altında əzilmiş kürd qardaşlarımıza və Yaxın Şərqdə Böyük Kürdüstan xəyalı quran bir qisim qərblilərə müxtəlif xatırlatmalarımız vardır. Bu xatırlatmalar mütləq nəzərə alınmalıdır.

## Qərb dünyasına xatırlatma

Hal-hazırda Yaxın Şərq planları adına PKK-nı dəstəkləməyin işlərinə yarayacağını düşünən şəxslərə bir xatırlatmamız var. Hər nə qədər bütün inkişaf etmiş imperialist ölkələrin dəstəyini alsanız da, çox böyük ehtimalla hadisələr sizin gözlədiyiniz şəkildə irəliləməyəcək, kitabın əvvəlki səhifələrində ətraflı izah etdiyimiz kimi, haqqında bəhs etdiyimiz bölgə, kommunist dünya dövlətinə doğru çıxış qapısı olacaq. Kommunizm şiddət üzünü qısa müddət içində göstərəcək, bütün dünya kommunistlərindən alınan dəstək ilə uzun zamandır atılması planlaşdırılan o irəli addım atılmış olacaq. Bir mənada kommunizm əleyhdarı ittifaq içində olan kapitalist dünya, - bilmədən də öz əlləriylə kommunist bir dünya dövləti meydana gətirmiş olacaq. Amerikanın Koreyadakı və Vyetnamdakı mübarizəsi, illərdir davam etdirdiyi soyuq müharibə, tamamilə boşa getmiş olacaq.

Əgər Türkiyədə PKK, Suriyada PYD və İranda PJAK qruplaşmalarının əsl mahiyyəti aydın olmaz, əsl hədəfləri nəzərə alınmaz və bu mövzuda edilən bütün xəbərdarlıqlara baxmayaraq Yaxın Şərqin bu kilid nöqtəsində təhlükəli bir oyun oynanırsa, bu, bütün dünya üçün böyük fəlakətlərin qapısını açacaq. Kommunistlərin hədəfi daim dünyaya çıxış etmək üçün strateji və eyni zamanda son dərəcə davamsız bir bölgədə dövlət yaratmaq olmuşdur. Və imperialist güclərin dəstəyi ilə buna addım-addım yaxınlaşırlar. İmperialist qüvvələr, özlərini də vuracaq dəhşətli bir sistemi dəstəkləməməlidirlər. Zəmanəmizdə Yaxın Şərqdə heyrətlə izlənilən hadisələr baş verir. Belə bir plan daxilində ortaya çıxan bir kommunist dövlət də gözlənilməz şəkildə güclənib dünyaya dəhşət saçmaq gücünə qısa müddətdə sahib olacaq. Məhz belə bir vəziyyətdə, qərbin "Yaxın Şərqdə nə olursa olsun, biz qarışmayaq," deyə kənarda gözləmək kimi bir rahatlığı olmayacaq, çünki, Allah qorusun, bəla mütləq hər cəbhəyə yayılacaq. Nə Yaxın Şərqdə, nə də qərb bölgəsində belə bir vəhşiliyin yayılması əlbəttə istəyəcəyimiz bir şey deyil. Lakin mövcud həqiqətlər daxilində, qarşılaşılacaq olan ssenari budur və bu təhlükə

mövzusunda zəruri xəbərdarlığı etməmiz lazımdır. Burada məqsəd pessimist dünyagörüşü təqdim etmək deyil, bu mövzuda diqqətləri açmaqdır.

## Kürd qardaşlarımıza xatırlatma

Haqlı səbəbləri olsa belə qəzəb, insanı doğru və ağıllı düşünməsinə mane olan, haqq olanı tətbiq etməyi əngəlləyən və ən əhəmiyyətlisi də Allahın bəyənmədiyi bir davranışdır. Keçmişdə yaşananlar səbəbiylə ürəyindəki qəzəbi heç cür silə bilməyən kürd qardaşlarımız, bu həqiqəti doğru düşünməli və PKK bəlasının ortadan qalxması və güclü bir millət olaraq birlikdə var olmaq üçün yeni bir başlanğıc etməlidirlər. Özlərini sevən, onlara dostluq əlini uzadan qardaşlarıyla birlikdə, bütün dinlərin və bütün irqlərin birlikdə yaşadığı, Qurandakı həqiqi demokratiyanın və ədalətin əsas alındığı, mövhumatçılıq və xurafatların tərk edildiyi, hüzur və rifah mühitinin hakim olduğu bir birlik üçün səy göstərməlidirlər. Türkiyəni və kürd qardaşlarımızı İslam coğrafiyasından ayırmağa çalışan terrorist PKK bəlasının aradan qaldırılması və kürdlərə layiq olduqları, layiq olduqları dəyərin verilməsi üçün səmimi müsəlmanlarla birlikdə mədəni və ideoloji bir mübarizə aparmalıdırlar. Bu ideoloji mübarizə, kürd qardaşlarımızın başına bəla olmuş hər cür qanunsuz fikir və təşkilatı aradan qaldırmaq və bir daha belə bəlalarla qarşılaşmamaq üçün zəruridir. Canımız kimi sevdiyimiz kürd qardaşlarımızla birlikdə etməli olduğumuz həqiqət İslamın möhtəşəm ruhunun yaşandığı, cəmiyyətlərin, xalqların, ölkələrin və insanların birlikdə hüzur içində yaşadıqları İslam Birliyinin bir an əvvəl təsis edilməsidir.

## İslam Birliyi, amma necə?

Zəmanəmizdə İslamofobiya ilə qarşı-qarşıya qalan qərb cəmiyyətləri də, uzun zamandır dindən uzaq bir sərhəddə çatmış bir qisim kürd gəncləri də, İslam Birliyi ifadəsini eşitdiklərində narahatlığa qapılırlar. İslam adı altında mövhumatçılıq bəlasının bütün dünyaya hakim olacağını, demokratiyanın ortadan qalxacağını, bütün digər din mənsublarının və ya ateistlərin qətl ediləcəyini, qadınların həyatın hər sahəsində istər fiziki, istərsə də mənəvi zülm görəcəklərini, dünyanın qan rəvan içində qalacağı bir müharibə mühitinin hakim olacağını düşünürlər. Halbuki, bu təsvir İslamın deyil, xurafatın tərifidir. Həqiqi müsəlmanlıq tətbiq olunarsa, yaşanacaq olan İslam Birliyi; müharibələrin tamamilə sona çatdığı, qadınların üstün tutulduğu, bütün cəmiyyətlərin və bütün dinlərin birlikdə təhlükəsizlik içində yaşadığı, demokratiyanın və azadlıqların hakim olduğu, ölkələrin öz sərhədlərini qorumaları şərti ilə bütün sərhədlərinin açılacağı, yalnız müsəlman ölkələri deyil, Çin, Rusiya, İsrail, ABŞ, Avropa ölkələri kimi dünyadakı bütün ölkələri əhatə edən mükəmməl bir birlik olacaq. Bu birlik, sülhün və sevincin hakim olacağı, düşmənçiliyin sona çatacağı, aclıq, qorxu, qıtlıq və yoxsulluqların aradan qalxdığı bir birlik olacaq. İslam adına həyata keçirilən qırğınlar, mövhumatçılıq,

radikalizm ancaq və ancaq həqiqi İslam örtüyü altında qurulmuş olan bu birlik vəsiləsiylə ortadan qalxacaq. Dünyada radikalizmin sona çatmasının yeganə yolu budur. Bütün bu şərtlər altında, ABŞ-ın da, dəyərli, üstün əxlaqlı kürd qardaşlarımızın da, dünyadakı bütün digər ölkələrin də həqiqi demokratiya axtarışı içində istəmələri lazım olan sistem əslində budur.

PKK-nın hədəfi, daha əvvəl də ifadə etdiyimiz kimi, Türkiyənin şərqdəki sərhədlərinə hakim olaraq, Türkiyəni İslam coğrafiyasından tamamilə ayırmaq və bütün dünyanı böyük bəlalardan xilas edəcək olan İslam Birliyinin meydana gəlməsinə maneə törətməkdir. Bu səbəbdən, PKK dünyanın sülh mühitinə çevrilməsini bütün gücüylə əngəlləməyə çalışır. Qərb cəmiyyətlərinin də, kürd qardaşlarımızın da bunun ciddi şəkildə fərqində olmaları olduqca əhəmiyyətlidir.

Qərb dünyası, əgər həqiqətən dünyada sülhü hədəfləyirsə və radikalizm təhlükəsinin ortadan qalxmasını istəyirsə, o zaman tərifini etdiyimiz və Quranın əsasındakı demokratiya anlayışını əsas götürən İslam Birliyinin dəstəkçisi olmalıdır. Kürd qardaşlarımız əgər illərdir davam edən ədalətsizliklərdən, irqçilikdən, kommunist terrordan xilas olmaq istəyirlərsə, yenə Quranda Allahın bizlərə təsvir etdiyi ədalətin əsas götürüldüyü İslam Birliyini müdafiə etməlidirlər. Bu birlik, Allahın izni ilə mütləq reallaşacaq və dünyaya sülh və hüzur mütləq hakim olacaq. Lakin Uca Rəbbimiz, bunun üçün səy göstərməyimizi və ideoloji bir mübarizə ilə hər cür bəlanı aradan qaldırmağımızı istəyir. Bunun üçün qərb ölkələrinin liderləri də, kürd qardaşlarımız da yalnız Quranı əsas alan səmimi müsəlmanlarla ittifaq etməli və həqiqi çıxış yolunun bu ittifaqla təmin edilə biləcəyini bilməlidirlər.

## Hz. Mehdi (ə.s) müjdəsi

Bu bilinməlidir ki, demokratiya, sülh, sevgi və dostluğu özü ilə gətirəcək olan həqiqi İslam anlayışı, mütləq dünyadakı radikalizm və xurafatları aradan qaldıracaq. Bunu reallaşdıran isə hz. Mehdi (ə.s) olacaq. Hədis və rəvayətlərə, eyni zamanda Tövrat və İncildə bəhs edilən hədislərlə uyğun şərhlərə görə, yaşadığımız dövr hz. Mehdi (ə.s)-ın zühur dövrüdür. Axırzamana aid hədislərdə bəhs edilən və tamamilə möcüzə hökmündəki bütün əlamətlərin olduqca qısa bir zaman kəsiyində reallaşması, hz. Mehdi (ə.s)-ın gələcəyi Axırzamanın içində olduğumuzun çox əhəmiyyətli və qəti dəlilidir. Hz. Mehdi (ə.s) dövründə yaşadığımızın bütün dəlillərini, reallaşan bütün əlamətləri bu kitabdan oxuya bilərsiniz: Harun Yəhya, hz. İsa (ə.s) və hz. Mehdi (ə.s) bu əsrdə gələcək, http://www.harunyahya.org/tr/Kitaplar/16450/

Hz. Mehdi (ə.s)-ın gəlişiylə birlikdə, Peyğəmbərimiz (s.ə.v)-in vəfatından sonra dünyaya yayılmış olan bütün bidətlər ortadan qalxacaq, xurafatlar yox ediləcək və Quranın əsasında olduğu kimi bütün dünya tam mənasıyla sülh və təhlükəsizliyə qovuşacaq.

Hz. Mehdi (ə.s) müharibədən qaçan, sülh insanıdır. Hz. Mehdi (ə.s) müharibə ilə deyil, sevgi ilə, Allahı xatırlayaraq gözəl əxlaqı dünyaya hakim edəcək. Hz. Mehdi (ə.s) dövründə müharibələr dayanacaq, insanlar sülhə və sevgiyə yönələcək, tək bir insanın burnu belə qanamayacaq. Bu həqiqət bir çox hədis ilə xəbər verilmişdir:

*İnsanlar, bal arılarının bəyləri ətrafında toplanması kimi, hz. Mehdi (ə.s)-ın ətrafında toplanarlar. Daha əvvəl zülmlə dolu olan dünyanı, ədalətlə doldurar. Ədaləti elə olar ki, YUXUDA OLAN BİR KİMSƏ BELƏ OYANDIRILMAZ VƏ BİR DAMLA QAN BELƏ AXIDILMAZ. Dünya, sanki Əsri-Səadət dövrünə geri qayıdar. (135)*

*Ona [Hz. Mehdi (ə.s)-a] beyət edənlər, [Kəbə ətrafındakı] rükun və məqam arasında beyət edərlər. YATANI OYANDIRMAZ, ƏSLA QAN TÖKMƏZLƏR.(136)*

Hz. Mehdi (ə.s)-ın zühur dövrü, eyni zamanda hz. İsa (ə.s)-ın da nüzulunu görəcəyimiz dövrdür. Hz. Mehdi (ə.s) dövründə bütün silahların susacağı, müharibələrin sona çatacağı; hz. İsa (ə.s)-ın gəlişi və hz. Mehdi (ə.s)-ın zühurundan sonra yer üzünə ədalət, sülh və sevginin hakim olacağı hədislərdə belə xəbər verilmişdir:

*Müharibə (ərbabı) da ağırlıqlarını (silah və əşyalarını) atacaqlar. (137)*

*Düşmənçilik və kini də ortadan qaldıracaq... Qab su ilə dolduğu kimi yer üzü sülhlə dolacaq. Din birliyi də olacaq, artıq Allahdan başqasına ibadət edilməyəcək. Müharibə də ağırlıqlarını buraxacaq. (138)*

*Heç kəs arasında düşmənçilik qalmayacaq və bütün düşmənçiliklər, boğuşmalar, həsədləşmələr şübhəsiz itib gedəcək. (139)*

Hz. Mehdi (ə.s)-ın gəlişi, yalnız müsəlmanlar, musəvilər və xristianlar üçün deyil, dünyadakı bütün insanlar üçün bir müjdədir. Onun gəlişi ilə yer üzündə ədalət tam mənasıyla hakim olacaq, insanlar axtardıqları sevgi, hüzur, bolluq mühitinə hz. Mehdi (ə.s)-ın gəlişi ilə qovuşacaqlar. Hal-hazırda yaşadığımız bütün hadisələr, qarşılaşdığımız bütün dəhşət və vəhşilik ssenariləri hz. Mehdi (ə.s)-ın gəlişinin əvvəlində reallaşması onsuz da gözlənilən hadisələrdir. Hətta bu kitabın əsil mövzusunu təşkil edən PKK-nın belə bir dövrdə ortaya çıxması belə, hədislərdə bildirilmişdir:

*Şam nahiyələrinin bir az kənarında FIRAT ƏTRAFINDA böyük bir ordu toplanar, mal üstündə vuruşarlar. HƏR DOQQUZ NƏFƏRDƏN YEDDİSİ ÖLDÜRÜLƏR. Bu, Ramazan ayında eşidilən, şiddətli səs-küylü yıxılma və qorxudan sonra və ÜÇ SANCAĞIN ayrılmasından sonradır. Onlardan hər biri mülkü (idarəni) özləri üçün istəyər, içlərində ABDULLAH ADINDA BİRİ VARDIR.(140)*

Hədisdə açıq şəkildə görüldüyü kimi Fırat çayı ətrafında, mal üstündə döyüşən bir ordu, yəni PKK toplanmış vəziyyətdədir və çox böyük itkilərə səbəb olur. PKK, eynilə hədisdə ifadə edildiyi kimi, müxtəlif ölkələrdə müxtəlif sancaqlara ayrılmış vəziyyətdədir. Hədisdə diqqət çəkən ən əhəmiyyətli təfərrüat isə PKK lideri Abdullah Öcalanın adının dəqiq olaraq bildirilməsidir.

Hz. Mehdi (ə.s)-ın zühuruyla, nə PKK bəlası, nə də dünyanı şiddət məkanına çevirən ünsürlər qalmayacaq. Dünyanın bu hüzur və rifah mühitinə qovuşması çox yaxındır. Allah bu müddət ərzində bizdən dua etməyimizi, bəla və pisliklərlə mübarizə üçün ağıl və qətiyyət göstərməyimizi istəyir. Hz. Mehdi (ə.s)-ın gəlişinin əvvəlində, elmi iş apararaq, səhv ideologiyaların və xurafatların təsirində qalmış olan birlikləri xəbərdar etməyimiz və mühiti hz. Mehdi (ə.s)-ın gəlişi üçün hazırlamağımızı istəyir. Şübhəsiz, Uca Rəbbimiz bu gözəl mühiti tək bir əmri ilə meydana gətirməyə qadirdir. Lakin hz. Mehdi (ə.s)-ın gəlişindən əvvəl yaşanan çətinliklər və aparılan elmi mübarizə, dünyanın son zamanındakı qızıl dövrün gözəlliyini fərqləndirə bilmək, Rəbbimizin cənnətinə layiq ola bilmək, lakin hamısından əhəmiyyətlisi Rəbbimizin razılığını qazana bilmək üçün çox əhəmiyyətlidir.

# NƏTİCƏ

Osmanlı dağılarkən, Ulu Öndərimiz Atatürkün müəyyən etdiyi Misak-ı Milli sərhədlərimizə çox sayda dövlət göz dikmişdir. Bəziləri İstanbula çatmaq istəmiş, amma Çanaqqalanı keçə bilməmiş; bəziləri Adana, Mərsin, Antep, Maraş, Urfaya əlini uzatmış və geri çevrilmiş; bəziləri də İzmirdən böyük məğlubiyyətlə ayrılmışdır. Türk milləti, ən çətin zamanlarında belə mübarizədən qaçmamış, vətən torpaqlarının bölünməməsi uğrunda canını ortaya qoymuşdur. Necə ki, son 40 il ərzində PKK xainlərinin çirkin, hiyləgər və alçaq tələlərinə qətiyyətlə qarşı çıxan və bu yolda can verən Mehmetciyimiz bunun ən böyük dəlilidir. Bu ölkədə, xəyanət edən və oyun quranların güclənmələrinə icazə verilməyibsə, o da Allahın izni ilə, türk əsgərinin və polisinin şəhadəti gözünün qarşısına alan qətiyyətindəndir.

Türk xalqı, vətənimizi qorumaq uğrunda I Dünya Müharibəsinin ardından məğlub olmuş vəziyyətdə, dörd bir tərəfdən hücum altında və tamamilə yoxluq içində, olduqca az sayda insan gücü ilə Qurtuluş müharibəsi etmişdir. Əsla reallaşmayacaq Kürdüstan xəyalı quran dərin dövlətlərin bəlkə də fikirləşmədikləri ən əsas şey, vətən mövzusunda daim həssas olmuş olan türk xalqını, türk əsgərini və türk polisini nəzərə almamış olmamalarıdır.

Nəzərə almalıdırlar; çünki nə bir kommunist hücum ilə, nə hiyləgər planlar yolu ilə vətənimizi böldürmək kimi bir niyyətimiz əsla yoxdur. PKK-nın kürdlüyü istifadə edərək hazırladığı çirkin oyunu aradan qaldıracaq və illərdir hüquqları həm dərin dövlət, həm də PKK tərəfindən pozulmuş olan kürd qardaşlarımızla birlikdə bölünmə planlarını pozacağıq. Kürdlər bizim böyük qardaşım, canımız, dostumuz, dürüstlüyümüz, əfəndiliyimiz, əhəmiyyətli bir dəyərimiz, bizim bir parçamızdır. Onları bizdən ayırmaq istəyən və vətən, dövlət, bayraq düşməni alçaqlara yem halına gətirməyə çalışan hiyləgər güclər, qəti olaraq bunda müvəffəqiyyətli ola bilməyəcəklər.

Əhəmiyyətli olan qurulan tələlərin fərqinə varılması və bu mövzuda tədbir görülməsidir. Ölkəmizə istiqamətli qurulmuş olan tələ olduqca açıqdır və bu mövzuda bir millət kimi etməli olduğumuz məsuliyyətlərimiz var. Dünya dərin dövlətlərinin qaranlıq planları türk xalqı tərəfindən dayandırılmalı və sevgi, birlik, təhsil və çəkindiricilik yolu ilə PKK-nın ideoloji varlığı yox edilməlidir. Dünyaya sülh gətirəcək və bütün dünyanı əhatə edəcək bir birlik ruhunun, dini, vətəni, etnik kimliyi nə olursa olsun, doğru və dürüst insanlarla birlikdə İslam Birliyinin təməlləri atılmalıdır.

Allahın ədaləti hər an ağılda tutulmalıdır: Allahın qoyduğu qayda-qanunda imanlı millətlərə qarşı qurulan hər tələ qədərdə pozulmuş olaraq yaradılır. Bu səbəbdən, qaranlıq və hiyləgər planlar, nə qədər böyük və təsirli görünürsə görünsün, türk milləti üzərində təsirsizdir. Bizlər qətiyyətli olar, birlik və bütövlüyümüzü qoruyar və əsil olaraq Allaha arxalanar və güvənirsək, ölkəmiz üzərində torpaq qapmaq ehtirası içində olanlara

əsla yol açılmayacaq. Unudulmamalıdır ki, dünyanı nə dərin güclər, nə super güclər, nə də şiddət tərəfdarları idarə etmir; dünyanın və bütün kainatın tək hakimi Uca Allahdır.

**Xeyr, Biz haqqı batilin üstünə atarıq və o da onun işini bitirər. Bir anda batilin yox olub getdiyini görərsiniz. Allaha aid etdiyiniz sifətlərə görə vay halınıza! (Ənbiya surəsi, 18)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

